# Heydər ƏLİYEV: “Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək”


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN





№ 226 (9681) 15 oktyabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR


## MÖHTƏŞƏM 21 İL 2003 2024

# Zəfərin başlanma günü



**Torpaqları işğaldan azad edilmiş azərbaycanlılar bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq, başlarını dik tutaraq vüqarla yaşayırlar. Buna necə nail olunub?**
**Suala cavab verməkdən ötrü 1988-ci ildən sonra Azərbaycan xalqının qarşısında dayanan başlıca məqsədə və keçilən yola nəzər yetirmək vacibdir.**

### Qarşıda dayanan başlıca məqsəd

1988-ci ildən sonra xalqın qarşısında dayanan başlıca məqsəd - milli ideya Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsinin qarşısını almaq, 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra isə güclü dövlət qurmaq, Ermənistanın hərbi təcavüzünü dayandırmaq, ölkənin inkişafının açarını tapmaq, işğal altında qalan torpaqlarını azad etmək, dövlət sərhədlərinə nəzarəti həyata keçirmək və dövlət suverenliyini tam bərqərar etmək olub. 1991-1993-cü illərdə bir-birini əvəz edən uğursuz hakimiyyətlər bu vəzifələri yerinə yetirə bilmədilər.

Nəticədə 1993-cü ildə ümumi böhrana düşən Azərbaycan Respublikası dövlət müstəqilliyini itirmək, vətəndaş müharibəsi, xaricdən dəstəklənən separatçılıqla parçalanmaq təhlükəsi qarşısında dayandıqda xalqın təkidli tələbi ilə hakimiyyət görkəmli dövlət və siyasi xadim Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdikdən sonra dövlət müstəqilliyinin itirilməsinin qarşısı alındı, xalq vətəndaş müharibəsi, ölkə separatçılıqla parçalanmaq təhlükəsindən xilas oldu. Ümummilli Lider Heydər Əliyev başlıca məqsədə çatmaqdan ötrü imkanları qiymətləndirərək atəşkəsə getdi, neftə dair "Əsrin müqaviləsi"ni imzaladı, hakimiyyətə küçədən gəlməyə son qoydu, güclü ordu və dərin dövlət qurmağa başladı. Ölkənin inkişafının açarı təbii sərvət - neft oldu. Azərbaycan tarixində ilk dəfə olaraq bu təbii sərvəti milli sərvətə çevirən Heydər Əliyev onu ali məqsədə yönlətdi, bütün sahələrdə islahatlara başladı, xalqın və dövlətin inkişaf strategiyasını müəyyənləşdirdi.

Həyata keçirilən tədbirlər başlıca məqsədə çatmaqda təməl rolunu oynadılar. Millətin qarşısında dayanan hədəfi isə Prezident İlham Əliyev yerinə yetirdi. Bu necə oldu?

### Hər şey başlıca məqsəd naminə

2003-cü il oktyabrın 15-də İlham Əliyevin Prezident seçilməsi ilə ölkə tarixində başlayan və mühüm özünəməxsusluqları olan yeni mərhələdə də qarşıda dayanan başlıca məqsəd torpaqların işğaldan azad edilməsi kimi müəyyənləşdirildi. Prezident olaraq andiçmə mərasimində etdiyi nitqində dövlət başçısı bildirdi ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin qurulmasına heç bir zaman imkan verilməyəcək, hansı vasitələrlə olursa-olsun işğal altında qalan torpaqlar azad ediləcəkdir. Bundan sonrakı bütün tədbirlər bu məqsədin həyata keçirilməsinə yönəldi.

→ 5

## "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 131 (Cild I); 2024, № 3, maddə 252, № 6 (I kitab), maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə üzrə:

1.1. birinci abzasda "Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2. 2.1-ci bənddən "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə" sözləri çıxarılsın və həmin bənddə "təşkili" sözü "təkmilləşdirilməsi" sözü ilə əvəz edilsin.

2. 4-cü hissədə "Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

3. Həmin Fərmanla təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə" üzrə:

3.1. aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. ESTİS-in sahibi və operatoru Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyidir.";

3.2. 2.1.3-cü və 2.1.4-cü yarımbəndlər ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 oktyabr 2024-cü il*

## Avropa İttifaqı Ermənistan-Azərbaycan sülh məsələsində neytrallıq saxlamalıdır

Prezident İlham Əliyev Belçika Krallığının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib



→ 2

## Azərbaycan ilə Qətər bir-birini daim dəstəkləyir

Prezident İlham Əliyev Qətər Dövlətinin Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib



→ 2

## COP29-da Benin yüksək səviyyədə təmsil olunacaq

Prezident İlham Əliyev Benin Respublikasının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib



→ 3

## Estoniya ölkəmizlə əlaqələrə önəm verir

Prezident İlham Əliyev Estoniyanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib



→ 3

## Əlaqələrin inkişafı üçün yaxşı imkanlar mövcuddur

Prezident İlham Əliyev Danimarkanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Danimarka Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ole Toftun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

→ 3

# Avropa İttifaqı Ermənistan-Azərbaycan sülh məsələsində neytrallıq saxlamalıdır

## Prezident İlham Əliyev Belçika Krallığının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycanda səfir kimi fəaliyyət göstərməsindən şərəf hissi duyduğunu deyən Julyen de Frepon fəaliyyəti dövründə ikitərəfli münasibətlərin müxtəlif, o cümlədən iqtisadi və siyasi sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini dedi.

Azərbaycanda COP29-un keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir bu tədbiri iqlim dəyişmələri ilə bağlı qlobal çağırış kimi dəyərləndirdi.

O, eyni zamanda Belçikanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirdi. Səfir COP29-un enerji keçidi və iqlim dəyişmələri ilə bağlı fəaliyyət göstərən Belçika şirkətlərinin öz imkanlarını və "yaşıl enerji" sahəsində əldə etdiyi nailiyyətləri nümayiş etdirmək üçün də bir fürsət olacağını vurğuladı.

Regional sabitliyin Belçika üçün də böyük önəm daşıdığını deyən diplomat Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımın ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirdi. O, Ermənistan-Azərbaycan münasibətləri ilə də bağlı regional sabitlikdə Belçikanın maraqlı olduğunu dedi. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması üzrə son dövrlərdəki irəliləyişi qeyd edən səfir bu istiqamətdə atılan addımları Belçikanın təşviq etdiyini söylədi. O, eyni zamanda Azərbaycanın üzləşdiyi mina çağırışları məsələsində də Belçikanın ölkəmizə, həmçinin ANAMA-nın fəaliyyətinə göstərdiyi dəstəyini bundan sonra da davam etdirəcəyini vurğuladı.

Belçikanın Avropa İttifaqının əsasını qoyan üzv dövlətlərdən biri olduğunu deyən Julyen de Frepon ölkəsinin Azərbaycan ilə Avropa İttifaqı arasında enerji keçidi, iqlim dəyişmələri, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlıqda maraqlı olduğunu bildirdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı potensialın mövcudluğunu qeyd edərək, iki ölkənin xarici işlər nazirləri arasında keçirilən görüşlərin əməkdaşlığın gündəliyi məsələsinin müzakirəsi üçün faydalı olduğunu dedi.

Prezident İlham Əliyev COP29-a hazırlıq işlərinin yekun mərhələdə olduğunu bildirdi. Hazırlıq işlərinə bir ildən az vaxt olduğunu deyən dövlətimizin başçısı COP-öncəsi tədbirinin bu işlərin uğurla həyata keçirilməsini nümayiş etdirdiyini vurğuladı. Prezident İlham Əliyev növbəti ildə Azərbaycanın COP-a sədrliyi dövründə də dünyanın müxtəlif bölgələri arasında körpü rolu oynamaq əzmində olduğunu dedi. Dövlətimizin başçısı eyni zamanda "yaşıl enerji"yə keçidin də bizim geniş gündəliyimizdə duran mühüm məsələ olduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, planlaşdırdığımız layihələrin artıq bir hissəsinin həyata keçirildiyini nəzərə alsaq, qarşıdakı illərdə enerji sektorumuzda bərpaolunan enerjinin payı əhəmiyyətli dərəcədə artacaq və biz bu sahədə Belçika şirkətləri ilə əməkdaşlıq etməyə hazırıq.

Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunan Prezident İlham Əliyev qeyd etdi ki, Brüssel Ermənistanla Azərbaycan arasında Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə danışıqların uğurla keçirildiyi bir məkan olmuşdur və həqiqətən, orada mühüm irəliləyişə nail olunmuşdur. Lakin əfsuslar olsun ki, Ermənistan tərəfi Brüssel prosesi adlanan bu prosesi davam etdirməmək qərarına gəldi. Ancaq hər bir halda bu, çox yaxşı nəticə və təcrübə verən müsbət proses idi.

Prezident İlham Əliyev qeyd etdi ki, hazırkı şəraitdə daha çox diqqət ikitərəfli müstəviyə cəmlənib. Dövlətimizin başçısı vurğuladı ki, sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Prezident İlham Əliyev bu baxımdan Ermənistan hökumətinin "bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın" qəribə təklifini tamamilə reallıqdan kənar hesab etdiyini bildirdi və bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, torpaqlarımızın işğalı dövründə dırnaqarası "Madrid prosesi prinsipləri" mövcud idi və bunun qarşılıqlı razılaşdırılmış əsas müddəalarından biri də o idi ki, bütün məsələlər razılaşdırılmadan heç nə razılaşdırıla bilməz. Bu, ozamankı ATƏT-in Minsk qrupu həmsədrlərinin, Ermənistanın və Azərbaycanın mövqeyi idi və biz bu mövqedə qalırıq. Əfsuslar olsun ki, keçmiş Minsk qrupunun bəzi üzvləri bununla bağlı öz mövqelərini dəyişdirdilər və Ermənistanın indiki qeyri-real təklifini dəstəkləyirlər. Prezident İlham Əliyev bildirdi ki, bir çox hallarda Ermənistan tərəfi bu təklifləri irəli sürməklə guya sülh istəyində olduqlarını nümayiş etdirirlər. Lakin onlar əvvəlcədən bilirlər ki, bu təkliflər qəbul oluna bilməz. Bütün bunlara baxmayaraq, proses davam edir. Azərbaycan Prezidenti vurğuladı ki, bizim torpaqlar işğal altında olanda - 1992-ci ildən 2020-ci ilədək 28 il vaxt keçirdik və nəticə sıfra bərabər oldu. İndi isə danışıqlara iki ildir ki, başlanılıb. Ona görə səbirli, realist və son nəticədə Cənubi Qafqazda sülhə nail olunmasına sadiq olmaq lazımdır.

Dövlətimizin başçısı belə bir məqama da toxundu ki, Avropa İttifaqı əvvəllər olduğu kimi, Ermənistan-Azərbaycan sülh məsələsində neytrallıq saxlamalıdır. Belə ki, Avropa İttifaqı torpaqlarımızın işğalı dövründə bu məsələdə heç vaxt fəal olmamışdır. Bizim bununla bağlı o dövrdə Avropa İttifaqına və Avropa institutlarına xeyli sayda müraciətlərimiz belə cavablandırılırdı ki, bu məsələ ilə Minsk qrupu məşğul olur, Avropa İttifaqının bu məsələyə aidiyyəti yoxdur. Hazırda isə Avropa İttifaqının bu məsələyə fəal cəlb olunduğu görünür. Lakin əfsuslar olsun ki, Brüsseldə, Avropa İttifaqının mənzil-qərargahında bəziləri tərəfkeşlik edirlər. Bu, qeyri-məhsuldar bir mövqedir, yalnız etimadsızlıq yaradır və Avropa İttifaqını normallaşma prosesindən təcrid edir. Dövlətimizin başçısı vurğuladı ki, əgər mümkündürsə, mən belə bir tövsiyə edərdim ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlığının davam etdirilməsi naminə Fransanın yolu ilə gedilməsin, özlərini Fransanın təsirinə salmasınlar. Çünki Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması ilə bağlı siyasəti destruktiv siyasət olub və tamamilə bu cür də qalmaqdadır.

Prezident İlham Əliyev onu da vurğuladı ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərində etimadsızlıq yaradan məsələlərdən biri də sərhəddə dırnaqarası "Avropa müşahidəçilər missiyasının" müddətinin bizim razılığımız olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılmasıdır. Buna nə ehtiyac var idi?! 2022-ci ilin oktyabrında Praqada Azərbaycan ona razılıq vermişdi ki, bu missiya 2 ay orada qalsın və istefaya çıxmış məhdud sayda hərbi zabitlərdən ibarət olsun. Lakin bu missiyanın müddəti uzadıldıqda bizimlə heç kim məsləhətləşmədi. İndi də əlavə müddətə uzadılması istiqamətində müzakirələr aparılır. Missiya üzvlərinin davranışı, necə deyərlər, "binokl diplomatiyası" heç cür qəbuledilməz və hər hansı bir normal siyasi mədəniyyət standartlarından kənar idi. Dövlətimizin başçısı bildirdi ki, biz Avropa İttifaqı ilə təmaslarda bu məsələni qaldıracağıq.

Belçika səfiri bu məlumatlara görə təşəkkürünü bildirdi, öz tərəfindən əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı geniş gündəliyə malikdir və enerji, nəqliyyat, "yaşıl enerji", ticarət sahələrini əhatə edir. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Beləliklə, Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı Azərbaycan-Aİ əməkdaşlığında geriləmə olarsa, bu, təəssüf hissi doğurar. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər Ermənistan-Azərbaycan gündəliyindən asılı olmayaraq inkişaf edəcək.

# Azərbaycan ilə Qətər bir-birini daim dəstəkləyir

## Prezident İlham Əliyev Qətər Dövlətinin Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Hacirinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə edərək ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq aparıldığını, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarda Azərbaycan ilə Qətərin bir-birini daim dəstəkləməsini vurğuladı və qeyd etdi ki, bu qarşılıqlı dəstək özünü ikitərəfli gündəliyin işində də aydın göstərir.

Növbəti illərdə artıq iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələlərinə diqqətin artırılmasının zəruriliyini bildirən Prezident İlham Əliyev investisiya qoyuluşu sahəsində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.





Azərbaycan Prezidenti ölkələrimizin beynəlxalq nəqliyyat yollarının yaradılması sahəsində də fəal iş apardıqlarını məmnunluqla vurğulayaraq, eyni zamanda beynəlxalq səviyyədə sülhün və təhlükəsizliyin təmin edilməsi işində Azərbaycanın və Qətərin səmərəli əməkdaşlıq həyata keçirdiklərini qeyd etdi. Vətəndaşlarımızın ölkələrimizə qarşılıqlı səfərlərinə toxunan dövlətimizin başçısı vurğuladı ki, azərbaycanlılar Qətərdə, qətərlilər isə Azərbaycanda özlərini evlərindəki kimi hiss edirlər. Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı, əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi. Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən səfir Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətərin Əmirinə çatdırmağı xahiş etdi.

Səfir vurğuladı ki, Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərimizin gündəliyi ilə bağlı dediyi dəyərli fikirlər istiqamətində əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcək. O, iqtisadi-ticari əlaqələrin önəminə toxunaraq, investisiya sahəsində əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd etdi.

Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Haciri COP29-un keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, Qətərin bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirdi.

Dövlətimizin başçısı COP29-la bağlı hazırlıq işlərinin yekun mərhələdə olduğunu qeyd etdi.

Görüşdə qarşılıqlı sərmayələr, turizm, nəqliyyat və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, ölkələrimiz arasında hava nəqliyyatının mövcudluğundan və sərnişinlərin mütəmadi artım dinamikasının müşahidə olunmasından məmnunluq ifadə edildi.

# COP29-da Benin yüksək səviyyədə təmsil olunacaq

## Prezident İlham Əliyev Benin Respublikasının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Benin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Akambi Andre Okunlola-Biaunun etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli gündəliyimizin genişləndirilməsinin zəruriliyini qeyd edərək Azərbaycanın Afrika qitəsində fəal iş apardığını, Afrika İttifaqında səfirliyimizin fəaliyyət göstərdiyini, bu təşkilatla əlaqələrimizi hərtərəfli şəkildə genişləndirməkdə maraqlı olduğumuzu dedi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə də Beninlə əməkdaşlığı məmnunluqla xatırladı, Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyinə göstərdiyi dəstəyə görə Beninin üzv dövlət kimi rolunu qeyd etdi. Bu hərəkata sədrliyimizin Afrika ölkələri ilə də sıx təmaslar qurmaq üçün yaxşı imkan yaratdığını deyən dövlətimizin başçısı COP29-un da bu ölkələrlə əməkdaşlıq baxımından önəminə toxundu. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Afrika ölkələrinin iqlim məsələləri ilə bağlı maraqlarına önəm verir.

Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi-ticari, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əməkdaşlığın perspektivlərinə toxundu.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir Benin Respublikasının Prezidenti Patris Talonun salamlarını Azərbaycan Prezidentinə çatdırdı və dedi ki, Benin Prezidenti dövlətimizin başçısına dost münasibət bəsləyir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Benin Prezidentinə çatdırmağı xahiş etdi və məmnuniyyətlə COP29-da Benin dövlətinin başçısını gözlədiyini bildirdi.

COP29 və ölkəmizdə bu tədbirlə bağlı uğurlu hazırlıq işlərinin aparılması münasibətilə təbriklərini çatdıran səfir Azərbaycanın noyabrda dünyanın mərkəzinə çevriləcəyini qeyd etdi və COP29-da Beninin yüksək səviyyədə təmsil olunmaq niyyətində olduğunu vurğuladı.

Akambi Andre Okunlola-Biau Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyi münasibətilə təbriklərini çatdıraraq, ölkəmizin sədrliyi dövründə Afrika qitəsinə xüsusi diqqət göstərilməsini məmnunluqla qeyd etdi.

Söhbət zamanı beynəlxalq təşkilatlar, xüsusən də BMT, Qoşulmama Hərəkatı və digər təsisatlar çərçivəsində Azərbaycanla Benin arasında yaxından əməkdaşlığın aparıldığı vurğulandı, ölkələrimizin BMT-də və onun strukturlarında daim bir-birinin namizədliklərini dəstəklədikləri qeyd olundu.

Azərbaycanın Afrika ölkələri üçün ayırdığı təhsil təqaüdü proqramı çərçivəsində ötən il Benindən də beş tələbənin respublikamızda təhsil aldığını məmnunluqla qeyd edən səfir buna görə təşəkkürünü bildirdi.

Görüşdə Benindən müxtəlif kadrların Azərbaycanda hazırlanması, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Əlaqələrin inkişafı üçün yaxşı imkanlar mövcuddur

## Prezident İlham Əliyev Danimarkanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib



*Əvvəli 1-ci səh.*



Dövlətimizin başçısı indiyədək əməkdaşlığımızla bağlı bir o qədər də işlər görülmədiyini deyərək, potensial sahələrdə, o cümlədən ticarət sahəsində əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu vurğuladı.

Siyasi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının bir sıra dövlətləri ilə tərəfdaşlığının fəal fazada olduğunu qeyd etdi. Dövlətimizin başçısı regionumuz üçün əhəmiyyətli olan bu tarixi məqamda regional siyasətə dair müzakirələrin önəminə toxundu.

Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən ticarət istiqamətində inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini deyən səfir vurğuladı ki, Danimarka siyasətçiləri arasında Azərbaycanın Avropa ilə Mərkəzi Asiyanı birləşdirən mühüm ölkə olması barədə anlayış artmaqdadır. O, ölkəmizin ticarət, enerji, infrastruktur sahələrində haba çevrilmək istiqamətində inkişaf etdiyini vurğulayaraq, Danimarka şirkətlərinin bu işlərdə rol oynaya biləcəyini qeyd etdi.

Dövlətimizin başçısı neft-qaz və "yaşıl enerji" sahələrinə investisiyaların cəlb olunması ilə bağlı Azərbaycanda böyük işlərin həyata keçirildiyini deyərək, eyni zamanda ölkəmizin "yaşıl enerji" və nəqliyyat sahələrində beynəlxalq haba çevrilməsi istiqamətində də fəal fazada işlərin aparıldığını bildirdi.

Prezident İlham Əliyev vurğuladı ki, açıq dənizlərə çıxışımızın olmamasına baxmayaraq, ölkəmiz Şimal-Cənub, Şərq-Qərb dəhlizlərinin kəsişməsində yerləşir və biz ən böyük beynəlxalq yükdaşıma donanmalarından biri daxil olmaqla, ən müasir nəqliyyat infrastrukturu, dəmir yolu və avtomobil yolu, dəniz limanları və hava yolları şirkətlərini yaratmağa müvəffəq olmuşuq. Azərbaycan Prezidenti vurğuladı ki, bütün bunlar beynəlxalq əməkdaşlıq üçün möhkəm platforma yaradır və bu dəhliz Azərbaycan vasitəsilə Şərqlə Qərb arasında daşımalar üçün ən yaxşı marşrutdur.

Dövlətimizin başçısı Azərbaycanda yükdaşımaların həcminin daim artdığını qeyd edərək, hazırda nəqliyyat infrastrukturu, o cümlədən gömrük sahəsində rəqəmsallaşmanın fəal surətdə aparıldığını bildirdi və vurğuladı ki, bu da daşımaların həcminin artırılması və rahat surətdə həyata keçirilməsi işinə xidmət edəcək.

Danimarka səfiri Azərbaycanın uğurlu inkişaf strategiyasının olduğunu və bu xüsusda ölkəmizin regionun nəqliyyat-logistika mərkəzinə çevrilmək niyyətini təqdir etdiklərini diqqətə çatdırdı.

Danimarkanın öz regionunda nəqliyyat sahəsində böyük təcrübəyə malik olmasına və bu sahədə Danimarka şirkətlərinin fəallığına toxunularaq, ölkələrimiz arasında nəqliyyat-logistika sahələrində əməkdaşlıq məsələləri müzakirə edildi və bu istiqamətdə böyük perspektivlərin olduğu vurğulandı.

Səfir COP29-la əlaqədar təbriklərini çatdırdı və bunun dünyamiqyaslı bir tədbir olduğunu vurğuladı. COP29 çərçivəsində Danimarka ilə Azərbaycanın iqlim üzrə nümayəndə heyətlərinin yaxşı əlaqələrə malik olduğu və konstruktiv şəkildə əməkdaşlıq etdikləri bildirildi, bu sahədə ölkələrimiz arasında birgə təşəbbüslərə dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri, biznes dairələrinin birbaşa təmaslar qurması, "yaşıl enerji" və "yaşıl texnologiya"lar sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı "yaşıl enerji" məsələsinə toxunaraq, Xəzər dənizini və Qara dənizi birləşdirən "yaşıl enerji" dəhlizinin yaradılması prosesində ölkəmizin fəallığını qeyd etdi və bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin dibi ilə çəkiləcək kabel xəttini, həmçinin Mərkəzi Asiya ölkələri - Qazaxıstan və Özbəkistanın Xəzər dənizi vasitəsilə Azərbaycana birləşdirən bərpaolunan enerji layihələrini vurğuladı.

Görüşdə Avropa İttifaqının enerji tələbatının artacağı vurğulandı və "yaşıl enerji"yə əsaslanan alternativ enerji mənbəyi kimi formalaşmaqda olan bu dəhlizin əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Estoniya ölkəmizlə əlaqələrə önəm verir

## Prezident İlham Əliyev Estoniyanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vayno Reynartın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin gündəliyinin genişləndirilməsi, ticarət, iqtisadiyyat, investisiya sahələrində və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı yeni imkanların müəyyənləşdirilməsinin önəmini qeyd etdi, bunun üçün yaxşı imkanların olduğunu dedi.

Azərbaycana səfir təyin olunmasından şərəf duyduğunu bildirən Vayno Reynart Bakıya budəfəki gəlişi zamanı paytaxtda gedən inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi. O qeyd etdi ki, həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində Estoniya ölkəmizlə əlaqələrə önəm verir.

Səfir vurğuladı ki, Estoniya Azərbaycanın Ermənistanla sülh müqaviləsinə nail olunması istiqamətində səylərini məmnunluqla izləyir və bununla bağlı beynəlxalq səviyyədə göstərilən səyləri də dəstəkləyir.

İkitərəfli əlaqələrə toxunan Vayno Reynart əməkdaşlığımızın dərinləşdirilməsi baxımından böyük imkanların olduğunu dedi, xüsusilə iqtisadi sahədə əlaqələrin inkişaf edəcəyinə ümidvarlığını bildirdi.

Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan dövlətimizin başçısı özünün Estoniyaya, Estoniya Prezidentinin isə Azərbaycana səfərinin əlaqələrimizin inkişafında rolunu vurğuladı.

Siyasi sahədə münasibətləri qeyd edən dövlətimizin başçısı həm ikitərəfli, həm də Avropa İttifaqı və digər beynəlxalq institutlar çərçivəsində əlaqələrimizin inkişafı ilə bağlı məsələlərin müzakirə edilməsinin vacibliyini vurğuladı. Azərbaycan-Ermənistan sülh prosesinə toxunan dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz bu prosesin təşəbbüskarı olub və sülh müqaviləsinin baza prinsiplərini irəli sürüb. Bu istiqamətdə fəal işin getdiyini bildirən Azərbaycan Prezidenti sülh müqaviləsinin bütün müddəaları üzrə razılaşmaların əldə olunmasının vacibliyini bildirdi, regional sabitliyə xidmət etməsi baxımından bu müqavilənin hər bir müddəasının önəminə toxundu.

Söhbət zamanı Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və COP29-la bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Rafiq Musa oğlu Cəfərov Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri vəzifəsindən azad edilərək həmin məhkəmənin sədrinin müavini təyin edilsin;

1.2. Zaur İkram oğlu Məmmədov Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri vəzifəsindən azad edilərək həmin məhkəmənin sədrinin müavini təyin edilsin;

1.3. İlqar Məhərrəm oğlu Mirzəyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.4. Günay İsmayıl qızı Cavadova Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

1.5. Samir Firdusi oğlu Həsənov Şirvan Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.6. Bəxtiyar Şahfirudin oğlu Məmmədov Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Astara Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.7. Zamiq Akif oğlu Rəsulov Ağstafa Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gədəbəy Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.8. İlqar Yadulla oğlu Əliyev Xocavənd Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.9. Mirheydər Seyidəmir oğlu Zeynalov Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Qax Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.10. Samir İlham oğlu Mayılov Qobustan Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.11. Rövşən Elbrus oğlu Xəlilov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Lerik Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.12. Azər İbrahim oğlu İsmayılov Sabirabad Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 oktyabr 2024-cü il*

# Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti oktyabrın 13-də İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Cenevrə Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Azərbaycanın İsveçrədəki səfiri Fuad İsgəndərov, BMT-nin Cenevrə bölməsində və digər beynəlxalq təşkilatlar yanında Azərbaycanın daimi nümayəndəsi Qalib İsrafilov və digər rəsmi şəxslər qarşılayıblar.



Səfər çərçivəsində Sahibə Qafarova Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında iştirak edəcək, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, digər rəsmi şəxslərlə görüşlər keçirəcək. Həmçinin Azərbaycan parlamenti spikerinin Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında çıxışı gözlənilir.

*"Azərbaycan"*

# Əlaqələr parlamentlər müstəvisində də inkişaf etdirilir

**İsveçrənin Cenevrə şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, parlamentə növbədənkənar seçkilərin uğurla keçirilməsi və yenidən Azərbaycan parlamentinin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edən Numan Kurtulmuş, Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətlərinin uğurla inkişafından məmnunluğunu bildirib. Ölkələrimizin bütün məsələlərdə ortaq mövqe nümayiş etdirdiyini söyləyən TBMM Sədri 44 günlük Vətən müharibəsindən sonra regionda yeni şəraitin yarandığını, bu xüsusda Qarabağ və Şərqi Zəngəzurda aparılan böyük quruculuq işlərinin, Zəngəzur dəhlizinin açılmasının türk dünyasına və türkdilli ölkələrə böyük imkanlar yaradacağını bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova təbriklərə görə təşəkkürünü bildirərək qeyd edib ki, bu vəzifəyə yenidən seçilməsindən sonra onu ilk təbrik edən TBMM Sədri olub. O, seçkilərdə Türkiyə Böyük Millət Məclisinin ən böyük heyətlə müşahidələr aparmasına görə minnətdarlığını ifadə edib.



Spiker Sahibə Qafarova qardaş ölkələrimiz arasında Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı əsasında möhtəşəm inkişaf yolu keçən münasibətlərimizin dövlət başçılarımızın siyasi iradəsi və birgə səyləri sayəsində bu gün özünün ən yüksək səviyyəsinə yüksəldiyini vurğulayıb. Qeyd olunub ki, qardaş ölkələrimiz bütün məsələlərdə ortaq mövqedən çıxış edir, o cümlədən beynəlxalq təşkilatlarda da bir-birinə dəstək göstərirlər.

Görüşdə ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli əməkdaşlıq əlaqələrinin parlamentlər müstəvisində də inkişaf etdirildiyi və qarşıdakı dövrlərdə də bu istiqamətdə fəaliyyətin davamlı olacağı vurğulanıb. Parlament sədrləri, dostluq qrupları və deputatlar arasında təmasların ümumi münasibətlərimizə mühüm töhfələri təqdir edilib. Parlamentlər müstəvisində də üçtərəfli formatda keçirilən görüşlərin əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı ölkələrimizin regionda sülh və əməkdaşlıq gündəliyi ilə çıxış etdikləri ifadə olunub.

Görüşdə parlamentlərin iqlim dəyişmələri ilə əlaqədar çoxtərəfli platformalarda birgə fəaliyyətinin əhəmiyyəti qeyd edilib.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan regionda sülh və təhlükəsizliyin, əməkdaşlığın təmin olunmasına böyük əhəmiyyət verir



**Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində İran İslam Şurası Məclisinin Sədri Məhəmmədbaqer Qalibaf ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Milli Məclisə növbədənkənar seçkilərin uğurla keçirilməsi və yenidən Azərbaycan parlamentinin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı bir daha təbrik edən İran parlamentinin sədri, ölkəsinin Azərbaycanla münasibətlərin daha da gücləndirilməsində maraqlı olduğunu bildirib. Məhəmmədbaqer Qalibaf deyib ki, Azərbaycan İran üçün xüsusi əhəmiyyət kəsb edir və onlar ölkəmizlə münasibətlərə xüsusi əhəmiyyət verirlər. O, İranın yeni seçilmiş rəhbərliyinin siyasətində qonşu ölkələrlə münasibətlərdə heç bir dəyişikliyin olmadığını, parlamentlər səviyyəsində də əlaqələrin daha da genişləndirilməsi istiqamətində mövqeyin davam edəcəyini söyləyib.

Qeyd olunub ki, İran yaxşı qonşuluq, iqtisadi və mədəni əlaqələrin daha da gücləndirilməsinin bütün regionda sülh və təhlükəsizliyə töhfə verəcəyinə inanır. Bildirilib ki, ölkələrimiz iqtisadi əməkdaşlıq, nəqliyyat, regional kommunikasiya imkanlarından geniş istifadə etməlidir. İran parlamentinin sədri "3+3" formatında əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Milli Məclisin Sədri Sahibə Qafarova ölkələrimizin və xalqlarımızın ortaq tarixi, mədəni, dini dəyərləri bölüşdüklərini qeyd edərək, bu gün Azərbaycanla İran arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlıq əlaqələrinin inkişaf etdiyini diqqətə çatdırıb. O, ikitərəfli formatda əldə edilmiş razılaşmaların, həyata keçirilən birgə layihələrin əməkdaşlığımızın daha da genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycan regionda sülh və təhlükəsizliyin, əməkdaşlığın təmin olunmasına böyük əhəmiyyət verir və ölkəmiz sülhpərvər siyasət həyata keçirir.

Görüşdə parlamentlər arasında əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Spiker Sahibə Qafarova İran İslam Şurası Məclisinin Sədri ilə bundan öncəki görüşlərini xatırladaraq, bu görüşlər zamanı parlamentlərarası əlaqələrimizin mövcud vəziyyəti və bu əlaqələrin daha da genişləndirilməsi imkanlarının müzakirə olunduğunu xatırladıb.

Qeyd edilib ki, 2024-cü ildə hər iki ölkədə parlament seçkiləri keçirilib. Azərbaycan və İran parlamentlərində parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yeni tərkibləri formalaşdırılıb. Qanunverici orqanlarımızın bir sıra beynəlxalq parlament təşkilatlarında, o cümlədən Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Parlamentlərarası İttifaq, Asiya Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası kimi beynəlxalq parlament təşkilatları çərçivəsində səmərəli əməkdaşlıq əlaqələrinin mövcud olduğu diqqətə çatdırılıb.

Görüşdə cari ilin noyabr ayında Bakıda COP29 çərçivəsində keçiriləcək Parlament Konfransı ilə bağlı məsələlər də müzakirə edilib. Parlamentlərin iqlim dəyişmələri ilə əlaqədar çoxtərəfli platformalarda birgə fəaliyyətinin əhəmiyyəti qeyd edilib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında çıxış edib

**Milli Məclisin Sədri, Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin rəhbəri Sahibə Qafarova İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında "Daha sülhsevər və dayanıqlı gələcək üçün elm, texnologiya və innovasiyadan (ETİ) istifadə" mövzusunda çıxış edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir iştirakçılarını salamlayan Milli Məclisin Sədri Parlamentlərarası İttifaqın 149-cu Assambleyasının işinə uğurlar arzulayıb.

Spiker Sahibə Qafarova deyib ki, elm, texnologiya və innovasiya hər zaman cəmiyyətin inkişaf meyillərinin mərkəzində yer alıb. Bu gün Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində onların vacib rolu hamılıqla qəbul edilib. Həqiqətən də elm, texnologiya və innovasiyalar Davamlı İnkişaf Məqsədlərinin çoxu ilə əlaqəli olduğu üçün bu məqsədlərin reallaşdırılmasına ciddi təsir etmək imkanına malikdir.

O, təəssüflə qeyd edib ki, hesabatlara görə, 2030-cu ilin Davam İnkişaf Gündəliyində nəzərdə tutulmuş vaxtın bitməsinə sadəcə 5 il qaldığı bir dövrdə həmin gündəliyin və 17 davamlı inkişaf məqsədinin yalnız 17 faizi zamanında həyata keçirilməkdədir ki, bu da kifayət qədər narahatedici məqamdır.

Spiker bildirib ki, dünya birliyi, hamının xeyrinə, birgə müəyyən edilmiş İnkişaf Məqsədlərinə çatmaq səylərini irəli sürüb. İndiyə kimi çoxsaylı qətnamələr, bəyannamələr qəbul edilib, bir çox forumlar keçirilib. Lakin bir sıra bərabərsizliklər hələ də qalır. Sahibə Qafarova bəzi problemlərin tərəqqini ləngitdiyini, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı fərqin daha da artdığını söyləyib. Bildirib ki, mövcud vəziyyəti nəzərə alaraq, real addımlar atmağın və uyğun həllər təklif etməyin vaxtı gəlib çatıb.

Qeyd olunub ki, bu gün elm, texnologiya və innovasiyanın əlçatanlığı məsələsi ön plana çıxır. Əgər onlar yalnız inkişaf etmiş ölkələrə, icmalara və fərdlərə əlçatan və münasib olarsa, belə bir vəziyyət heç bir həll təqdim etməyəcək və bu səpkidən olan hər hansı bir problemin mənfi təsirləri, əksinə, daha da artacaq.

Parlamentin spikeri vurğulayıb ki, bəzi ölkələrin vaksin ehtiyaclarını qarşılamaq məqsədilə öz peyvənd tələblərini prioritetləşdirmək üçün texnoloji üstünlüklərindən istifadə etdikləri COVID-19 pandemiyasının dərsləri unudulmamalıdır.

Əgər biz DİM-lərin kollektiv həyata keçirilməsini və heç kəsi kənarda qoymamağı hədəfləyiriksə, bu halda ETİ-lər hər kəs üçün əlçatan olmalıdır. İnkişaf etməkdə olan ölkələr elmi, texniki və innovasiya siyasətlərini milli inkişaf strategiyalarına inteqrasiya etmək üçün lazım olan tədbirləri müəyyənləşdirməlidirlər. Lakin bu fəaliyyət eyni zamanda maliyyə, texniki yardım, potensial yaradıcılığı, texnologiyanın ötürülməsi, ən yaxşı təcrübələrin paylaşılması yolu ilə təşviq olunmalıdır.

Milli Məclisin Sədri çıxışında qeyd edib ki, parlamentlər ETİ-nin təşviqi üçün əlverişli mühitin yaradılmasında, milli inkişaf proqramlarının hazırlanmasında, texnologiya mübadiləsinin dəstəklənməsində və ölkələr arasında tərəfdaşlığın gücləndirilməsinə töhfə verməkdə fəal rol oynaya bilərlər. Bu mənada, Sahibə Qafarova təkcə siyasi iradə deyil, həm də parlamentlərin birgə səylərini təşviq etmək və onların səslərinin eşidilməsini təmin etmək üçün praktiki alətlərə malik olan Parlamentlərarası İttifaqın rolunu xüsusi qeyd edib.

Azərbaycan parlamentinin spikeri diqqətə çatdırıb ki, elm, texnologiya və innovasiya kimi sahələr Azərbaycanın inkişaf gündəliyində mühüm yer tutur. Qeyd olunub ki, DİM məqsəd və hədəfləri ölkəmizin milli inkişaf planlarına və strategiyalarına daxil edilib. Ölkəmizdə müasir innovasiyalar və rəqabət qabiliyyətli insan kapitalı 2030-cu ilədək yeni sosial-iqtisadi inkişaf strategiyasının beş prioritet sahəsindən biridir.

Qabaqcıl texnologiya sənayelərini və innovasiyanı dəstəkləyən, iqtisadiyyatın texnoloji imkanlarını artıran rəqəmsal cəmiyyət inkişafın hərəkətverici qüvvəsi hesab olunur. Bununla yanaşı, ETİ Azərbaycanın bərpaolunan enerji potensialını inkişaf etdirmək və Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində "yaşıl enerji" zonalarının yaradılması üzrə fəaliyyətinin mühüm amilidir.

Sahibə Qafarova bildirib ki, qlobal çağırışlar fonunda ölkələrin bir-birinin inkişaf arzularını dəstəkləmək kimi mənəvi öhdəliyi var. 2020-ci ildən bəri Azərbaycan 140-dan çox ölkəyə 330 milyon ABŞ dolları dəyərində humanitar, iqtisadi və texniki yardım göstərib.

Diqqətə çatdırılıb ki, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun 2023-cü ilin mart ayında Azərbaycanda keçirilmiş Zirvə görüşü çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləmək məqsədilə iki qlobal çağırış elan edib. Bu çağırışlar birbaşa maliyyə dəstəyi, təhsil imkanlarının genişləndirilməsi, potensialın artırılması və digər texniki vasitələri nəzərdə tutur.

Sahibə Qafarova deyib ki, bir çoxları elmi, texniki və innovativ təşəbbüslərin davamlı inkişafın hər üç aspektini - iqtisadi inkişaf, sosial tərəqqi və ətraf mühitin qorunmasını əhatə etməli olduğunu hesab edirlər. O qeyd edib ki, iqlim dəyişikliyi kimi təxirəsalınmaz bir qlobal problem qarşısında ətraf mühitin qorunması çox vacibdir.

Cari ilin noyabr ayında Azərbaycanın paytaxtı Bakı şəhərində keçiriləcək COP29 tədbiri barədə məlumat verən spiker Sahibə Qafarova deyib ki, tədbirə hazırlıq intensiv şəkildə həyata keçirilir. O bildirib ki, texnologiya COP29 Azərbaycan sədrliyinin baxışında mühüm yer tutur, çünki o, iqlim dəyişikliyinə qarşı qlobal cavabın vacib komponentidir. Texnologiya həm təsirli yumşaltma, həm də uyğunlaşma tədbirlərinin asanlaşdırılmasında həlledici rol oynayır.

Diqqətə çatdırılıb ki, Azərbaycan sədrliyi artıq 14 təşəbbüs irəli sürüb, bunlardan biri də "Yaşıl Rəqəmsal Fəaliyyət" təşəbbüsüdür. COP29 çərçivəsində tarixdə ilk dəfə Rəqəmsallaşma Günü keçiriləcək ki, bu da öz növbəsində iqlim böhranı ilə mübarizədə rəqəmsal texnologiyaların əvəzolunmaz roluna dair müzakirələrin səviyyəsinin artırılması üçün bir platforma rolunu oynamış olacaq. Elə həmin gün yüksəksəviyyəli xüsusi "dəyirmi masa" təşkil olunacaq, müvafiq bəyannamə təqdim olunacaq.

Milli Məclisin Sədri bildirib ki, parlament müzakirələrində iqlim dəyişikliyi məsələsinin əhəmiyyətini nəzərə alaraq, Parlamentlərarası İttifaq Azərbaycan Milli Məclisi ilə birlikdə COP29 çərçivəsində parlament görüşü təşkil edəcək. Diqqətə çatdırılıb ki, tərəflər artıq tədbirə hazırlıq prosesinə yekun vurmaq üzrədirlər.

Sahibə Qafarova tədbir iştirakçılarını parlament iclasına dəvət edib, onları bu görüşdə fəal iştirak etməyə çağırıb. O vurğulayıb ki, biz bu tədbiri birgə səylərlə çoxşaxəli iqlim fəaliyyətinə parlament töhfəsinin mühüm bir mərhələsinə çevirə bilərik.

*"Azərbaycan"*

# Milli Məclisdə TBMM nümayəndə heyəti ilə görüş keçirilib

**Oktyabrın 14-də Milli Məclisin Elm və təhsil komitəsi və Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu ilə Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti arasında görüş keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov bu cür görüşlərin və qarşılıqlı səfərlərin ölkələrimiz arasında olan qardaşlıq münasibətlərinin inkişafına xidmət etdiyini deyib. Komitə sədri Ulu Öndər Heydər Əliyevin Azərbaycanla Türkiyə arasında əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət verdiyini xatırlayıb, Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın dostluğu sayəsində münasibətlərimizin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayıb.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov ölkələrimiz arasında olan yüksəksəviyyəli əməkdaşlığın elm və təhsil sahəsində də məmnunluq doğurduğunu qeyd edərək, bu sahədə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikirlərini bildirib.



TBMM-in Milli təhsil, mədəniyyət, gənclik və idman komitəsinin sədri Mahmut Özer, Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım və Şimali Kipr Türk Cümhuriyyəti ilə dostluq qrupunun rəhbəri Orhan Erdem Azərbaycan parlamentinin deputatlarını VII çağırış Milli Məclisə seçilmələri münasibətilə təbrik ediblər və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar. TBMM-in üzvləri ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlığın getdikcə daha da möhkəmlənməsindən məmnunluqlarını bildiriblər, bu əlaqələrin daha da şaxələndirilməsinin əhəmiyyətini qeyd ediblər.

Görüşdə Milli Məclisin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev, Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə, Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Cavanşir Feyziyev, deputatlar Əziz Ələkbərov, Ağalar Vəliyev, Mehriban Vəliyeva, Fatma Yıldırım, Anar Məmmədov və Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı çıxış ediblər, iki ölkə arasında dinamik inkişaf edən dostluq və qardaşlıq münasibətlərinin regionda və dünyada sülhün və əməkdaşlığın möhkəmlənməsinə xidmət etdiyini bildiriblər.

*"Azərbaycan"*



# MÖHTƏŞƏM 21 İL 2003 2024

# Zəfərin başlanma günü

*Əvvəli 1-ci səh.*

İlk növbədə, Azərbaycan Respublikasında dövlət quruculuğunda və xarici siyasətdə varislik, Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt yeni şəraitə uyğun olaraq davam etdirildi. Siyasətinin başlıca məqsədi millətin daha yaxşı yaşaması olan Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrində geniş islahatlar həyata keçirdi. Sosial dövlətin qurulmasından və bərabər imkanların yaradılmasından ötrü başlanan islahatlar dərinləşdirildi. Yeni iş yerləri açıldı, yoxsulluğun səviyyəsi aşağı salındı. Gənclərə xüsusi qayğı göstərildi. Dövlət büdcəsi hesabına təhsil almaq istəyənlər üçün yerlərin sayı artırıldı. Xarici ölkələrin qabaqcıl universitetlərində təhsil almaqdan ötrü dövlət proqramları qəbul edildi.

Məlum olduğu kimi, bəşər cəmiyyəti yaranandan bəri insan həmişə təhlükəsiz, sabit və gələcəyi aydın olan bir şəraitdə yaşamaq istəyib. Yürütdüyü siyasətlə Prezident İlham Əliyev Azərbaycanı dünyanın təhlükəsiz yaşamaq üçün ən etibarlı ölkəsinə çevirdi.

Milli-mənəvi köklərdən ayrılmayaraq, tarixi varisliyə dayanaraq ölkənin müasirləşdirilməsini bir vəzifə olaraq qarşıya qoyan Prezident İlham Əliyev rəqabətədavamlı, dünyada baş verən təlatümlərə hazır olan Azərbaycan dövləti qurdu.

Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzu və təsiri, ona maraq göstərən, əlaqələr qurmaq istəyən dövlətlərin sayı artdı, dostları çoxaldı. Azərbaycan sözü ilə işi bir olan, ləyaqətli bir dövlətdir. Prezident İlham Əliyevin "Mənim sözüm imzam gücündədir" fikrinə əmin olan dünya ölkələrinin başçıları Azərbaycan rəhbərinə hörmətlə yanaşdılar, ondan öyrəndilər və indi də öyrənirlər.

Prezident İlham Əliyev daim milli dövlət maraqlarının, haqq və ədalətin yanında oldu, Azərbaycanın mənafelərini hər şeydən üstün tutdu. Dünya siyasətinin, beynəlxalq münasibətlərin həm tarixi, həm nəzəri, həm də praktik baxımdan mahir bilicisi olması ilə Azərbaycan dövlətinin xarici siyasətinə böyük uğurlar gətirdi. Ötən illər ərzində Azərbaycan Respublikası heç bir dövlətin və dövlətlər qrupunun, qütblərin deyil, yalnız milli dövlət maraqlarının yanında oldu.

Bilavasitə Prezident İlham Əliyev Azərbaycan dövlətinin sədrliyi müddətində Qoşulmama Hərəkatına yeni nəfəs verdi, təşkilatın üzv dövlətlərinin dünya siyasətində rolunun artmasına nail oldu. Açıq şəkildə bildirdi ki, dünya 25-30 dövlətdən ibarət deyildir. Belə mövqe həm də ikili standartlar siyasətinə qarşı açıq etirazdır.

Ərazisinin bir hissəsinin işğal altında qalmasına, qaçqın və məcburi köçkünlərin olmasına baxmayaraq, Azərbaycan inkişaf edən bir dövlətə çevrildi. Ölkədə geniş inşaat işləri aparıldı, qaçqın və məcburi köçkünlər üçün evlər tikildi. Ərazilərinin bir hissəsinin işğal altında qalmasına, qaçqın və məcburi köçkünlərin olmasına baxmayaraq, Prezident İlham Əliyev inkişaf edən Azərbaycan modeli yaratdı. Dövlət rəhbərinin ayağı dəyən yerlər gülüstana çevrildi. Bütün bunlara görə İlham Əliyev Azərbaycan xalqının minilliklər tarixində Qurucu Prezident adını qazandı. Dövlət başçısı bir möcüzə yaradaraq dünyaya təqdim etdi. Bu, Azərbaycan möcüzəsidir.

Yürüdülən uğurlu siyasət nəticəsində Azərbaycan Respublikası Cənubi Qafqaz iqtisadiyyatının təqribən 75 faizini öz əlində cəmləşdirdi. İqtisadiyyatın neftdən asılılığına son qoymaqdan ötrü addımlar atıldı, böyük layihələr həyata keçirildi.

Ölkəni xarici hərbi müdaxilədən qorumaq qüdrətində olan güclü ordu və müasir hərbi-sənaye kompleksi yaradıldı. Beynəlxalq silah sərgilərində Azərbaycan özünəməxsus yer tutdu.

Planetar təfəkkürlü dövlət xadimi olan İlham Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq "dövlət canlı orqanizmdir - daim genişlənməlidir" geosiyasi nəzəriyyəsini xarici ölkələrə sərmayələr qoymaqla, geniş və səmərəli əməkdaşlıq yolu seçməklə gerçəkləşdirdi. Müstəqilliyin ilk illərində Azərbaycan dövləti borc istəsə də, verməzdilər. Çünki xaos və anarxiyanın hökm sürdüyü bir ölkənin borcunu necə qaytaracağına ümid yox idi. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində vəziyyət dəyişdi. Azərbaycan borc alan ölkədən borc verən, kapital ixrac edən ölkəyə çevrildi. Prezident İlham Əliyev Azərbaycan Respublikasını XXI əsrin nüfuzlu dövləti etdi.

Bir zamanlar Azərbaycan qaz təchizatı sarıdan digər ölkələrdən asılı vəziyyətdə idi. Həmin dövlətlər istədikləri vaxt Azərbaycana satdıqları qazı dayandırar və ondan siyasi təzyiq vasitəsi kimi istifadə etməyə çalışardılar. Prezident İlham Əliyev bu vəziyyətə son qoydu. Azərbaycan enerji təhlükəsizliyini etibarlı təmin edən ölkəyə çevrildi. Bir çox ölkədən ərazisinin həcminə görə kiçik, əhalisinin sayına görə az olmasına baxmayaraq, Azərbaycan Respublikası Avropanın enerji təhlükəsizliyində vacib rol oynayan bir ölkəyə çevrildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri, TANAP, TAP, Trans-Avropa və Trans-Asiya dəmiryollarını birləşdirən Bakı-Tbilisi-Qars dəmiryolu təkcə iqtisadi deyil, böyük siyasi və strateji əhəmiyyət daşıyaraq Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində vacib yer tutan, beynəlxalq siyasətdə rolunu artıran layihələr oldu. Azərbaycan dünyanın etibarlı tranzit mərkəzlərindən birinə çevrildi və nəqliyyat təhlükəsizliyini təmin edən ölkə oldu.



Prezident İlham Əliyev ilk dəfə olaraq sübut etdi ki, təsir baxımından böyük olmayan dövlətlər böyük zənginliklər yarada bilmirlər. Məhz onun siyasəti nəticəsində Azərbaycan dövləti özündən böyük olan qonşu və uzaq ölkələrə təsir edən güc halına gəldi.

Demokratikləşdirmə və vətəndaş cəmiyyətinin qurulmasından ötrü islahatlar dərinləşdirildi. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirildi.

Dərin biliyə, dövlətçilik təfəkkürünə, mükəmməl idarəçilik bacarığına malik olan, milli dövlət maraqlarını hər şeydən üstün tutan Prezident İlham Əliyev Azərbaycan millətini və dövlətini beynəlxalq aləmdə ən layiqli şəkildə təmsil etdi, davranışları və çıxışları ilə millətə başucalığı gətirdi, qürur hissi yaşatdı. Müxtəlif səviyyəli toplantılardakı nitqləri ilə Prezident İlham Əliyev Azərbaycan millətinin yüksək intellektual səviyyəsini və mədəniyyətini dünyaya nümayiş etdirdi. Azərbaycan xalqı əmin oldu ki, Prezident İlham Əliyev olan yerdə milli dövlət maraqları ən yaxşı şəkildə qorunur.

Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycan Respublikası 2011-ci ilin oktyabr ayında BMT-nin 193 üzvündən 155-nin səsini alaraq Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu həm də Prezident İlham Əliyevin rəhbərliyi altında yürüdülən siyasətə və onun şəxsiyyətinə beynəlxalq aləmdə olan inam, etibar və etimad demək idi.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul edilməsi böyük tarixi əhəmiyyət daşıyan hadisə, Azərbaycan dövləti və xalqının tarixində qürurverici bir ilk olmaqla başlıca məqsədin həyata keçirilməsinə yönəldi. Azərbaycan Respublikası özünün dövlət müstəqilliyinin 20-ci ilində dünya siyasətini müəyyən edən 15 ölkədən birinə çevrildi. Bu möhtəşəm hadisə Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı, regionun lider dövləti statusunu möhkəmləndirdi. Həm də onu göstərdi ki, siyasi iradə və əzm olan yerdə istənilən hədəfə çatmaq olar. Bu, sadəcə üzv qəbul olunmaq məsələsi deyil, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun göstəricilərindən biri, milli hədəfə çatmaqda vasitə idi.

Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının iclasına sədrlik edərək ən vacib beynəlxalq məsələlər barədə nitq söyləməsi təkcə Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artması deyil, eyni zamanda başlıca məqsədə nail olmaqda diplomatiyaya yeni imkanlar qazandırdı. Dövlət başçısının müəyyənləşdirdiyi "hücum diplomatiyası" uğurla həyata keçirildi.

Milli hədəfə çatmaq yolunda dövlət başçısının müstəqillik tarixində yaratdığı ilklərindən biri 2013-cü ilin fevral ayında kosmik fəzaya Azərbaycanın ilk peykini, sonrakı illərdə isə daha iki peykini göndərməsi, ölkəmizi kosmos dövləti etməsi oldu. O zaman bəziləri deyirdilər ki, ölkə ərazisinin bir hissəsinin işğal altında qaldığı, məcburi köçkünlərin olduğu bir şəraitdə bu qədər vəsaiti "göyə sovurmaq" nəyə lazımdır. Lakin Prezident İlham Əliyevin uzaqgörənliyi özünü bir daha göstərdi. Milli peyk layihəsinin reallaşdırılması Azərbaycana böyük üstünlüklər verərək milli hədəfə çatmaqda mühüm vasitələrdən biri oldu, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb etdi, informasiya mübadiləsində xarici ölkələrdən asılılığını aradan qaldırdı. Milli peyklərin informasiyaları 44 günlük Vətən müharibəsində qələbədə özünəməxsus rol oynadı.

Millət qarşısında dayanan başlıca məqsədə çatmaqdan ötrü Prezident İlham Əliyev "yumşaq güc"dən məharətlə istifadə etdi. Qədim və zəngin Azərbaycan mədəniyyətinə yeni nəfəs verən dövlət başçısı maddi və qeyri-maddi irsi qayğı ilə qorudu, bəzi nümunələr UNESCO-nun irs siyahısına daxil edildi. Prezident İlham Əliyev millətinin dünya mədəniyyəti yaradan olduğunu bir daha sübut edərək ona böyük imkanlar açdı. Bu illər Azərbaycanın mədəni irsinin etibarlı qorunması və mədəniyyətinin tərəqqisi illəri olmaqla başlıca məqsədə çatmağa xidmət etdi.

Azərbaycanın xəritədə axtarılmasına son qoyan Prezident İlham Əliyev milli hədəfi gerçəkləşdirməyi yaxınlaşdırdı. Məlum olduğu kimi, Ümummilli Lider Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı çıxış edərkən bir çox halda xəritə qarşısında dayanaraq Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş ərazilərini çubuqla göstərib həqiqətləri diqqətə çatdırardı.

Milli hədəf naminə istifadə edilən "yumşaq güc" vasitələrindən biri "Avroviziya" mahnı yarışmasının tarixində Bakıda ən mükəmməl şəkildə təşkil edilməsi, maddi-mənəvi mədəniyyətimizin təbliğ edilməsi oldu.

Azərbaycanın I Avropa Oyunlarına və IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etməsi hər bir azərbaycanlı üçün qürurverici ilk olmaqla yanaşı, millət qarşısında dayanan başlıca məqsədə çatmaqda vasitə idi.

Prezident İlham Əliyevin sərəncamı ilə Bakıda minillik dövlətçilik tarixinin eksponatlarının toplandığı Dövlət Bayraq Muzeyi yaradılması vətəndaşlarda dövlət, vətən və bayraq sevgisini artırmaqla başlıca hədəf yolunda mühüm rol oynadı.

Azərbaycan dünyəvi dövlət olsa da, din dövlətdən ayrı olsa da, Prezident İlham Əliyev millətin dini-mənəvi dəyərlərinə, adət-ənənələrinə qayğı göstərməklə, dini ibadət yerlərini bərpa etməklə, yeni məscidlər tikdirməklə mənəvi birliyin qorunmasında və başlıca hədəfə çatmasında müstəsna tarixi rol oynadı. Din və dövlətin fəaliyyətlərini bir-birinə qarışdırmadan aralarındakı qızıl ortanı müəyyənləşdirib hər ikisini inkişaf etdirmək Prezident İlham Əliyevin böyük uğurlarından olmaqla başlıca məqsədə çatmağa yönəldi.

Prezident İlham Əliyev multikulturalizmi dövlət siyasətinə çevirərək dünyaya bir örnək verdi. Göstərdi ki, tək bayraq, tək vətən, tək dövlətdə tək millət olaraq bərabər yaşayan müxtəlif etnik qrupların, dini konfessiyaların mövcudluğu Azərbaycanın zənginliyidir.

Vatikanda, Parisdə və digər yerlərdə kilsələri, muzeyləri Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun təmir etməsi başlıca məqsədə çatmağa xidmət etdi. Bununla Ermənistanın işğalçılıq siyasətinin xarakterini dəyişib ona dini mahiyyət vermək, xristian və islam dinləri arasında münaqişə kimi təqdim etmək cəhdlərinin qarşısı alındı, uydurma erməni təbliğatına ağır zərbə vuruldu.





Məlumdur ki, hər bir millətin və dövlətin inkişafının, uğurlarının başlıca şərtlərindən biri milli birlikdir. Prezident İlham Əliyev birləşdirici güc və milli birlik rəmzidir. Keçmiş prezidentlər haqqında qanunun qəbul olunması ilə Azərbaycan cəmiyyətində yeni siyasi mədəniyyət bərqərar edildi.

Bütün bu və digər tədbirlərin nəticəsində Naxçıvandan Ağstafaya, Qusardan Astaraya qədər bütün yaşayış məntəqələrindən gənclər Prezident İlham Əliyevin çağırışı ilə qürur mənbəyi olan Azərbaycan bayrağı altında tək yumruq kimi birləşərək işğalçı Ermənistana qarşı azadlıq, ədalətli müharibəyə qalxdı, savaşa toy-bayrama gedən kimi yola düşdü.

## Milli hədəfə nail olunması

Nəticədə millət hədəfinə çatdı. Bu qələbənin memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Prezident İlham Əliyev 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində qazanılan qələbə ilə Orta əsrlərin səlib yürüşlərindən başlayaraq bütün dövrlərdə müxtəlif formalarla davam edən siyasəti darmadağın edən, 1923-cü ildə Azərbaycanın altına basdırılmış bombanı zərərsizləşdirən, millətin qarşısında dayanan ən böyük problemi həll edən, təcavüzkar Ermənistanın, dünya erməniliyinin, onların havadarlarının yürütdükləri planları iflasa uğradan, məğlub edərək ayaqları altında əzən, uydurma "böyük Ermənistan" xəyallarını vurub dağıdan, əraziləri düşmən işğalından azad, süni surətdə yaradılmış Dağlıq Qarabağ problemini birdəfəlik həll edən, gələcək nəsillərə buraxmayan, millətin üstündəki ləkəni silən, çibanı kökündən kəsib atan, ikili standartlar siyasəti yürüdən dövlətlərə qalib gələn, şəhidlərin qanını yerdə qoymayan, Xocalı soyqırımı qurbanlarının və minlərlə günahsız insanın qisasını alan, 1991-ci ildən bəri ilk dəfə dövlət sərhədləri üzərində nəzarəti və ölkə ərazisində suverenliyi tam bərqərar edib xəyallarını gerçəkləşdirərək qarşısında yeni üfüqlər açan, dünyanın harasında yaşamasından asılı olmayaraq azərbaycanlılara başını dik tutaraq yaşamağın düsturunu verən ilk və yeganə dövlət rəhbəri, Azərbaycan tarixinin ən böyük Strateqi və Sərkərdəsidir.

Məlum olduğu kimi, nəinki keçmiş Dağlıq Qarabağdakı separatçı rejimin, həmçinin Ermənistanın özünün Azərbaycan ərazilərini işğal etmək gücündə iqtisadiyyatı, insan, maliyyə ehtiyatları, hərbi-sənaye kompleksi mövcud deyildi. Dövlətin qüdrəti məsələsində Azərbaycana heç yaxın da gələ bilmədiyindən Ermənistan Azərbaycan torpaqlarını xarici dövlətlərin köməyi ilə işğal etdiyindən, deməli, qazanılan qələbə həm də həmin dövlətlərin məğlub edilməsidir. Edilən təzyiqlər və təhdidlər də bununla bağlıdır.

Prezident İlham Əliyev Xankəndidə Dövlət bayrağını ucaltmış, hərbi parad keçirmiş, qaladığı Novruz tonqalında Ermənistanın "Miatsum" və "böyük Ermənistan" şüarını yandırıb külə döndərmiş, növbədənkənar prezident seçkilərində bu şəhərdə səs verərək qutuya atdığı səsvermə bülleteni ilə separatçılığın tabutuna son mismarı vurmuş ilk dövlət rəhbəridir.

Qazanılan qələbə təkcə Azərbaycanın deyildir. Prezident İlham Əliyev türk xalqları və dövlətlərinin başını uca edən, müstəqil dövlətləri olmayan türk xalqlarında özünə inam hissini artıran, yoluna işıq saçan liderdir.

Bu qələbə separatçılıqdan, terrordan əziyyət çəkən bütün ölkələrə, o cümlədən müsəlman ölkələrinə də təsir göstərdiyindən beynəlxalq əhəmiyyətlidir. Prezident İlham Əliyev dünyanın haqsızlıqdan əziyyət çəkən xalqları üçün Haqq və Ədalət rəmzidir.

## Millətin həyatına bayram günlərinin gətirilməsi

Prezident İlham Əliyev millətin həyatında qara günlərə son qoyaraq bayram günləri gətirən rəhbərdir. 1991-ci ildən başlayaraq Azərbaycanın şəhər və kəndlərinin təcavüzkar Ermənistan tərəfindən işğal edilməsi daim qara günlər kimi anılırdı. Qəhrəman şəhidlərin müqəddəs qanı və Azərbaycan Silahlı Qüvvələrinin fədakarlığı hesabına qazanılan qələbədən sonra Prezident İlham Əliyevin sərəncamları ilə 26 Avqust - Laçın Şəhəri Günü, 20 Sentyabr - Xankəndi, Xocalı, Xocavənd, Ağdərə şəhərləri günü, 4 Oktyabr - Cəbrayıl Şəhəri Günü, 17 Oktyabr - Füzuli Şəhəri Günü, 20 Oktyabr - Zəngilan Şəhəri Günü, 25 Oktyabr - Qubadlı Şəhəri Günü, 8 Noyabr - Şuşa Şəhəri Günü, 20 Noyabr - Ağdam Şəhəri Günü, 25 Noyabr - Kəlbəcər Şəhəri Günü kimi bayram edilir. Bunlar sadəcə şəhər günləri deyil, acı tarixi unutmadan qalib millətin özünə inamı və başını uca tutması günləri, məğrurluq hisslərinin nəsildən-nəslə ötürülməsidir.

## Gələcək Azərbaycan modeli

İşğaldan azad edilmiş ərazilərdə xarici yardımlar olmadan aparılan dirçəliş işləri, "ağıllı kənd"lərin, hava limanlarının tikintisi, məcburi köçkünlərin dədə-baba yurdlarına qayıtması Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətin maliyyə-iqtisadi qüdrətini və hər bir şeyin planlı şəkildə həyata keçirildiyini göstərir. Bu, gələcək Azərbaycanın quruculuğuna dair dövlət başçısının strateji baxışını əks etdirir.

Azərbaycan tarixinə bütöv halda, üzvi surətdə baxan Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə tarix və mədəniyyət abidələrinin, o cümlədən Ağdamda Qarabağ xanlarının iqamətgahını təmir etdirməklə millətə tarixinə sahib çıxmaq üçün mesaj verir, gələcək nəsillərə yol göstərir, məscidlərin inşa edilməsi ilə millətə dini-mənəvi dəyərlərə daha yaxın olmağı öyrədir.

İşğaldan azad edilmiş ərazilərə Azərbaycan elmi, təhsili və mədəniyyəti qayıdır. Xankəndidə Qarabağ Universitetinin fəaliyyətə başlaması tarixi əhəmiyyət daşıyır.

## Xarakter və iş üslubu

Milləti qalib edən nəhəng fəaliyyətə nəzər yetirərkən belə bir suala cavab vermək lazım gəlir: Bütün bunlara necə nail olunub?

Heç şübhəsiz, qazanılan zəfər Prezident İlham Əliyevin xarakterindəki əzmkarlığın, qətiyyətin, yenilməzliyin, inadkarlığın, dərin, geniş planetar təfəkkürün, yorulmaz, nəhəng fəaliyyətin, millətə arxalanmasının, ondan güc almasının, millətin dövlət başçısına inam və etimadının, mükəmməl dövlət idarəçiliyinin və yaradıcı iş üslubunun nəticəsidir. Prezident İlham Əliyev bütün fəaliyyətində heç bir vaxt zamanı gəlməmiş bir söz işlətmədi və vədlər vermədi, nəyi dedisə, onu da mükəmməl bir şəkildə yerinə yetirdi. Millət və dövlət sevgisi, millətin dövlət başçısına inamı başlıca hədəfə çatmaqda əsas amil oldu. Ölkə rəhbəri məmurlara qarşı nə qədər tələbkar və ciddidirsə, xalqa münasibətdə bir o qədər sadə və təvazökardır, əsl xalq adamıdır. Bu fəaliyyət göstərdi ki, o, milli-mənəvi köklərə dayanaraq Azərbaycanın müasir dünya ilə ayaqlaşması üçün ən səmərəli və faydalı tədbirləri xırdalığına qədər dəqiq planlaşdıran, həyata keçirən yenilikçi, mövqeyi aydın, konkret, açıq, siyasəti isə çevik olan dərin islahatçı dövlət xadimidir.

Prezident İlham Əliyev dünyada birləşdirici güc, səmərəli əməkdaşlıq rəmzidir. O, Azərbaycanı digər dövlətlər üçün qarşıdurmalar, intriqalar deyil, qarşılıqlı faydalı əməkdaşlıq meydanı edərək milli ideyanı gerçəkləşdirdi.

## Yola davam...

Ötən illərdə keçilən yolun siyasi-tarixi təcrübəsi göstərir ki, əsası 1993-cü ilin iyununda Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və 2003-cü il oktyabrın 15-dən etibarən Prezident İlham Əliyev tərəfindən yeni şəraitdə davam etdirilən, Azərbaycan millətinin və dövlətinin maraqlarına cavab verən davamlı, sabit inkişaf siyasətinin, yolun alternativi yoxdur. Ölkə və millət yumruqların toqquşması, əzələ mübarizəsi, xaos, anarxiya, sarsıntılar, inqilablar deyil, islahatlar, problemlərə dair fikirlərin mübadiləsi və təkamül yolu ilə inkişaf etməlidir.

2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərindən sonra Azərbaycan tarixində başlayan yeni dövr İlham Əliyev üçün millət və dövlət yolunda şərəfli tarixi missiyanın davam etdirilməsi, millət üçün isə rifah, rahat, təhlükəsiz şəraitdə yaşamaq, davamlı, sabit inkişaf, yeni hədəflərə çatmaqda imkanlar deməkdir.

Yol düzgün seçiləndə və təməli möhkəm olanda millət və dövlət də ağır sınaqlardan, təlatümlərdən uğurla çıxır. Keçilən yol milli dövlət maraqlarına xidmət etdiyi, milli ideyanı gerçəkləşdirdiyi və yeni milli hədəflərə çatmağa imkan verdiyi üçün bundan sonra da davam etdirilməlidir.

Dədə-babalarımız gedilən yola Haqq Yolu deyib and içiblər. Bu yol da millətin başını uca edən Haqq və Ədalət Yoludur.

Yolumuz heç vaxt Haqq və Ədalətdən ayrı düşməsin...

**Musa QASIMLI,**
***Milli Məclis Sədrinin müavini***



# MÖHTƏŞƏM 21 İL
2003 2024

# İnam, ümid, nəticə



**15 oktyabr 2003-cü il Azərbaycan xalqının tarixində yeni bir mərhələnin başlanğıcı - cənab İlham Əliyevin prezident seçildiyi gündür. Cənab İlham Əliyevin prezident seçildiyi ilk gündən ölkədə yeni bir ab-hava hiss olundu. Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursuna sonsuz sədaqətini ifadə edən, hər bir vətəndaşın prezidenti olacağına əminlik yaradan və bunu əməli fəaliyyəti ilə sübut edən ölkə rəhbəri illərin sınağından məharətlə çıxdı.**

Çox mühüm dövlət proqramlarına, layihələrə, beynəlxalq əhəmiyyətli müqavilələrə imza atmaqla, dünya ölkələri ilə əlaqələri möhkəmləndirməklə, saflaşdırmaqla, vətəndaşların həyatına, məişətinə, mədəniyyətinə yeni məna verməklə, tariximizə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə hörmət və ehtiram bəsləməklə Azərbaycanı xoşbəxt günlərə qovuşdurdu. Xalqımızı, ordumuzu birləşdirərək düşmən üzərində tarixi qələbəni təmin etdi, erməni separatçılarının ayaqlarını Qarabağ torpaqlarından kəsdi.

Bu 21 ilin hər saatı, hər ayı və ili mənalıdır. Həm ağrı-acılı, həm də sevinclidir. Cənab İlham Əliyev bu illər ərzində tək faşist Ermənistanla mübarizə aparmayıb, onun havadarları olan böyük dövlətlərlə ABŞ, Fransa, Avropa İttifaqı, AŞPA kimi sözü ilə əməli bir olmayan beynəlxalq təşkilatlarla, ikiüzlü siyasətçilərlə döyüşüb. Onlara qalib gəlmək üçün yollar arayıb, planlar cızıb, xalqı ilə məsləhətləşib, ordusuna, gücünə arxalanıb. Ulu Öndərimiz Heydər Əliyevin "Ağıl olan yerdə zora ehtiyac yoxdur" kəlamını örnək tutan Prezidentimiz ilk növbədə ağlının, zəkasının, düşüncəsinin gücünə pənah gətirib, reallıqları düzgün qiymətləndirib, böyük rəhbərimizin - atasının siyasi dəst-xətini uğurla davam etdirib.

Cənab İlham Əliyevin fəaliyyətinin bütün dövrlərində ölkədə ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin təmin olunmasına böyük önəm verməsi təsadüfi deyildi. Sabitlik, həmrəylik, bərabərlik, təəssübkeşlik olmayan yerdə demokratiyadan, insan haqlarından, inkişafdan danışmaq, insanların rəğbətini, etimadını qazanmaq mümkün deyildir qənaətində olan Prezidentimiz öz qənaətini əməli işdə doğrultduğu üçün bugünkü möhtəşəm uğurlara imza ata bildi.

Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür və dünya ölkələrində baş verən ciddi qarşıdurmalar, müharibələr, gərginliklər zəminində bu, müsbət bir nümunədir. Cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz".

Sabitliyin bərqərar edilməsi iqtisadi inkişafda, ictimai-mədəni həyatımızda, beynəlxalq münasibətlərdə parlaq faydalarını göstərir, ölkə vətəndaşlarını bir məqsəd uğrunda mübarizəyə səfərbər edir. Yaradılan ictimai-siyasi sabitlik, iqtisadi inkişaf ölkədə bir çox əsaslı məsələnin həll edilməsinə, problemlərin aradan qaldırılmasına imkan yaradıb. Bu gün Azərbaycan dünyanın iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələrindən biridir.

İlham Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 318,9 milyard ABŞ dollarını ötüb keçib, xarici ticarət dövriyyəsi 5,2 milyard ABŞ dollarından 51,2 milyard dollara yüksəlib, qeyri-neft-qaz sektorunda ÜDM 5,0 milyard ABŞ dollarından 45,7 milyard dollara çatıb. Dövlət büdcəsinin gəlirləri 1,2 milyard manatdan 36 milyard 611 milyon manata qədər yüksəlib. Valyuta ehtiyatlarımız 1,6 milyard ABŞ dolları olduğu halda indi 68,5 milyard ABŞ dolları miqdarındadır. Nəqliyyat sektoru 4,1 dəfə, elektrik enerjisinin istehsalı 38,2 faiz, ixracı 3,5 dəfə artıb. 80-ə yaxın elektrik stansiyası istismara verilib.

Kənd təsərrüfatı sektoru 2,2 dəfə inkişaf edib, bu sahəyə investisiya qoyuluşu 11 dəfə artıb. Aqrar sahə üzrə dövlət dəstəyi, o cümlədən maliyyələşmə mexanizmi təkmilləşdirilib, müasir tələblərə uyğun olaraq aqrar sığorta sistemi yaradılıb. İdarəetmə sistemi formalaşdırılıb, elektron kənd təsərrüfatı informasiya sistemi tətbiq olunub, geniş əhali məlumat bazası yaradılıb. Kənd təsərrüfatı məhsulları ixracının həcmi 10 dəfədən çox artıb. Cənab İlham Əliyevin 21 illik prezidentliyi dövründə ölkənin nəinki iqtisadiyyatında, kənd təsərrüfatında, neft-qaz sektorunda, nəqliyyatda, eləcə də sosial sahələrdə ciddi dönüş yaradılıb, vətəndaşların rifah halı qat-qat yaxşılaşıb. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının, mühüm sosial layihələrin həyata keçirilməsi rayon və kəndlərimizin mədəni, iqtisadi görkəmini əsaslı dərəcədə dəyişdirib, insanların həyatına yeni məna verib. Bu illər ərzində 4000-ə yaxın məktəb, 700-dən çox səhiyyə obyekti tikilib təmir edilərək istifadəyə verilib. Təhsilə, səhiyyəyə ayrılan xərclər on dəfədən çox artırılıb. 21 min kvadrat kilometrdən artıq asfalt yollar salınıb, yüzlərlə körpülər tikilib. Son 21 ildə sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox, minimum əməkhaqqı 39 dəfəyə yaxın, orta əməkhaqları 12 dəfə, pensiyalar 14 dəfə artıb. 2018-ci ildən sonra dörd sosial islahatlar paketi həyata keçirilib ki, bu paketlərin məbləği 7 milyard manatdır və o, dörd milyon insanı əhatə edir.

Şəhid ailələrinə və müharibə ilə əlaqəli əlilliyi olan şəxslərə 13 mindən çox mənzil, 7600-dən çox avtomobil verilib. Bu nümunələrin sayını xeyli artırmaq olar. Ölkə rəhbərinin tapşırığı və təşkilatçılığı ilə həyata keçirilən layihələr, proqramlar hesabagəlməzdir və onların hamısını bir məqalədə cəmləşdirmək mümkün deyil. Çünki cənab Prezident 2003-2024-cü illərdə regionlara ümumilikdə 600-dən çox səfər edib, 2550-dən çox tədbir keçirib. Bu tədbirlərin çoxu işğaldan azad olunmuş ərazilərdə baş tutub. Bu, təbiidir, çünki cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində son illər işğaldan azad olunmuş ərazilərdə misli görünməmiş tikinti, bərpa, təmir və quruculuq işləri həyata keçirilir. Dövlət başçısı hər ay bir neçə dəfə respublikanın bölgələrinə səfərlər edir, təməlqoyma, açılış tədbirlərində iştirak edir, işlərin gedişi ilə tanış olur və dəyərli tapşırıqlarını verir. Füzuliyə, Şuşaya, Laçına, Zəngilana, Cəbrayıla, Xocalıya əhalinin köçürülməsi, Qarabağda və Şərqi Zəngəzurda yeni məktəblərin, xəstəxanaların, ictimai, fərdi binaların ucaldılması, müasir yolların çəkilməsi, körpülərin salınması, beynəlxalq hava limanlarının istifadəyə verilməsi, yeni iş yerlərinin açılması, infrastruktur layihələrinin həyata keçirilməsi regionun parlaq gələcəyindən xəbər verir. Ərazidə 45 tunelin, 450 körpünün inşası nəzərdə tutulur, üç il ərzində 270 meqavat gücündə su-elektrik stansiyaları istifadəyə verilib. 3 min kilometr avtomobil yolu inşa edilib. Səkkiz mindən çox keçmiş məcburi köçkün artıq Qarabağa və Şərqi Zəngəzura qayıdıb.

Azərbaycan Prezidenti yeddinci çağırış Milli Məclisin ilk iclasındakı çıxı-



şında bildirdi ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası təbii olaraq bizim hər birimizin önəmli vəzifəsidir... Müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib.

Cənab İlham Əliyev Azərbaycanı tanıtmaq, şöhrətləndirmək üçün bütün siyasi gedişlərə əl atır və istəklərini reallığa çevirə bilir. Azərbaycan artıq beynəlxalq səviyyədə öz sözünü deməyi bacaran və yeri bilinən bir respublikadır. 19 ölkə ilə strateji tərəfdaşlıq, 3 ölkə ilə müstəqillik sazişi imzalayan, 119 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatına sədrlik edən, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (indi TDT) yaradılmasının təşəbbüskarı olan, BMT sistemində ən böyük tədbirin BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP-29) 2024-cü ildə və Dünya Urban Forumunun 2026-cı ildə Bakıda keçirilməsinə zəmanət alan Azərbaycanın nüfuzu daha da yüksəlir. Mərkəzi Asiya ölkələri ilə yeni müstəvidə əlaqələr quran, islam həmrəyliyinə böyük önəm verən, mədəniyyətlərarası və dinlərarası dialoqu ildən-ilə genişləndirən, bir çox zirvə görüşünə, beynəlxalq idman, musiqi tədbirlərinə evsahibliyi edən dövlətimizin dünya xalqlarına, bəşəriyyətə verdiyi töhfələr beynəlxalq miqyasda yüksək qiymətləndirilir və bu, hər birimizi qürurlandırır.

Cənab İlham Əliyev ən mötəbər beynəlxalq tribunalardan Azərbaycanın haqq-ədalət səsini ucaltmaqla, xalqının fikir və istəklərini bəyan etməklə, reallıqları, problemləri, özünün sülh, demokratiya, azadlıq amallarını bəyan etməklə, bəşəriyyətin xoşbəxt gələcəyi, insanların firavanlığı üçün düşünən uzaqgörən, qətiyyətli, prinsipial, xalqının milli maraqlarını daim üstün tutan bir Prezident olduğunu sübut edib.

Uzun illər Ermənistanın işğalı altında olan, talanan, viran edilən şəhər və kəndlərimizin, torpaqlarımızın əsarətdən qurtarılması, 44 günlük müharibə və 23 saatlıq antiterror tədbirləri nəticəsində düşmən ordusunun darmadağın edilməsi və erməni faşistlərinin ayaqlarının Qarabağdan kəsilməsi Ali Baş Komandan İlham Əliyevin ölkəyə rəhbərlik dövrünün heç vaxt unudulmayacaq, daim xatırlanacaq qızıl səhifəsidir. Tək bir ölkəyə - Ermənistana qarşı yox, təcavüzkar ölkənin çoxsaylı havadarlarına, qətiyyətsiz və ikiüzlü beynəlxalq təşkilatlara, məkrli rəhbərlərə, rüşvətxor siyasətçilərə qarşı aparılan mübarizəni İlham Əliyev qələbə ilə başa çatdırdı. Ordusunun, xalqının əzmkarlığını, qəhrəmanlığını dünyaya göstərdi və sübut etdi ki, haqq-ədalət qalibdir, Azərbaycan düşmənindən qisas almağı, torpaqlarını xilas etməyi bacarır. Azərbaycan bu müharibədə həm də bəşəri amallarını ortaya qoydu. Ermənistanı sülhə, danışıqlara, qan tökülməməsinə dəvət etdi, beynəlxalq təşkilatların qətnamələrini, qərarlarını, beynəlxalq hüquq normalarını xatırlatdı.

Prezidentimiz həmişə olduğu kimi, bu gün də sülh yolundadır. Güclü orduya, iqtisadi inkişafa, birliyə, səfərbərliyə malik olmağımıza baxmayaraq, sülh danışıqları, əməkdaşlıq, sağlam qonşuluq münasibətləri önəmli hesab edilir və bu yolda lazımi addımlar atılmaqdadır. Ancaq nədənsə Ermənistan və havadarları bu çağırışlara ciddi əhəmiyyət vermir, təcavüzkar ölkə silahlanmağa, revanş götürməyə cəhdlər göstərir, xarici ölkələrdən silah alır, hərbi təlimlər keçirir, atəşkəsi pozmaqda, təxribatlar törətməkdə davam edir. Belə olan halda Azərbaycan Prezidenti arxayınlaşmağa əsas görmür, ordunu gücləndirməyi, hərbi müdafiə sənayemizi inkişaf etdirməyi, sərhədlərimizi möhkəmləndirməyi, təhlükəsizliyimizi təmin etmək üçün vacib olan tədbirlər görməyi əsas vəzifə kimi qarşıya qoyur.

İkinci Qarabağ müharibəsində məhz Azərbaycan tərəfindən sülh danışıqlarına təşəbbüs göstərilməsi, ancaq bunun cavabsız qalması və Ermənistanın havadarlarının təkidi ilə danışıqlardan yayınması, sülhə gəlməməsi dövlət rəhbərini düşündürsə də, səylərin, ölkəmizə qarşı yönəldilmiş məkrli məqsədlərin əhəmiyyətsiz olduğu bildirilir və tərəflərə qəti cavablar ünvanlanır. Azərbaycan Prezidentinin və xalqının tutduğu yol haqq, ədalət, həqiqət, inkişaf yoludur. Biz gücümüzə arxalanmalı, potensialımıza güvənməli, milli-mənəvi dəyərlərimizi qoruyub yaşatmalı, vətənpərvər vətəndaşlar tərbiyə etməli, insanlığa, bəşəri amallara önəm verməli, qüvvələrimizi bir məqsəd - dövlətimizin və xalqımızın inkişafı, firavanlığı uğrunda birləşdirməli, dost ölkələrlə əməkdaşlığı möhkəmləndirməli, yeni dövrün tələblərinə, reallıqlara uyğunlaşmalı və işləməliyik. Bu yolda ölkə rəhbərinin yolu açıqdır, uğurludur. Son 21 ildə bu yol dövlətimizi inkişaf etdirir, şöhrətləndirir və xoşbəxt gələcəyə aparır. Bu yolun gələcək uğurlarına hər bir Azərbaycan vətəndaşı inanır və qürur duyur.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# 21 illik fəaliyyətin zirvəsi

**Hazırda Azərbaycan dünyanın nüfuzlu, Cənubi Qafqaz regionunun isə lider dövlətidir. Ötən dövr ərzində ölkəmiz böyük inkişaf yolu keçərək tarixi nailiyyətlər qazanıb. Bu nailiyyətlərin qazanılmasında lider amili başlıca rol oynayır. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan cənab İlham Əliyev də məhz dövlətə və xalqa zəfərlər qazandıran liderdir.**

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz davamlı olaraq inkişaf edib, güclənib, regionda güc mərkəzinə çevrilib. 21 il öncə - 15 oktyabr 2003-cü ildə keçirilən prezident seçkilərində xalqımızın düzgün seçim edərək, Ulu Öndər Heydər Əliyevin müraciətini dəyərləndirərək cənab İlham Əliyevə səs verməsi möhtəşəm nailiyyətlərimizin əsasını təşkil etdi. 2003-cü ilin oktyabrından bu günə qədər keçilən yol inkişaf və tərəqqi baxımından çox zəngindir. Bu uğura nail olunmasında Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət də müstəsna əhəmiyyət kəsb edir. Belə ki, Cənubi Qafqaz regionunda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Bu o deməkdir ki, çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil siyasət həyata keçirən milli dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb. Regional təşəbbüslər hər zaman Azərbaycanın möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edib. Bu prosesdə ölkəmizə qarşı çıxan, onu zəiflətməyə çalışan qüvvələr olsa da, dövlətimizin başçısının qətiyyətli siyasəti ilə bütün belə planlar dəf olundu. Əksinə, Azərbaycan Prezidentinin uzaqgörən siyasəti nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir.

Bu dövrdə uğurlu enerji siyasəti də Azərbaycana iqtisadi və siyasi dividend qazandırıb. Belə ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin istismara verilməsi ilə yanaşı, Avropanın Azərbaycanın təbii qazına da ciddi ehtiyacı duyuldu. Artıq Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri layihələri reallığa çevrilib. Bununla da, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başlayıb. Eləcə də Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi çox böyük tarixi hadisə oldu. Bütün bunlar gələcəkdə Orta dəhlizin ölkəmiz üçün siyasi önəmini də əhəmiyyətli dərəcədə artırdı.

Prezident İlham Əliyevin 21 illik fəaliyyətinin zirvəsini Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması təşkil edir. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər isə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyinin təntənəsidir. Bu möhtəşəm Zəfər nəticəsində torpaqlarımız Ermənistanın işğalından azad olundu və 30 ilə yaxın davam edən Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan uzun illər bu münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün səylər göstərsə də, Ermənistanın ötən müddət ərzində işğalçılıq siyasətindən əl çəkməməsi, son illərdə isə bu ölkənin rəsmilərinin yeni ərazilər tutmaq iddialarını açıq şəkildə dilə gətirmələri, tez-tez təhrikedici açıqlamalar vermələri, 2019-cu ildə baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi kimi təxribat xarakterli bəyanatları və addımları danışıqlar prosesinə ciddi zərbə vurdu. Nəticə isə göz qabağında oldu. Ermənistanın qeyri-konstruktiv, təxribatçı mövqeyi onun kapitulyasiyası ilə nəticələndi.

Bütövlükdə, 44 günlük Vətən müharibəsi Azərbaycanın siyasi, iqtisadi, diplomatik və hərbi qüdrətini, həmçinin xalqımızın milli birliyini və sarsılmaz iradəsini dünyaya nümayiş etdirdi. Təbii ki, bu tarixi Zəfərin əsas qəhrəmanı Prezident İlham Əliyevdir. Dövlət başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Ötən ilin sentyabrında isə qəhrəman ordumuzun 23 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağda qondarma rejim özünü buraxdığını elan etdi və bununla da dövlətimiz öz suverenliyini tam təmin etdi.



Beləliklə, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli dövrünü yaşayır. Bundan sonrakı mərhələlərdə Azərbaycan daha da qüdrətlənəcək, dünyada nüfuzunu daha da artıracaq. Bu ilin noyabrında COP29 kimi dünyanın ən mötəbər tədbirinin Bakıda keçirilməsi də dövlətimizin gücünü, şəxsən Prezidentimizin beynəlxalq müstəvidə nüfuzlu və qətiyyətli lider olduğunu təsdiqləyir. Dünya ölkələrinin liderləri, on minlərlə əcnəbi qonaq ölkəmizə səfər edərək güclü və qüdrətli Azərbaycanın inamlı inkişafının şahidi olacaq. Azərbaycan xalqı bu tarixi nailiyyətlərin və zəfərlərin müəllifi olan cənab İlham Əliyev kimi lideri ilə hər zaman qürur duyur.

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin deputatı***



# MÖHTƏŞƏM 21 İL 2003 2024



# Azərbaycanın yüksəliş salnaməsini yaradan Lider

**Bu gün cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsindən 21 il ötür. Böyük məmnunluqla qeyd etmək istərdim ki, geridə qoyduğumuz 21 il Azərbaycanın inkişafı və dövlətimizin qarşısında dayanan taleyüklü problemlərin həlli baxımından mühüm uğurlar və tarixi hadisələrlə zəngin olduğundan cənab İlham Əliyevin həm Prezident kimi fəaliyyətinin, həm də yüksək siyasi keyfiyyətlərinin qiymətləndirilməsi baxımından geniş imkanlar yaradır.**

**Hələ 2003-cü il avqustun 4-də Prezident Heydər Əliyevin fərmanı ilə İlham Əliyevin respublikamızın Baş naziri təyin edilməsi respublika ictimaiyyəti tərəfindən böyük rəğbət və razılıqla qarşılanmışdı. Çünki İlham Əliyev bu təyinata qədər çalışdığı bütün vəzifələrdə mükəmməl fəaliyyət nümunəsi ortaya qoymuş, məsul olduğu sahələrin hər birində mühüm uğurlara imza atmışdı.**



Belə ki, cənab İlham Əliyev Baş nazir təyin edilənə qədər həm Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, həm Milli Məclisin deputatı, həm Milli Olimpiya Komitəsinin prezidenti, həm də Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi respublikamızda gedən siyasi-icitmai və iqtisadi proseslərdə yaxından iştirak etmiş, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi ümummilli vəzifələrin icra olunmasına, həyata vəsiqə almasına böyük töhfələr vermişdi.

2003-cü ilin prezident seçkilərində də respublikamızda ictimai-siyasi ovqat məhz Heydər Əliyev siyasi kursunun davam etdirilməsi və bu müstəvidə cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi kimi ümumxalq arzusunun üzərində köklənmişdi. Bu baxımdan 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkiləri ictimaiyyətə bəlli olan gerçəkliklərə yeni işıq saldı. Seçkilər Azərbaycan cəmiyyətinin Heydər Əliyev siyasi kursuna heç bir alternativi qəbul etmədiyini və öz gələcəyini Ulu Öndərin siyasi yolunun davamında gördüyünü nümayiş etdirdi. Eyni zamanda 2003-cü il seçkiləri Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı kimi cənab İlham Əliyevə olan dərin etimad və inamın ilk ümumxalq təcəssümü oldu.

2003-cü il seçkilərindən sonra keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev demişdi: "Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm". Ötən 21 illik zamanın hər bir ili, hər bir prezidentlik dövrü təsdiq edir ki, Prezident İlham Əliyev xalqa verdiyi vədləri layiqincə yerinə yetirib. Geridə qoyduğumuz hər bir il Prezident İlham Əliyevin Azərbaycan xalqına verdiyi uğur hesabatı kimi tarixə həkk olunub, Heydər Əliyev ideyalarının təntənəsinə çevrilib.

Ondan başlayaq ki, 2003-cü ildən sonrakı dövrdə Azərbaycan tarixində buna qədər görünməmiş makroiqtisadi göstəricilər əldə olunub. Sadəcə büdcə göstəricilərinə nəzər salanda haradan haraya gəlib çıxdığımızı görə bilərik. 21 il əvvəl Azərbaycanda dövlət büdcəsinin gəlirləri cəmi 1 milyard 220,9 milyon manat idi. Bu gün isə dövlət büdcəmizin gəlirləri 40 milyard manata yaxınlaşıb. Respublikamızda müdafiə xərcləri 2003-cü ildə cəmi 255 milyon manat idi. Bu gün isə büdcəmizin hərbi xərcləri 6 milyard manatı ötüb. 21 il əvvəl respublikamızın cəmi 1,8 milyard dollar valyuta ehtiyatları var idi. Son məlumatlara əsasən, ölkəmizin strateji valyuta ehtiyatları 73 milyard dolları ötmüşdür və bu, 2003-cü illə müqayisədə 40,5 dəfə artım deməkdir.

Bütün bunların təməlində Prezident İlham Əliyevin düşünülmüş və zamanın nəbzini tutan iqtisadi siyasəti və islahatlar kursu, Heydər Əliyevin müəllifi olduğu enerji strategiyasını layiqincə davam etdirməsi dayanır. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu enerji siyasətini nəinki uğurla davam etdirdi, həm də onu yeni keyfiyyət mərhələsinə yüksəltməklə, "Cənub qaz dəhlizi" kimi layihəni reallaşdırmaqla Azərbaycanı qlobal enerji təhlükəsizliyi müzakirələrində söz sahibi olan dövlətə çevirdi.

Lakin Azərbaycanı ötən 21 ildə dünyaya tanıdan yalnız qlobal enerji bazarının fəal aktoru olması deyil. Azərbaycan beynəlxalq səviyyədə həm də kosmik kluba daxil olan, şərqdən qərbə, şimaldan cənuba ən səmərəli nəqliyyat marşrutlarının keçdiyi və kəsişdiyi strateji coğrafiya olaraq tanınır. Bəli, cənab İlham Əliyevin düşünülmüş siyasəti Azərbaycanı nəqliyyat qovşağına çevirib. Respublikamızın təşəbbüsləri ilə inkişaf etdirilən Orta dəhlizin səmərəliliyi qlobal səviyyədə yüksək qiymətləndirilir.

21 ilin ən mühüm göstəriciləri kimi regionların inkişaf yoluna çıxarılmasını, qeyri-neft sektorunun hərəkətə gətirilməsini, neft kapitalının "insan kapitalı"na çevrilməsi təşəbbüslərinin uğurla reallaşmasını qeyd edə bilərik. Bütün bunlar göstərir ki, Azərbaycanın inkişafı ilə bağlı dövlət siyasəti məhdud sfera ilə kifayətlənməyərək, kompleks xarakter daşıyıb.

Hələ 2003-cü ildə andiçmə zamanı çıxışında Prezident İlham Əliyev nəyin bahasına olursa-olsun, torpaqlarımızın işğaldan azad ediləcəyini bəyan etmişdi. 2020-ci ilin Vətən müharibəsində cənab Prezident bu vədini də yerinə yetirməklə dövlətimizin və xalqımızın yeganə ağrılı probleminə son qoydu. Lakin bu gün torpaqlarımızın azadlığına gedən yola nəzər salanda görürük ki, cənab İlham Əliyev necə ağır və çətin bir missiyanı yerinə yetirib. Çünki biz yalnız Ermənistan deyil, dünya erməniliyi ilə üz-üzə idik. Prezident İlham Əliyev bu tarixi vəzifənin yerinə yetirilməsi üçün bütün imkanlardan səmərəli istifadə edib. Xüsusən inkişaf siyasətinin, qazanılan hər bir nailiyyətin mərkəzində həm də torpaqlarımızın işğaldan azad edilməsi məqsədi dayanıb. Dövlət başçısı ilbəil respublikamızın yüksəlişini təmin etməklə, həm də torpaqlarımızın işğaldan azad ediləcəyi tarixi yaxınlaşdırıb və reallaşmasını qətiyyətlə təmin edib. Bu baxımdan torpaqlarımızın azadlığı, Qarabağda erməni separatizminə son qoyulması, bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpa olunması cənab İlham Əliyevin prezidentlik fəaliyyəti boyu xalqımıza bəxş etdiyi uğurların zirvəsində dayanan tarixi hadisələr və Azərbaycanın yüksəlişinin məntiqi nəticəsidir. Bu hadisələr yalnız müstəqillik deyil, son bir neçə əsrlik tariximizi şərəfləndirən hadisələrdir.

Ümumiyyətlə, Azərbaycanın ötən 21 illik tarixi Heydər Əliyev yolunun, İlham Əliyev siyasi kursunun alternativsizliyini göstərir. Olduqca qürurvericidir ki, cənab İlham Əliyevin ilk dəfə Prezident seçilməsinin 21-ci ildönümünü hətta 2023-cü ildən də tamamilə fərqli tarixi gerçəkliklər fonunda qarşılayırıq. Bəli, torpaqlarımız azaddır, Qarabağda erməni separatizminə son qoyulub, ərazi bütövlüyümüz tam təmin edilib. Bu ilin yazından isə Azərbaycan ərazilərində heç bir xarici dövlətin silahlı qüvvəsi yoxdur, o cümlədən Qazaxın 4 kəndi də işğaldan azad edilib. Bu ildən Şuşada, Cəbrayılda da yaşayış var və ilin sonuna kimi Qarabağ və Şərqi Zəngəzura qayıdacaq vətəndaşlarımızın sayı artacaq.

Bütün bunlar Azərbaycanın yüksəliş salnaməsinin nümunələridir. Bu salnaməni yaradan isə cənab Prezident İlham Əliyevdir.

***Nəsib MƏHƏMMƏLİYEV,***
***Milli Məclisin deputatı***

# Tarixìmizin ən önəmli və dəyərli dövrü

**İlham Əliyevin prezident seçilməsinin 21 illiyi, əslində, bütöv bir tarixi əhatə edir və bu, Azərbaycan qarşısında çox mürəkkəb problemlərin həll olunduğu bir tarixdir. Azərbaycan heç vaxt bugünkü qədər özünə aid olan ən həyati məsələləri həll etmiş durumda olmayıb. Müstəqillik qazanılıb, Cümhuriyyət qurulub, müstəqilliyin qorunması üçün addımlar atılıb, amma ərazi bütövlüyümüz bugünkü kimi bərpa olunmayıb. Bunun da əsas müəllifi Ali Baş Komandan, Prezident İlham Əliyevdir. İlham Əliyev birincisi, 21 ildə Azərbaycan iqtisadiyyatını gücləndirdi, enerji resurslarımızın dünyaya daşınmasını təmin etdi. Bundan əldə olunan gəlirlərlə ölkənin bütün sahələrində infrastruktur quruldu.**



İkincisi isə, ordu quruculuğunu yüksək səviyyədə həyata keçirdi. Qardaş Türkiyənin də köməyi ilə hərbi kadr hazırlığı təmin olundu. Bu da sonrakı dövrdə müharibədə əldə etdiyimiz uğurların əsas səbəbi oldu.

Üçüncüsü, ölkənin təhlükəsizliyi ilə bağlı çox ciddi diplomatik və siyasi manevrlər etməyi bacardı. Bu, birinci növbədə qonşu ölkələrlə, xüsusilə imperiya xəyalları olan, müəyyən dərəcədə başqa ölkələrin müstəqilliyinə hələ də şübhə ilə yanaşan, onlara kiçik dövlətlər kimi baxan böyük güclərlə düzgün münasibət sistemi qura və onlardan gələn təhdidlərin qarşısını ala bildi. Bu çox vacib idi. Ölkə içində ən başlıca olaraq siyasi cəhətdən elə addımlar atıldı ki, hansısa çaxnaşma, qarşıdurma elementləri, demək olar ki, xaricdən idarə olunan həddən çıxarıldı. Ölkədə daxili sabitlik ən əsas amilə çevrildi. Bunlar hamısı 21 il ərzində atılan addımlardır.

Digər tərəfdən bu illər ərzində həm də Azərbaycan beynəlxalq siyasətin əsas oyunçularından birinə çevrildi. Qoşulmama Hərəkatına sədrlikdən tutmuş Avropa Oyunları, "Avroviziya", müxtəlif beynəlxalq tədbirlər, sonuncu COP29-un ölkəmizdə keçirilməsi - bütün bunlar ölkənin imicinin nə qədər artdığını, siyasi çəkisinin necə yüksəldiyini göstərir. Bunların hamısı İlham Əliyevin strateji baxışlarından doğan nəticələrdir. Çünki strateji baxışı, vizyonu olmayan bir lider bu istiqamətləri gündəlik problemlərin içində görə bilməzdi. Bunu gördüyünə görə də atılan hər bir addım gələcək binanın təməlini qoydu.

21 il Azərbaycan tarixinin ən önəmli və ən dəyərli dövrü kimi qalacaq. Bu illər ərzində ölkənin elə bir sahədə hansısa şəkildə fürsəti qaçırmasının şahidi olmadıq. Tarix fürsətlərdən ibarətdir. Hansı ölkələr, liderlər imkanları qaçırırsa, sonra onu bərpa etmək mümkün olmur. Ya bir dövlət parçalanır, ya sıradan çıxır, ya da uğurlu nəticələr əldə etmək olmur. Məhz bu strateji baxış bucağından məsələləri təhlil etdiyinə, ölkədə milli, dini, sosial zəmində hər hansı qarşıdurmalar, inqilablar baş vermədiyinə görə, müxtəlif məxməri inqilablar dövrünü yaşamış ölkələrdən fərqli olaraq, Azərbaycan bu təlatümləri məhz İlham Əliyevin prosesləri doğru idarəetməsi nəticəsində keçmədi. Ölkə xüsusi təlatüm yaşamadı. Bu ağrılı-acılı prosesləri daha sağlam addımlarla keçə bildi. Ümid edirəm ki, Azərbaycan bundan sonra da İlham Əliyevin rəhbərliyi ilə dünyada sayılan, seçilən dövlətlər sırasında öz yerini qoruyacaq.

**Fazil MUSTAFA,**
***Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin, Böyük Quruluş Partiyasının sədri***

# Vətən qarşısında müstəsna xidmət

**Bu gün cənab İlham Əliyevin prezidentliyinin 21-ci ili tamam olur. Bu günün reallıqlarından 21 il əvvələ baxanda ozamankı Azərbaycanla müqayisədə hansı ciddi uğurlara imza atılmasının fərqində olmamaq mümkün deyil. Ümumiyyətlə, 2003-cü ilin prezident seçkilərinin keçirildiyi dövrü bəzən 1993-cü ildə mövcud olmuş çox gərgin, ölkəmiz üçün taleyüklü zaman kəsiyi ilə müqayisə edirlər.**



Hesab edirəm ki, bu müqayisədə həqiqət payı kifayət qədər yüksəkdir. Belə ki, 2003-cü il seçkiləri ərəfəsində də 10 il əvvəl olduğu kimi, ölkədaxili siyasi qüvvələr arasındakı ziddiyyətlər pik həddə çatmışdı. Eyni zamanda bəzi kənar qüvvələr mövcud durumdan istifadə edərək Azərbaycan üzərindən bölgədə öz regional maraqlarını reallaşdırmağı hədəfləmişdilər. O da sirr deyil ki, bir çoxları prezidentliyə namizəd olaraq siyasi səhnədə nisbətən gənc lider qismində çıxış edən İlham Əliyevin ciddi uğur qazanacağına şübhə ilə yanaşırdılar. Lakin cənab İlham Əliyev kifayət qədər qətiyyətlə maneələri dəf elədi və prezident seçkilərində ilk uğuruna imza atdı.

O zaman yəqin ki, heç kim müqayisə olunmayacaq dərəcədə daha böyük uğurlara imza atılacağını və bir müddət sonra Prezident İlham Əliyevin Azərbaycan tarixinə işğal altında olan torpaqlarımızı azad edən Ordu rəhbəri, Müzəffər Ali Baş Komandan olaraq düşəcəyini təxmin etmirdi. Əlbəttə ki, bu illər ərzində əldə edilmiş uğurları bir yazıya sığışdırmaq mümkün deyil. Amma tam qətiyyətlə demək olar ki, bu uğurların zirvəsində İlham Əliyevin prezidentliyi dönəmində torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi dayanır.

Bu uğur bilavasitə Ali Baş Komandan olaraq Prezident İlham Əliyevin Vətən qarşısında müstəsna xidmətidir. Əlavə olaraq onu da tam əminliklə demək olar ki, istər regional, istərsə də qlobal güclərin bölgədə iqtisadi, siyasi və hərbi maraqlarının olmasına və mövcud reallıqlara rəğmən ölkəmizin müstəqil siyasət yürütməklə hazırki nailiyyətləri əldə etməsi bilavasitə Azərbaycan Prezidentinin yürütdüyü çoxvektorlu uğurlu xarici siyasət sayəsində mümkün olmuşdur.

Aparılan siyasətin nəticəsidir ki, Azərbaycan bu gün regionun əsas söz və güc sahibidir. Mövcud reallıqlar həm də onu diktə edir ki, regionda Azərbaycanın iştirakı olmadan heç bir layihə reallaşdırıla bilməz. Təbii ki, Azərbaycanın liderliyinin qorunub saxlanılması və daha da gücləndirilməsi üçün qarşıda görüləcək işlər çoxdur. Mən Prezident İlham Əliyevin ötən dövr ərzindəki fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, ona Azərbaycan naminə gələcək fəaliyyətində də uğurlar arzulayıram.

**Arzuxan ƏLİZADƏ,**
***Milli Məclisin deputatı, Azərbaycan Milli İstiqlal Partiyasının sədri***



# MÖHTƏŞƏM 21 İL 2003 2024

# Zəfər və inkişaf missiyası



**21 il öncə Azərbaycanın dövlətçilik salnaməsinin ən parlaq səhifələri yazılmağa başlandı. Tarixin ən qüdrətli Azərbaycanının və ən möhtəşəm Zəfərinin əsasının qoyulduğu 15 oktyabr günü yalnız milli tariximizin dönüş məqamı olmadı, həm də bütün Qafqazın siyasi, iqtisadi taleyini dəyişən mühüm ana çevrildi.**

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına son müraciətində "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" demişdi. Müdrik şəxsiyyətin bu fikirləri ötən dövrdə minlərlə uğur göstəricisinin timsalında öz təsdiqini tapdı.

Milli hədəf və məqsədin reallaşması üçün güclü dövlət və onu qətiyyətlə idarə edəcək qüdrətli lider ən vacib məsələdir. Bu gün Azərbaycanın müstəqil dövlət kimi dünyada qlobal nüfuz qazanması, regional lider kimi qəbul edilməsi məhz İlham Əliyev şəxsiyyətinin və onun rəhbəri olduğu dövlətin qüdrətinin məntiqi nəticəsi və təntənəsidir.

Prezident İlham Əliyev xalqın mütləq etimadı ilə Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoydu. O, fəaliyyətinin ilk günündən etibarən Ulu Öndərin milli tərəqqi strategiyasını davam etdirərək, onu dövrün çağırışlarına uyğun olaraq daha da zənginləşdirdi. Azərbaycan iqtisadi, siyasi qüdrəti, hərbi gücü və xalqın iqtidara birmənalı inamı ilə, əzmlə daha böyük nailiyyətlərə doğru irəlilədi. Nəticədə iqtisadi-sosial inkişafın, güclü dövlətçiliyin, hüquqi dövlətin və müzəffər zəfərin Azərbaycan nümunəsi yarandı. Bu nümunə - model artıq bütün dünyanın maraqla öyrəndiyi, yüksək dəyərləndirdiyi mükəmməl strateji yol xəritəsidir.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 21 il ərzində bütün sahələrdə möhtəşəm və tarixi əhəmiyyətə malik nailiyyətlər əldə olundu, respublikamızın sosial-iqtisadi göstəriciləri mütəmadi olaraq yüksəldi, beynəlxalq nüfuzu artdı. Azərbaycan bütün sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoydu, ən güclü intibah dövrünə nail oldu. Dövlət başçısının müəllifi olduğu milli inkişaf modelinin uğurla tətbiq olunması nəticəsində Azərbaycanda dayanıqlı iqtisadi sistem formalaşdı, bölgələrin davamlı və tarazlı sosial-iqtisadi inkişafı təmin edildi.

Ötən 21 il müddətində dövlət başçısı verdiyi bütün vədləri reallaşdırdı, özünün dediyi kimi, əsl siyasəti - əməli fəaliyyəti konkret işlə birləşdirərək, layiqincə həyata keçirdi. Nəticə yalnız respublika iqtisadiyyatının modernləşməsi və güclənməsi olmadı, həm də vətəndaşlarımızın rifahı yüksəldi, güzəranı yaxşılaşdı. Azərbaycan Avropa ilə Asiyanı, şimalla cənubu bir-birinə sıx bağlayan nəhəng layihələrin həyata keçirilməsində mühüm rol oynayır. Bu gün Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu istiqamətində əldə etdiyi nailiyyətlərlə dünyanın müzakirə etdiyi güclü dövlətdir.

Prezident İlham Əliyev müasir dövrün ən mühüm çağırışlarından biri olan kompleks islahatlar kursunu uğurla hazırlayaraq, bütün sahələrdə tətbiq etdi. Yeni ictimai-siyasi konfiqurasiyanı yaradaraq, cəmiyyətdə siyasi dialoqun miqyasını genişləndirərək, Azərbaycanın demokratik inkişafını təmin etdi və milli həmrəyliyin güclənməsinə şərait yaratdı. Müasir qloballaşma dövründə daim Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi özünü təsdiq edən dövlət başçımız beynəlxalq miqyasda da ölkəmizin yeganə və alternativsiz lideri kimi qəbul edilir. Prezident İlham Əliyevin qazandığı ümummilli etimad və beynəlxalq dəstək Azərbaycanın daha uğurlu gələcəyinin qarantıdır.

Möhtərəm Prezidentimiz Azərbaycan tarixinə yeni missiya ilə adını həkk etdirib. İlham Əliyevin xilaskarlıq və quruculuq missiyasının təntənəsi olaraq artıq tam yeni dövlət - Zəfər Azərbaycanı formalaşıb. Prezident həm də Ulu Öndərin ən böyük arzusunun - torpaqlarımızın azadlığı və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması diləyinin reallaşması üçün tarixi şərait yaratdı.

Vətən müharibəsində əldə olunan qələbə Prezident İlham Əliyevin 2003-cü ildə prezident seçkiləri zamanı xalqa verdiyi vədlərin real həyatda öz təsdiqini tapmasının təzahürüdür. 30 ilə yaxın müddət ərzində işğal altında saxlanılmış torpaqlarımızın təcavüzdən xilas edilməsi, ölkəmizin ərazi bütövlüyünün təmin olunması cənab İlham Əliyev tərəfindən onun Prezidentliyi müddətində gecəli-gündüzlü aparılan siyasətin təntənəsidir. Mürəkkəb geosiyasi şəraitdə, fövqəldövlətlərin toqquşan strateji maraqlarının fonunda bu zəfər salnaməsinin yaradılması, işğalçıların darmadağın edilərək layiqincə cəzalandırılması Müzəffər Ali Baş Komandanın nəyi necə və nə vaxt edəcəyini dəqiq bilən strategiyasının məntiqi nəticəsidir.



2020-ci ilin sentyabrınadək olan dövrdə Prezident İlham Əliyevin tərəqqiyə və qələbəyə hədəflənən siyasəti sayəsində Azərbaycanın iqtisadi müstəqilliyi tam təmin edildi, ölkənin maliyyə imkanları genişləndi. İqtisadi inkişaf Azərbaycanı tarixi zəfərə aparan çox mühüm və həlledici amil oldu. Bununla paralel olaraq ordu quruculuğu strategiyası müvəffəqiyyətlə icra edildi, Silahlı Qüvvələrin döyüş qabiliyyəti, hərbi hazırlıq səviyyəsi artırıldı, maddi-texniki təchizatı gücləndirildi. Azərbaycanın öz milli maraqlarını, suverenliyini döyüş meydanında təmin etməsi gerçəyə çevrildi. Beləliklə, milli maraqlara əsaslanan xarici siyasət kursunun, güclü iqtisadiyyatın və modern ordu quruculuğunun uğurlu vəhdəti, ən əsası isə milli həmrəyliyin, xalq-lider birliyinin yaradılması əsas milli hədəfin reallaşmasını təmin etdi.

Bu tarixi zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, müdrik və uzaqgörən siyasəti, həmçinin Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində qazandıq. Vətən müharibəsində Azərbaycan xalqı Prezidentin rəhbərliyi ilə öz gücünü səfərbər edərək milli qürur və ləyaqətin bərpasına, tarixi ədalətsizliyin aradan qaldırılmasına nail oldu.

44 günlük Vətən müharibəsindəki tarixi zəfərimiz Azərbaycanı bütün dünyaya qalib ölkə, xalqımızı isə qəhrəman xalq kimi tanıtdı. Bu müharibənin gedişində Azərbaycan haqqında, onun malik olduğu güc barədə beynəlxalq birlikdə dəqiq təsəvvür formalaşdı. Onlar gördülər ki, xalqının maraqlarını hər şeydən üstün tutan, "Qarabağ Azərbaycandır və nida" kəlməsini Azərbaycan tarixinə əbədi həkk edən Lideri var, həm də XXI əsrin müharibəsini qələbə ilə apara bilən güclü, əzmkar, peşəkar Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Şübhəsiz ki, Prezident İlham Əliyevin qazandığı bu qlobal nüfuz və dəstək ölkəmizin daha uğurlu gələcəyinə töhfədir.

Bu gün Azərbaycan Vətən müharibəsindəki tarixi qələbəsi ilə regionda yeni reallıqlar yaradıb. Prezident İlham Əliyev sülh prosesində də güclü iradə, qətiyyətli mövqe nümayiş etdirir. Azərbaycan öz strateji hədəflərini addım-addım gerçəkləşdirir.

Artıq dörd ildir ki, işğaldan azad olunmuş torpaqlarımızda üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Bu ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq və yenidənqurma işləri dövlətimizin gücünün təsdiqidir. Qısa müddətdə nəhəng infrastruktur layihələrinin icrası və bəzilərinin başa çatdırılması Prezident İlham Əliyevin böyük vətənpərvərliyinin, qətiyyətli fədakarlığının təzahürüdür.

Müzəffər Ali Baş Komandan azad edilmiş torpaqlarda hər ay, bəzən hər həftə yeni infrastruktur layihələrinin təməlini qoyur. Böyük qayıdışın yeni ünvanlarında keçmiş məcburi köçkünlərə yeni mənzillərinin açarlarını təqdim edir. Düşmənin viran qoyduğu Qarabağı və Şərqi Zəngəzuru Prezident İlham Əliyev dünyanın ən gözəl guşələrindən birinə çevirəcək.

Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq-bərpa prosesində Heydər Əliyev Fondu da yaxından iştirak edir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə işğaldan azad olunan yurdlarımızdakı tarixi abidələr həyata qaytarılır, mədəniyyət inciləri yenidən bəşəriyyətə bəxş edilir. Vətən müharibəsi vaxtı Mehriban xanım Əliyevanın xalqımızı qələbəyə ruhlandıran çağırışları, şəhid ailələrinə, yaralılara və müharibə iştirakçılarına həssas diqqət və qayğısı, Prezidentlə birgə işğaldan azad olunan rayonlara səfər etməsi və müharibədən sonrakı quruculuq fəaliyyəti vətəndaşlarımız tərəfindən böyük qədirbilənliklə qiymətləndirilir.

Ümumiyyətlə, Azərbaycanın strateji məqsədlərinin reallaşdırılmasında, uğurlu sosial siyasətin tətbiqində, xalq-iqtidar birliyinin möhkəmləndirilməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri, əlahiddə fəaliyyəti olub. Mehriban xanımın bütün sahələrdə irəli sürdüyü uğurlu təşəbbüslər, həyata keçirdiyi proseslər cəmiyyətdə onun müsbət imicini davamlı möhkəmləndirir, nəticə etibarilə İlham Əliyevin və iqtidarın nüfuzunun daha da yüksəlməsinə əməli töhfə verir.

Son 21 ildə Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq, multikulturalizm və tolerantlıq məkanı kimi tanınır, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verir. Nəhəng enerji-nəqliyyat və infrastruktur layihələri dövlətimizin təşəbbüsü və liderliyi ilə reallaşdırılır, Azərbaycan regional güc mərkəzinə çevrilir. Bütün bunlar dövlət başçımızın müdrik siyasətinin, qətiyyətli iradəsinin, zəngin dövlətçilik təcrübəsinin, böyük vətənpərvərliyinin nəticələridir.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan öz şanlı tarixinin ən şərəfli mərhələsini yaşayır. Bu mərhələnin davamlılığı və daha böyük hədəflərin reallaşması məhz Heydər Əliyev yolunun - İlham Əliyev dövlətçilik xəttinin əbədi istinad mənbəyimizə çevrilməsi ilə mümkündür. Bu yola, bu xəttə alternativ yoxdur.

Ötən 21 ilin məntiqi yekunu da elə budur ki, xalq Prezident İlham Əliyevin timsalında öz birmənalı inam, etimad ünvanını müəyyənləşdirib. Tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı olan Prezident İlham Əliyev əminik ki, daha möhtəşəm zəfərlərlə, nailiyyətlərlə dövlətimizə və xalqımıza yeni qələbələr, uğurlar yaşadacaq.

**Asif ƏSGƏROV,**
***Milli Məclisin deputatı***

# Milli maraqlara söykənən siyasət

**2003-cü il oktyabrın 15-dən etibarən Prezident İlham Əliyevin Azərbaycanın regional və qlobal müstəvidə mövqelərinin möhkəmləndirilməsi, tərəfdaş və müttəfiqlərinin sayının artırılması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuzlu və ciddi təsir imkanlarına malik önəmli aktorlarından birinə çevrilməsi istiqamətində həyata keçirdiyi və yalnız milli maraqlara söykənən xarici siyasət kursu azərbaycanlılar üçün qürur, araşdırmaçılar üçün isə istinad mənbəyidir.**



Azərbaycanın ərazi bütövlüyünün və suveren hüquqlarının tam təmin edilməsindən sonra, təkcə Cənubi Qafqazda deyil, Ön Asiyada və uzaq təsir arealı baxımından Avrasiyadakı reallıqların tamamilə dəyişməsi fonunda 20 il öncəyə nəzər salmaq, proseslərin inkişaf xronologiyasını sadalamaq kifayət qədər asandır. Bu, ən yaxşı halda bir neçə saatlıq vaxt tələb edə bilər. Lakin "birqütblü dünya fenomeni"nin süquta uğramaqda olduğu, yenisinin formalaşmadığı, beynəlxalq hüququn norma və prinsiplərindən doğan qlobal təhlükəsizlik mexanizmlərinin sıradan çıxarıldığı, güc amilinin digər amilləri üstələdiyi, olduqca mürəkkəb, ziddiyyətli, xaotik, bəzən isə anlaşılmaz beynəlxalq münasibətlər sistemi çərçivəsində Azərbaycan liderinin ölkənin milli maraqlarından bir millimetr də olsa geri çəkilmədən, güzəştsiz, qətiyyətli və cəsarətli bir mövqe sərgilədiyi önə çıxarılarsa, geridə qalan zaman kəsiyinin hər saatında, hər anında nə qədər iti və çevik zəkanın, böyük zəhmətin və sonsuz fədakarlığın dayandığını söyləmək mümkündür.

Hətta Azərbaycana qarşı ən kəskin, qərəzli mövqedə dayanan qlobal media resurslarının analitikləri belə Prezident İlham Əliyevin geosiyasi proseslərin inkişaf istiqamətini və dinamikasını proqnozlaşdırmaq, dəqiq təhlil etmək, düzgün nəticə çıxarmaq, mövqe seçmək məharətindən heyrətə gəldiklərini bildirirlər. Onlar ənənəvi olaraq ən önəmli məqamı ifadə edə, keçilən yolun mahiyyətini gün işığına çıxara biləcək vacib sualların cavabını açıq saxlayırlar. Suallar isə belədir: Necə oldu ki, İlham Əliyev eyni vaxtda Ermənistan istisna olmaqla, MDB üzvü olan bütün ölkələrlə, o cümlədən Rusiya, çağdaş geosiyasi konfiqurasiyada özünəməxsus yeri olan Çinlə, tamamilə əks qütbdə dayanan ABŞ və Avropa İttifaqı, ziddiyyətli və dost olmayan münasibətlərə malik İran və ərəb ölkələri, hətta İsraillə əməkdaşlıq münasibətləri qura bildi? Necə oldu ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən bütün enerji layihələri Avropanın enerji təhlükəsizliyinin əsas elementlərindən birinə çevrildiyi halda köhnə qitə üçün uzun illər boyu əsas enerji mənbəyi olan Rusiyanı atılan addımların onun əleyhinə yönəlmədiyinə inandırmağı və hətta sözügedən istiqamətdə qarşılıqlı faydalı əməkdaşlığa nail olmağı bacardı? Necə oldu ki, İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyünü, hətta təsisatın aparıcı, ideya və istiqamətverici subyektinə çevirməyi, eyni zamanda həm NATO-nun ikinci hərbi gücü olan Türkiyə, həm də Şimali Atlantika Alyansı ilə, yumşaq desək, rəqabətdə olan qütbün - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) dominant ölkəsi Rusiya ilə qarşılıqlı münasibətləri bütün istiqamətlərdə, o cümlədən, hərbi müstəvidə strateji müttəfiqlik müstəvisinə yüksəldə bildi? Necə oldu ki... Bu sualların sayı o qədər çoxdur ki, hər birinin cavabı üçün geridə qalan 21 ilin az qala hər saatının ən incə detallarına kimi təhlil olunmasına ehtiyac duyulur.

Prezident İlham Əliyevin xarici siyasətdə yaratdığı özünəməxsus və təkrarsız nümunənin bütün komponentləri, əslində, vahid strategiyanın tərkib hissəsidir. Azərbaycanın iştirakı və təşəbbüsü ilə həyata keçirilən enerji layihələri, enerji və nəqliyyat dəhlizlərinin diversifikasiyası istiqamətində atılan addımlar sadəcə ölkəmizin iqtisadi potensialının gücləndirilməsinə xidmət etməyib. Bütün bu layihələr ölkəmizin regional və qlobal miqyasda nüfuzunun artırılmasına və real təsir imkanlarına malik "yumşaq güc" amilinin formalaşdırılmasına xidmət edib. Bununla paralel olaraq, Azərbaycan Avropa İttifaqına üzv olan ayrı-ayrı ölkələrlə də strateji tərəfdaşlıq haqqında müvafiq razılaşmalar imzalamaqla, öz mövqelərinin köhnə qitədə həm də ikitərəfli münasibətlər kontekstində möhkəmləndirilməsinə nail olub.

Vaxtilə ölkəmizin ərazilərini işğal altında saxlayan Ermənistan KTMT-nin üzvü olduğu halda sözügedən təsisatın digər üzvləri Azərbaycanla münasibətlərini ən yüksək səviyyədə qoruyub saxlayır, hətta ölkəmizin təmsil olunmadığı bu təşkilatda bizim ədalətli mövqeyimizi müdafiə edirlər. Azərbaycanın Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistanla qurduğu yüksəksəviyyəli ikitərəfli münasibətlər KTMT-də Ermənistanın əlini-qolunu bağlamış, manevr imkanlarını minimuma endirmişdi. Həm də bu səbəbdən rəsmi İrəvanın istər Tovuz döyüşləri, istər 44 günlük müharibə, istərsə də postmüharibə dövründə KTMT-ni qarşıdurmaya cəlb etmək niyyəti tamamilə iflasa uğradı və əks reaksiyaya səbəb oldu. İndi vaxtilə Azərbaycanın Belarus, Tacikistan və KTMT üzvü olan digər ölkələrlə qarşılıqlı əlaqələri üzərindən öz məhdud dünyagörüşlərinə uyğun mülahizələr yürüdənlər yekun nəticəni göz önündən keçirib yanlış hesablamalarının fərqinə vara bilərlər. Yaxud Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyünü və bu hərəkat çərçivəsində atdığı addımları öz bəsit baxış bucaqlarının süzgəcindən keçirənlər dünyanın BMT-dən sonra ikinci ən böyük təşkilatının ölkəmizə qarşı "səlib yürüşü" təşkil etməyə çalışanların planlarını necə pozduğunu yada salıb, əgər bacarsalar, utana bilərlər.

Dövlət başçısının xarici siyasətdəki bütün uğurlarının əsas sirri onun istisnasız olaraq Azərbaycan xalqının milli maraqlarından çıxış etməsidir. O, Azərbaycanın beynəlxalq nüfuzunun yüksəldilməsi, maraqlarının qorunması, mövqelərinin möhkəmləndirilməsi üçün uzun illər boyu fasiləsiz və gərgin proqramla çalışdığı, saysız-hesabsız görüşlər keçirdiyi, ölkəmizlə bağlı həqiqətləri dünyaya çatdırmaq üçün bütün imkanlardan yararlanmağı bacardığı kimi, yenə də lideri olduğu xalqın və dövlətin mənafeyi naminə nədənsə imtina etməyi də çox yaxşı bilir. Bununla bağlı çoxsaylı nümunələr gətirmək olar.

Bu sırada Prezident İlham Əliyevin 2009-cu ildə həmin dövrdə ABŞ-nin Prezidenti olan Barak Obama və Dövlət katibi Hillari Klintonla İstanbulda, Avropa Parlamentinin sədri ilə Brüsseldə görüşməkdən imtina etdiyini və bununla da ölkəmizə qarşı nümayiş etdirilən ədalətsiz, qərəzli münasibətə açıq etirazını qeyd etmək olar. Azərbaycan Prezidentinin Fransa Prezidenti və Almaniya Kanslerinin də iştirak edəcəyi Qranada görüşündə iştirakdan imtina etməsini isə qənaətimə görə, yalnız milli maraqların müdafiəsi ilə əlaqələndirmək doğru olmazdı. Bu həm də xarakter məsələsidir. İlham Əliyevin xarici siyasəti məsuliyyətli, prinsipial, öhdəliklərinə sadiq və qürurlu azərbaycanlı obrazının diplomatik müstəvidə təcəssümüdür.

**Elçin MİRZƏBƏYLİ,**
***Milli Məclisin deputatı,***
***Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini***



MÖHTƏŞƏM 21 İL 2003 2024



# Böyük Yolun başlanğıcı

**Hər bir xalqın tarixinə əbədi həkk olunan, bir az da dəqiqləşdirməli olsaq, qızıl hərflərlə yazılan elə illər, aylar, günlər var ki, qərinələr, əsrlər ötsə belə heç vaxt yaddaşlardan silinmir. Zaman keçdikcə həmin tarixi anların əhəmiyyəti, xalqın gələcək taleyində müstəsna rolu, obrazlı şəkildə ifadə etməli olsaq, möhtəşəmliyi özünü daha qabarıq şəkildə büruzə verir. 2003-cü ilin 15 oktyabrı Azərbaycanın çağdaş tarixinə məhz belə bir gün kimi əbədi həkk olunub.**

Həmin gün keçirilən prezident seçkilərində xalqımız, demək olar ki, yekdilliklə müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin təməlini qoyub inkişaf etdirdiyi Böyük Yolun davamına səs verdi. Seçicilərin 76,84 faiz səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev andiçmə mərasimində Ulu Öndər Heydər Əliyevə bu müraciəti etdi: *"Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsəriniz olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik"*.

## Vədə sadiqliyin təntənəsi: Ulu Öndərin ən böyük arzusu çin oldu

Bu gün son 21 ilin reallıqlarını təhlil edərkən bu vədin yüksək səviyyədə yerinə yetirildiyini sonsuz fəxarət və qürur hissilə qeyd edirik. Prezident İlham Əliyevin ötən il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə xalqa müraciətini məhz mədəniyyətimizin beşiyi, Qarabağın tacı azad Şuşadan çatdırması 21 il əvvəl yüksək kürsüdən verdiyi vədə sadiqliyinin əyani təzahürü oldu. Dövlətimizin başçısının bu müraciətdə səsləndirdiyi *"Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır... Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik"* fikirləri Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən səsləndirdiyi *"Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"* çağırışının davamı kimi dəyərləndirildi. Təbii ki, zəfərlərimiz bununla tamamlanmadı. Qarşıda qətiyyətli Prezident, Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə İlham Əliyevin 2003-cü il oktyabrın 15-də Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə bağlı yüksək kürsüdən verdiyi vədin reallaşması kimi ümdə vəzifə dururdu. 2020-ci ilin Vətən müharibəsində tarixi Zəfərimizdən üç il sonra - 2023-cü il sentyabrın 19-da rəşadətli ordumuzun Qarabağda başladığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, qarşıya qoyulan hədəflərə cəmi 24 saatdan da az vaxtda nail olunması Azərbaycanın növbəti tarixi Qələbəsi, Ali Baş Komandanın 20 il əvvəl verdiyi vədin tamamilə reallaşması oldu.



## Bu yol Heydər Əliyev yoludur...

Prezident İlham Əliyevin hər bir müraciəti müjdələrlə zəngin, sabaha böyük inam çağırışıdır. Bu, Heydər Əliyev siyasətinin təntənəsidir. Azərbaycanın 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə başlanan inkişaf yolu bu günümüzün və gələcəyimizin əsası oldu. Bu yol dahi şəxsiyyətin şah əsəri olan müasir müstəqil Azərbaycanı ancaq və ancaq qələbələrə aparır. Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, liderlik keyfiyyətləri Azərbaycanı böyük bəlalardan, faciələrdən, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Ulu Öndərin böyük bəlalardan, faciələrdən, müstəqilliyini itirmək təhlükəsindən xilas etdiyi Azərbaycanı Onun layiqli davamçısı Prezident İlham Əliyev bügünkü ərazi bütövlüyü, suverenliyi tam bərpa olunmuş, dünya siyasətinə təsir göstərmək güçündə, qüdrətində olan qalib, bütövləşmiş regionun lider dövlətinə çevirdi.

## Əgər tarix başqa istiqamətdə getsəydi…

Ən əsası odur ki, 2003-cü ildə müdrik və uzaqgörən xalqımız düzgün seçim etdi. *"Hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi"* söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi. Yəni Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərdi ki, güclü lider və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi.

Son 21 ilin uğurlarını, Azərbaycanın ayrı-ayrı sahələrdə qazandığı misilsiz nailiyyətləri geniş təhlil etməyə ehtiyac yoxdur. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu illərin tarixinə gəldikdə isə hər şey göz qabağındadır. Qısa desək, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Bu, həm beynəlxalq aləmdə, həm regionda, həm də daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər.

## 2003-2020: Məqsədə nail olmağa hədəflənmiş illər

Yazının əvvəlində də qeyd etdiyimiz kimi, 2003-cü ildə əsas hədəf torpaqlarımızın işğaldan azad edilməsi, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı, bu ərazilərdə yeni həyatın başlanması idi. 2003-2020-ci ilədək olan dövr bu məqsədə nail olmağa hədəfləndi. Azərbaycan hər bir sahədə gücləndi. İqtisadi və siyasi müstəqilliyimiz daha da möhkəmləndi. Ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Bunun nəticəsidir ki, Silahlı Qüvvələrimiz dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşdı. Rəşadətli ordumuz tarixi Zəfərimizə qədər 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında zəfəri ilə nəyə qadir olduğunu, üzərinə düşən şərəfli missiyanı daim uğurla yerinə yetirməyə hazır olduğunu nümayiş etdirdi.

Azərbaycan beynəlxalq münasibətlər sistemində yerini və rolunu möhkəmləndirdi. Dövlətimizin ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasəti, əməkdaşlığa daha çox önəm verməsi yeni dostlar, tərəfdaşlar qazanmasında stimulverici amil rolunu oynadı. Azərbaycanın siyasi mövqeyinin möhkəmlənməsində iqtisadi müstəqilliyi əhəmiyyətli rol oynadı. Məhz bu uğurlu fəaliyyətlərin nəticəsidir ki, bu gün ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadə etməsinin təsdiqi olan enerji layihələrinin icrası ilə dünyanın enerji xəritəsi yenidən tərtib edilir. Regional çərçivədə başlayan əməkdaşlığın coğrafiyası genişlənir, Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələr dünyanın enerji təhlükəsizliyinin təmin edilməsinə əsas verir. "Yeni əsrin müqaviləsi"nin imzalanması, 2014-cü ildə təməli qoyulan "Cənub qaz dəhlizi"nin icrasının 2020-ci ilin sonunda tam tərkibdə başa çatması Azərbaycan qazının dünya bazarlarına çatdırılmasına, ixrac imkanlarımızın genişlənməsinə yol açdı. Tarixən neft ölkəsi kimi tanınan və nüfuz qazanan Azərbaycan hazırda qaz ixracatçısıdır, "yaşıl enerji"yə keçid dövlət siyasətində prioritet istiqamətlərdən biridir. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu icrasında SOCAR-ın böyük rolu vardır.

Uğurlu neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafı üçün geniş imkanlar yarandı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə 1999-cu ildə yaradılan Dövlət Neft Fondunda toplanan vəsaitlər Azərbaycanın hərtərəfli inkişafına xidmət edən sosial-iqtisadi layihələrin icrasını sürətləndirdi. Regionların malik olduğu potensialdan səmərəli istifadə etmək üçün regional inkişaf proqramları icra edildi. Bakı və Bakıətrafı qəsəbələrin, regionların sosial iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrasını həm paytaxtımızın, həm də bölgələrimizin simasının daha da müasirləşməsində, yeniləşməsində görürük.

## Azad Qarabağ və Şərqi Zəngəzur cənnətməkana çevrilir

2020-ci ilin Vətən müharibəsində tarixi Zəfərimizdən dərhal sonra işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa-quruculuq işlərini bu inkişafın davamı kimi qiymətləndirmək olar. Məhz bu işlərin sayəsində artıq azad Qarabağımız və Şərqi Zəngəzurumuz cənnətməkana çevrilir. Soydaşlarımızın gələcəkdə bu torpaqlarda yüksək rifah şəraitində yaşamaları üçün bütün zəruri addımlar atılır, yeniliklər tətbiq edilir. İşlərin səmərəliliyini artırmaq, bir mərkəzdən idarə etmək üçün bu torpaqlarda Prezidentin şəxsi nümayəndələri fəaliyyət göstərirlər. Şanlı Qələbəmizdən sonra iqtisadi rayonların yeni bölgüsünün həyata keçirilməsi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiqlənməsi həm işğaldan azad edilmiş ərazilərimizin, həm də ümumilikdə bütün regionlarımızın malik olduqları potensialdan istifadə etməklə Azərbaycanın gələcək dayanıqlı inkişafına töhfələr verməlerində Yol xəritəsi roluna malikdir. Milli Prioritetlərdə hədəflər və onlara nail olmağın mexanizmləri öz əksini tapıb.

## Mübarizə bu gün də var, sabah da…

Azərbaycanın tarixi Zəfəri bütün sahələrdə malik olduğu imkanların təqdimatı oldu. Təbii ki, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra Azərbaycanın dünyada söz sahibinə çevrilməsi, xalqımızın və dövlətimizin həyatında yeni inkişaf dövrünün başlanması xarici anti-Azərbaycan dairələri ciddi narahat edir. Azərbaycanın İkinci Qarabağ müharibəsində tarixi Zəfərini, eyni zamanda Silahlı Qüvvələrimizin ötən ilin sentyabrında reallaşdırdığı birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda Ermənistanın hərbi mövcudluğuna və separatizmə son qoyulmasını həzm edə bilməyən bir çox ermənipərəst dairələr bu gün ölkəmizə qarşı siyasi, diplomatik və ideoloji hücuma keçmişlər. Belə bir şəraitdə bu günümüzün əsas çağırışlarından biri Azərbaycana qarşı aparılan qərəzli təbliğatları, şər, böhtan kampaniyalarını real faktlarla, tarixi həqiqətlərlə cavablandırmaqdır. Bu məsələdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız, diaspor təşkilatlarımız, diplomatik nümayəndəliklərimizlə yanaşı, ictimai rəyə geniş təsir imkanları olan mətbuatın da üzərinə böyük məsuliyyət düşür. Ölkəmizdə azad sözün, mətbuatın fəaliyyətinə yaradılan imkanlar mediamızın qarşısında dayanan bu vəzifələri yerinə yetirməklə bərabər, demokratiya prinsiplərinin dəyişməzliyinə də çağırışlar edir. Bu gün mətbuatımız dövrün reallıqlarına uyğun olaraq yeniləşir, təkmilləşir. Ümummilli Lider Heydər Əliyevin hər bir sahədə qurduğu möhkəm təməl qalib Azərbaycanın bu gün daha inamla hədəflərə doğru irəliləməsini şərtləndirir.

## Müasir tariximizin yeni dövrü məhz 2023-cü ilin 20 sentyabrından başlayır

Bu gün ölkəmizin qarşısında duran yeni vəzifələr yeni dövrün çağırışlarıdır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tarixi Zəfərimizdən sonrakı dövrün hədəflərindən bəhs edərkən işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə yanaşı, ordu quruculuğunun prioritetliyini xüsusi vurğulayır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, ötən ilin sentyabrına qədər getdiyimiz yol məqsədyönlü, məqsədə hesablanmış, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başladıq. Müasir tariximizin yeni dövrü məhz 2023-cü ilin 20 sentyabrından başlayır.

## Böyük qayıdışın yeni ünvanları…

Azərbaycanın tarixi Zəfərinin, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasının yaratdığı reallıqlar fonunda bu gün tarixi sahibinə qovuşmuş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindən böyük qürur hissilə bəhs edirik. Artıq beş şəhərimiz - Füzuli, Laçın, Xocalı, Şuşa və Cəbrayıl, 4 kəndimiz - Ağalı, Talış, Sus və Zabux sakinlərinə qovuşub. Qısa müddətdə qayıdış ünvanlarının sayında artım görülən işlərin miqyası barədə aydın təsəvvür yaradır. Yaxın günlərdə bu sıraya Xankəndi və Kəlbəcər şəhərlərinin də daxil olacağı gözlənilir. Müasir tələblər səviyyəsində qurulan torpaqlarımızda tarixi və dini abidələrimizin bərpasında Heydər Əliyev Fondunun xidmətləri böyükdür. Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Qarabağa və Şərqi Zəngəzura səfərlərinin hər biri tarixi hadisə olmaqla yanaşı, Böyük qayıdış proqramının tezliklə uğurla başa çatacağına əminliyi artırır.

## Zəfərlərimizin təqdimatı

Tarixi Zəfərimizin, suverenliyimizin bərpasının əbədiləşdirilməsi üçün davamlı addımlar atılır. Dövlətimizin başçısı İlham Əliyevin sərəncamları əsasında Şuşanın işğaldan azad olunduğu gün Zəfər Günü, İkinci Qarabağ müharibəsinin başlandığı 27 sentyabr tarixi Anım Günü, 20 sentyabr Dövlət Suverenliyi Günü kimi təsis edilib. Xalqımız Qələbəyə, suverenliyimizin bərpasına gedən yolu hər zaman xatırlamalı, bu qüruru bizə yaşadan şəhidlərimizi heç zaman unutmamalıdır. Dövlət başçısı İlham Əliyevin sərəncamları ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bu tarixi günlərin unudulmamasına yönələn addımlar sırasındadır. Azərbaycan bayrağının işğaldan azad edilmiş ərazilərimizdə dalğalanması milli kimliyimizin dünyaya təqdimatıdır. Bu gün azad edilmiş ərazilərimiz diplomatik mərkəz kimi dünyanın diqqətindədir. Qürurvericidir ki, Qarabağın tacı Şuşa ötən il türk dünyasının, bu il islam dünyasının mədəniyyət paytaxtı elan edildi. Laçın şəhəri isə 2025-ci il üçün MDB-nin mədəniyyət paytaxtı elan edilib. Bu mühüm addımlar tarixi Zəfərimizin təqdimatı və beynəlxalq səviyyədə qəbuludur. Şuşa iqtisadi, siyasi, humanitar, diplomatik mərkəz kimi beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi edir.

## Biz bu gün Qarabağın və Şərqi Zəngəzurun hər qarışındayıq

Ötən 21 ilin möhtəşəm hadisələri sırasında müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə edən prezident və parlament seçkilərini qeyd etməliyik. Bu il fevralın 7-də keçirilən prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyevin inamlı qələbəsi Azərbaycanın qarşısında yeni üfüqlər, imkanlar açdı. Bu seçkilər 20 ilin hesabatı, qarşıdakı dövrdəki vəzifələrin təqdimatı oldu. Prezident İlham Əliyev andiçmə mərasimində hədəfləri açıqladı və çıxışının sonunda böyük inamla qeyd etdi ki, biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək.

## Çağdaş tariximizə seçki ili kimi yazılacaq 2024-cü il

2024-cü il tariximizə seçki ili kimi yazılacaq. Sentyabrın 1-də bütün ölkə ərazisində parlament seçkiləri keçirildi. Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası bu seçkilərdə də qələbəsi ilə xalqın həyata keçirilən siyasətə dəstəyini, partiyaya inamını nümayiş etdirdi. Ölkədə cərəyan edən bütün proseslərin mərkəzində dayanan Yeni Azərbaycan Partiyası son 21 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə daha möhtəşəm uğurlara imza atır. Partiyanın qəbul etdiyi qərarlar, irəli sürdüyü təşəbbüslər Azərbaycanın inkişafına xidmət edir. Ümummilli Liderin *"YAP dünənin, bu günün və gələcəyin partiyasıdır"* inamını, etimadını doğruldan partiyanın tarixi Zəfərimizin reallıqları əsasında keçirilən VII qurultayında YAP-ın Sədri, Prezident İlham Əliyev bu çağırışı da etdi ki, hər dövrün öz tələbləri var. Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament yaratdı, baza yaratdı, imkan yaratdı ki, biz əsas məqsədimizə çataq. Ancaq əgər biz oturub bütün günü o dövr haqqında danışsaq, gələcək haqqında düşünməsək, onda nə olacaq. Biz gələcək haqqında düşünməliyik. Biz zamanı qabaqlamalıyıq. Prezident İlham Əliyev eyni zamanda bildirir ki, biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək.

Bu gün Azərbaycanın demokratiya təcrübəsi nümunə göstərilir. Ölkəmizdə demokratik təsisatların inkişafı üçün bütün zəruri addımlar atılır. Siyasi dialoq mühiti təkmilləşdirilir. Siyasi sistemin təkmilləşdirilməsinə yönələn addımlardan biri də "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul edilməsidir. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz vətəndaş birliyinin, həmrəyliyinin təqdimatı oldu. 50-dən artıq siyasi partiya Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstəklərini imzaladıqları bəyanatla təsdiqlədilər. Bu sırada Yeni Azərbaycan Partiyasının VII Qurultayında 6 siyasi partiyanın Yeni Azərbaycan Partiyasına qoşulması ilə bağlı qərarını da qeyd etmək lazımdır.

## COP29 beynəlxalq nüfuzumuzun göstəricisidir

Zəfərlərimiz Azərbaycanın hər bir sahədə, o cümlədən xarici siyasətdə uğurlarının miqyasını daha da genişləndirir. Ölkəmiz gələn ay mötəbər beynəlxalq tədbirə - COP29-a evsahibliyi edəcək. Dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi Azərbaycanın qlobal məsələlərin həllinə öz töhfələrini vermək istəyinə bir daha işıq salır. COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Dövlətimizin başçısı İlham Əliyev *"Müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişdik, heç kimin işinə qarışmamışdıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər. Belə cəhdlər var, olacaq. Düzdür, onların heç bir əhəmiyyəti yoxdur. Ancaq bizim xarici siyasət istiqamətində bu amil təbii olaraq həmişə nəzərə alınacaq. Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu, olmayacaq!"* söyləyərək Azərbaycanın müstəqil siyasət yürütdüyünü bir daha diqqətə çatdırmaqla yanaşı, xarici siyasətinin dəyişməz prinsiplərini açıqlayır. Beynəlxalq mövqelərimiz möhkəmlənib, beynəlxalq ictimaiyyət bizimlədir. COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Bundan sonra da xarici siyasətdə geriyə heç bir addım olmayacaq. Dostlarımızın bütün qitələrdə sayı artır. Vaxtilə mövcud olmadığımız bölgələrlə indi çox ciddi təmaslar qurulur, həm sərmayə qoyuluşu layihələri nəzərdən keçirilir, eyni zamanda müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaranır. Ənənəvi tərəfdaşlarımızla, dostlarımızla münasibətlərimiz daha da inkişaf edir və edəcək.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin hər bir çağırışı gələcəyimizə xidmət edir. Hər bir addım əvvəlki addımın məntiqi davamıdır. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycanın qarşısında açılan yeni imkanlar harada yaşamasından asılı olmayaraq, bu, əminliklə yaşamağa stimul verir ki, tezliklə Qərbi Azərbaycana da qayıdışın sevincini yaşayacağıq.

**Vüqar RƏHİMZADƏ,**
***Milli Məclisin deputatı***



# MÖHTƏŞƏM 21 İL 2003 2024

## Bayrağımızın Xankəndidə ucaldılacağına hər kəsdən öncə Prezident inanırdı



**"2023-cü il oktyabrın 15-də Ali Baş Komandan İlham Əliyev tərəfindən əzəli torpaqlarımız olan Xankəndi, Xocavənd, Xocalı, Ağdərə şəhərlərində, eləcə də Əsgəran qəsəbəsində Azərbaycanın Dövlət Bayrağının ucaldılması ölkəmizin bütün ərazilərində suverenliyimizin bərpasının təntənəsi idi. Zəfərimizi tamamlamaqla ölkəmizdə separatizm, işğal səhifəsini tam bağlamış olduq. Ümumiyyətlə, Azərbaycanın Xankəndiyə sahiblənməsi siyasi məharətin, diplomatik və hərbi gücümüzün birliyinin nəticəsində mümkün oldu. Bunu inanılmaz və ya gözlənilməz qələbə kimi qələmə verənlər də var. Hətta ermənilər və onların havadarları hesab edirdilər ki, Azərbaycan ən azı 2025-ci ilə qədər Xankəndiyə nəzarəti təmin edə bilməyəcək. Amma Ali Baş Komandanın siyasi iradəsi bizə möcüzəvi qələbə bəxş etdi".**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Milli Məclisin deputatı Mehriban Vəliyeva bildirib. Onun sözlərinə görə, bayrağımızın Xankəndidə ucaldılacağına hər kəsdən öncə Prezident inanırdı: "Prezident İlham Əliyev vəzifə borcunu yerinə yetirməyə başlayanda qarşısında birnömrəli vəzifə qoymuşdu ki, Azərbaycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə ucaldılsın. Dövlət səviyyəsində həyata keçirilən daxili və xarici siyasətin əsas hədəfi suverenliyimizin təmin olunmasına yönəlmişdi. Ola bilsin ki, o zaman əksəriyyət aparılan siyasətin, islahatların, hərbi quruculuq işlərinin mahiyyətini o qədər də anlamırdı, detalları bilmirdi. Zaman siyasi fəaliyyətin nəyə hədəfləndiyini aydın göstərdi. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Güclü iqtisadi sistem qurduq. Nizami və peşəkar ordumuz Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Bu gün təkcə Azərbaycan vətəndaşları deyil, dünyada yaşayan on milyonlarla azərbaycanlı və bütövlükdə türk dünyası Azərbaycan Ordusu ilə fəxr edir. Ordumuz hələ 2020-ci ilin noyabrında Xankəndiyə daxil olacaqdı. Alınmaz qala hesab olunan Şuşanı azad edən hərbçilərimiz Xankəndinin bir addımlığında idilər və irəliləyirdilər. Ermənistanın siyasi rəhbərliyi başa düşdü ki, azı 20 minlik erməni ordusu Qarabağda məhv ediləcək. Ona görə də əməliyyatların dayandırılması xahişi ilə çıxış etdi və kapitulyasiya aktı imzaladı. Ağdam, Kəlbəcər və Laçına güllə atmadan sahib olduq. Biz bununla kifayətlənə bilməzdik. Xankəndisiz, Xocalısız qələbəmiz yarımçıq olardı. Tarixi gün yetişdi. Ordumuz 2023-cü il sentyabrın 19-da 23 saatlıq antiterror tədbirləri həyata keçirərək bütün Qarabağa nəzarəti təmin etdi. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Ermənistan bu əməliyyatı unutmasın, Azərbaycan Ordusunun nəyə qadir olduğunu unutmasın. Silahlanmaq niyyətindən, separatçılıq mövqeyindən əl çəksin. Unutmasın ki, havadarları onu məhvə sürükləyir".

Deputat qeyd edib ki, 30 il ərzində Azərbaycan xalqı böyük faciələr yaşadı: "Bir milyon insan evsiz-eşiksiz qaldı, işğal altında olan ərazilərimiz tamamilə dağıdıldı. Azad edilmiş torpaqlara bu gün gələn hər bir insan öz gözləri ilə erməni vəhşiliyini görür. Orada bir dənə salamat bina qalmayıb. Dünya birliyi bu müddət ərzində Azərbaycana lazımi səviyyədə dəstək göstərmədi. Bir sıra hallarda isə beynəlxalq təşkilatlar, xarici dövlətlər Ermənistanı müdafiə etməyə üstünlük verdilər, Bakını kompromisə dəvət etdilər.

İndi də ABŞ Dövlət Departamenti bir qrup Amerika ermənipərəst konqresmenləri tərəfindən irəli sürülən sanksiya tələbləri ilə Qərbin ikili siyasət oyununu nümayiş etdirərək Azərbaycana COP29 ərəfəsində təhdid və təzyiqlərlə təsir etmək istəyir. Digər tərəfdən, Beynəlxalq Frankofoniya Təşkilatında Ermənistan Fransanın dəstəyi ilə Azərbaycana qarşı müddəalarını yeritmək istəyir. Moskvada MDB ölkələrinin Xarici İşlər Nazirləri Şurasının görüşündə isə Ermənistan iki mühüm bəyanatı - "Avrasiyada təhlükəsizliyin təmin edilməsi prinsipləri" və "Beynəlxalq münasibətlərdə birtərəfli münasibətlərin yolverilməzliyi" bəyanatlarını imzalamır. Ermənistanın separatçı mövqeyi və sülhə dair hoqqabazlığı burada da özünü göstərir. Qarabağ üzrə aparılan danışıqlarda Azərbaycan Prezidenti heç vaxt suverenliyimizə xələl gətirəcək razılaşmaya "hə" demədi, düşmənə heç bir güzəştə getmədi və getməyəcək də. Çünki Prezidentin arxasında xalq durur. Elə Milli Məclisin bir qrup deputatının Azərbaycanın xarici işlər nazirinə müraciəti də bütövlükdə xalq və iqtidar iradəsinin ifadəsidir. Nə ABŞ-nin, nə Fransanın, nə də Ermənistanın revanşist münasibəti bizi öz yolumuzdan çəkindirə bilər.

## Dövləti və xalqı üçün tarixi şansa çevrilən LİDER



**Oktyabrın 15-də cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 21 il ötür. Ötən 21 illik zaman kəsiyinə diqqət etsək, bu dövrün ilmə-ilmə suveren, qüdrətli, qalib və inkişaf etmiş Azərbaycan toxuduğunun şahidi olarıq.**

Ümumiyyətlə, etiraf etməliyik ki, Azərbaycan nə ərazi ölçüsü, nə əhali sayına görə xüsusi göstəricilərə malikdir, əksinə, kiçik ölkə sayılır. Lakin məhz cənab İlham Əliyevin vizyonu sayəsində Azərbaycan müasir geosiyasi situasiyada nəinki bölgəmiz, bütövlükdə qlobal mənada hərbi-siyasi güc mərkəzlərindən birinə çevrilib.

Prezident İlham Əliyevin hakimiyyətə gəlişi istisnasız olaraq region üçün yeni eranın başlanması demək oldu. Bu il yanvarın 10-da yerli televiziyalara müsahibəsində və fevralın 14-də Milli Məclisdə baş tutmuş andiçmə mərasimindəki fenomenal yaddaşa və müstəsna dövlətçilik təcrübəsinə əsaslanan çıxışı ilə cənab İlham Əliyev yeni dövr üzrə prioritetlərimizi, o cümlədən daxili və xarici siyasət kursunun sərhədlərini aydın formada müəyyən edərkən 21 il əvvəl başlanan bu yolun əsl mahiyyətinə vara bildik. Bu mənada, əslində, cənab İlham Əliyevin əsrlərə sığa biləcək 21 ili nə qədər çoxşaxəli fəaliyyəti əhatələsə də, bir o qədər də aydın və korrektdir.

Nəzərə alsaq ki, bu titanik fəaliyyət öz təməlini 2003-cü ildən götürmür, bütövlükdə Ulu Öndər siyasi kursunun özü ilə bağlıdır. Bu mənada cənab İlham Əliyevin fəaliyyəti barədə 2003-cü ildən etibarən danışmaq insaflı yanaşma deyil. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Bakıda sovet rəhbərliyi ilə nüfuz alveri edilərkən cənab İlham Əliyev Moskvada Ulu Öndərlə birlikdə 20 Yanvar hadisələrinə görə sovet rejiminə qarşı açıq etiraz edən iki nəfərdən biri idi. Azərbaycan Xalq Cəbhəsi hərəkatı Qorbaçov yenidənqurmasını dəstəkləyən bir qüvvə kimi rəsmi qeydiyyata alındığı dövrdə İlham Əliyev sovet miqyasında, əslində, cəbhəçilərin ideoloqu olan Qorbaçovun rejiminə təhdid hesab edildiyi üçün işdən çıxarılmışdı. Ulu Öndər Moskvadan Azərbaycana qayıtdıqdan sonra məhz onun sayəsində hakimiyyət iyerarxiyasında yer tutmuş bir sıra şəxslər nankorluq edən zaman, parlamentdə Ulu Öndərə qarşı çirkab kampaniya nümayiş etdiriləndə, danışmağa imkan verməyəndə, Bakıda təhlükələrlə üzüzə qalanda, o cümlədən fəaliyyətinin ağır Naxçıvan dövründə onun əsas silahdaşı yenə İlham Əliyev idi. 1993-cü ildən etibarən isə Ümummilli Liderin neft strategiyası və Avropa hüquq məkanına inteqrasiya kursunun realizəsində ağırlıq məhz cənab İlham Əliyevin çiyinlərində oldu.

Sonrakı dövrdə möhtərəm prezidentin davam edən 21 illik fəaliyyəti son 200 ilin gündəliyindən daha zəngin, daha mürəkkəb, həm də tariximizin ən uğurlu periodudur. Cənab İlham Əliyev ilk növbədə dövlət və hüquq tariximiz üçün yeni bir səhifədir. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci maddəsinə əsasən, Prezident xalqın vahidliyini təcəssüm etdirir və dövlətçiliyin varisliyini təmin edir. Sovet Azərbaycanında Heydər Əliyevdən sonra, müstəqil Azərbaycanda isə Heydər Əliyevə qədər heç bir rəhbər dövlətçiliyin varisliyini təmin edə, xalqın vahidliyinin təcəssümü ola bilməmişdi. Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilk növbədə Heydər Əliyevin qurduğu Azərbaycanda dövlətçiliyin varisliyini təmin etdi.

Prezident İlham Əliyevin şah əsəri isə böyük Zəfərimizdir. Ümumiyyətlə, bəllidir ki, Qarabağ düyünü Ulu Öndərin nisgili idi. Baxmayaraq ki, böyük Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı. Əslində isə, Ulu Öndərin dediyi kimi, bu məsələyə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi və cənab İlham Əliyev də sübut etdi ki, xalq böyük qələbəyə həm qadirdir, həm də layiq! Sadəcə dövlət idarəçiliyi milli düşüncədə və doğru əldə olmalıdır.

Böyük hərbi-siyasi Zəfərə qədər cənab İlham Əliyev güclü iqtisadiyyat qurub, iqtisadi suverenliyimizi təmin etdi. Məcburi köçkünlərin 15 ildən artıq bir dövrdə kabusa dönən çadır şəhərciklərini ləğv edərək vətəndaşın layiqli rifahı, rəngli inqilablar simgəsi olan narıncı çadırlara meydan verməyərək müstəqilliyimizin davamlılığını təmin etdi, düşüncələri "palatka" təfəkküründən xilas edib, 200 ildir məğlub kimi yaşayan xalqa qalib kimi düşünməyi öyrətdi. Bu Zəfərə qədər Prezident İlham Əliyev həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu, çoxəsrlik dövlətçilik ənənəsinin əhəmiyyətini dərk edən vətənpərvər gənclik yetişdirdi. Cənab İlham Əliyev dünya ilə, xüsusən yanlış gözləntilərdə olan bəzi qlobal dairələrlə ideoloji savaşa girib, bu savaşdan da zəfərlə çıxaraq sübut etdi ki, Heydər Əliyev siyasi kursunun davam etdiyi bir şəraitdə Azərbaycan xalqı torpaqlarının zəbt olunması ilə barışa bilməz və bu siyasi xətt Azərbaycan gəncliyinə Qarabağ və Şərqi Zəngəzuru unutdurmağa imkan verməz. Məhz bu qətiyyətli mövqeni rəhbər tutmaqla, 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ölkənin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı. Zəfərdən cəmi 8 gün sonra özünün ən sadiq silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə işğaldan azad olunmuş bölgələrə səfər edən cənab İlham Əliyev tariximizin ən irihəcmli quruculuq-bərpa prosesinə start verdi.

Məhz möhtərəm Prezidentin enerji siyasətini Heydər Əliyevin neft strategiyası üzərində inşa edərək yeni mərhələyə ucaltmasının məntiqi nəticəsi olaraq Azərbaycan nefti bəzi ölkələrdə olduğu kimi lənət yox, inkişaf etmək və dünyada təsirli güc kimi tanınmağımız üçün milli sərvətə çevrildi. Eyni zamanda strateji əhəmiyyətinə görə tarix boyu maraqların toqquşma nöqtəsi olan və faydasından çox zərərini gördüyümüz coğrafiyanı ilk dəfə məhz İlham Əliyev milli kapitala çevirdi və elə geosiyasi konfiqurasiya formalaşdırdı ki, nə qədər ki, Heydər Əliyev siyasi kursunun davamlılığı təmin ediləcək, coğrafiyamız bizim üçün dividend gətirməkdə davam edəcək. Təbii ki, qlobal ziddiyyətlərin gücləndiyi bir şəraitdə rəqabətqabiliyyətli güclü dövlətə çevrilmək sadə məsələ deyil. Hazırda Azərbaycan özünün ənənəvi



enerji öhdəliklərinə sadiq qalmaqla, neft hasilatından tədricən qaz istehsalına strateji keçidi təmin etmək üzrədir. Məhz möhtərəm Prezidentin zamanında uzaqgörənliklə reallaşdırdığı infrastrukturlar, həmçinin onun iradəsi ilə reallaşan layihələr bu gün Azərbaycanı Avropa üçün alternativsiz və çox cazibədar enerji təchizatçısına çevirib. Bu gün faktiki olaraq Azərbaycan Avropanın, xüsusən Avropa İttifaqına üzv olan bir sıra dövlətlərin enerji təhlükəsizliyində tədricən həlledici rol almaqdadır, o cümlədən Balkanlarda və Şərqi Avropada artan rolu bu baxımdan Avropa İttifaqının ayrı-ayrı strukturlarının ölkəmizə qeyri-adekvat və ədalətsiz yanaşmaları fonunda Bakının ciddi qələbəsi hesab olunmalıdır. Elə bu fakt bizə deməyə əsas verir ki, əhali sayı və ərazi ölçüsü baxımından böyük potensialımızın olmamasını məhz cənab İlham Əliyevin vizyonu tam şəkildə nəinki kompensasiya edir, üstəlik, ərazi və əhali göstəriciləri bizdən qat-qat artıq olan dövlətlər qlobal nüfuz baxımından Azərbaycandan çox geri qalır.

Azərbaycanın uğurları, artan iqtisadi imkanları və bundan dolayı güclənən suverenliyi, müstəqil siyasət yürütməsi regionla bağlı qeyri-adekvat maraqları olan neoimperialist güclər tərəfindən müsbət qarşılana bilməzdi. Xüsusən Vətən müharibəsində Azərbaycanın Zəfəri, habelə antiterror tədbirlərində cənab İlham Əliyevin müstəsna qələbəsi, konstitusiya quruluşumuzun beynəlxalq hüquqla tanınan bütün ərazilərimiz boyu bərqərar olunması regionda qeyri-dost niyyətləri olan gücləri ölkəmizə qarşı səfərbər etdi. Bu prosesdə də ənənəvi destruktiv Qərb strukturları, muzdlu media və korrupsioner siyasətçilər beynəlxalq ictimaiyyət adından ölkəmiz əleyhinə müxtəlif bəhanələrlə siyasi hücumlar təşkil etməyə, bəyanatlar verməyə başlayıblar. Özünü beynəlxalq ictimaiyyət adlandıraraq dünya birliyi adından çıxış edənlərə münasibətdə möhtərəm Prezidentin mövqeyi kifayət qədər aydın oldu: "200-dən çox ölkə var, 20-30 ölkə özünü necə beynəlxalq ictimaiyyət saya bilər?" Bu qətiyyətli mövqe nəticəsində ötən 3 illik perioda baxsaq, cənab İlham Əliyevin qərəzli hücumların hamısını neytrallaşdırmağa, hətta kifayət qədər önəmli qlobal oyunçuları geri addım atmağa məcbur etməyə nail olduğunu görərik.

Xüsusən BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü və Qoşulmama Hərəkatının Sədri qismində cənab İlham Əliyevin uğurlu fəaliyyəti, onun bəşəri miqyasda lider kimi mövqelərinin möhkəmlənməsi Azərbaycanın qələbələrinin sağlam təməllər üzrə inşasını təmin etdi. Həqiqi dünya ictimaiyyəti gördü ki, pandemiya ilə mübarizədə qlobal səylərə məhz cənab İlham Əliyev liderlik etdi, eyni zamanda postpandemiya yol xəritəsinin cızılmasında o, həlledici liderlik missiyasını üzərinə götürdü. Digər tərəfdən, türk dünyasının birliyi istiqamətində açar rolunu üzərinə götürməklə cənab İlham Əliyev nəinki Azərbaycanın, bütövlükdə türk dünyasının qlobal miqyasda imkanlarını genişləndirmiş oldu. Bütün bunların nəticəsidir ki, lokal xarakterli antiterror tədbirlərinin ardınca Azərbaycana qarşı səf tutmuş güclər Azərbaycanın beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərə uyğun, suveren haqlarını bərpa etməsi faktına qəbullanaraq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsinə dəstək verdilər. Beləliklə, İlham Əliyev sübut etdi ki, beynəlxalq ictimaiyyətin Azərbaycana real baxışının göstəricisi hansısa muzdlu təşkilatın, 3-5 korrupsioner deputatın, yaxud çürümüş neoimperialistlərin bəyanatları yox, 200-ə yaxın ölkənin yekdil rəyi ilə dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un evsahibliyini Azərbaycana həvalə etməsidir.

Bu gün isə qarşımızda tamamilə yeni məqsədlər və vəzifələr var. İlham Əliyev parlamentdə tarixi çıxışında bəyan etmişdi ki, qarşıdakı dövr üzrə Azərbaycan bu gün ən yüksək səviyyədə təmin etdiyi təhlükəsizliyi və müdafiəsini daha da gücləndirmək naminə ordu quruculuğu və hərbi sənayenin inkişafı prosesinə xüsusi önəm verməkdə davam edəcək. Azərbaycan Respublikası konstitusion səviyyədə başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Lakin sirr deyil ki, bu gün özünü beynəlxalq ictimaiyyətin təmsilçisi kimi təqdim edən, lakin beynəlxalq hüquqa hörmətlə yanaşmayan subyektlər də daxil, bir çox dövlət üçün bu prinsip keçərli deyil. Xüsusən Vətən müharibəsində və antiterror tədbirlərində müstəsna qələbəmizin nəticəsi olaraq cənab İlham Əliyevin yaratdığı yeni reallıq fonunda biz bu güclərin riyakar mahiyyətinin üzə çıxdığının şahidi oluruq.

Prezident hərbi sənayenin inkişafına yalnız hərbi gücün artması yox, həm də suverenliyin elementi kimi yanaşır və əldə edilən strateji uğurların davamlılığında qətiyyətlidir. Azərbaycan hərbi sənayenin inkişafının birinci mərhələsini artıq uğurla başa vurub. Növbəti mərhələ isə daha genişmiqyaslı olmaqla, həm də Azərbaycanın bu istiqamətdə xarici asılılığının kəskin azaldılmasına yönələcək ki, bu da siyasi və iqtisadi müstəqilliyimizin ardınca müdafiə sənayesi sahəsində də suverenliyimizə töhfə olacaq. Cənab Prezidentin inaqurasiya mərasimindəki tarixi çıxışında qeyd etdiyi kimi, biz İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq. Məhz bu məqsədlə sərhədlərimizin təhlükəsizliyinin daha da gücləndirilməsi zərurətdir. Bu gün biz təhdid görməsək də, unutmamalıyıq ki, ideoloji risklər sərhəd tanımır. Bu mənada dövlət başçısı təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə və sərhədlərimizin möhkəmləndirilməsinə həm də ideoloji risklərdən qorunma imkanı kimi baxır və bu məsələ yeni dövrdə Azərbaycanın vacib prioritetlərindən olacaq. Ümumiyyətlə, cənab İlham Əliyev üçün ideoloji bütövlük və tamlıq azərbaycançılıq ideologiyası, ailə dəyərlərinin qorunması, gənc nəslin milli məfkurə və vətənpərvərlik ruhunda tərbiyə edilməsində ehtiva olunur. Bu mənada əminliklə demək olar ki, yeni epoxada ailə və məktəb tərbiyəsi istiqamətində dövlət siyasəti daha çevik və effektiv metodlarla realizə olunacaq. Yeni dövrdə milli prioritetlərimizdən digəri ümumbəşəri dəyərlərə və beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərə sadiq qalmaqla xarici siyasət kursunda 3 konkret istiqamətin müəyyən olunmasıdır. Birincisi, Azərbaycan artıq əvvəlki qaydalarla - ikili standartla formalaşan riyakar qlobal nizamın şərtləri ilə hesablaşmaq niyyətində deyil. Əlbəttə, bunun da kökündə cənab İlham Əliyevin Heydər Əliyev siyasi kursuna arxalanaraq nail olduğu ciddi hərbi-siyasi, sosial və iqtisadi uğurlar dayanır. Dövlət başçısının hər bir Azərbaycan vətəndaşının qəlbini qürurlandıran formada qətiyyətlə dediyi kimi, "Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!" Bu isə Bakıya özünün xarici siyasət kursunu daha rahat formada korreksiya etmək və yeni dövrün tələbinə uyğunlaşdırmaq imkanı verir. Məsələn, Azərbaycan artıq maskası yırtılmış beynəlxalq hüquq subyektlərinin riyakarlığına və ayırıcı xətlərdə ehtiva olunan selektiv siyasətinə dözmək niyyətində deyil. Bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransında cənab Prezident bu məqamı açıq formada bəyan etdi. Eyni zamanda andiçmə mərasimində də dövlət başçımızın qeyd etdiyi kimi, "Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik", lakin Bakı yeni dövrdə həmin ayırıcı xətləri keçmək üçün xüsusi cəhdlər niyyətində deyil. Ona görə də yeni dövrün memarı olaraq cənab İlham Əliyev beynəlxalq fəaliyyətdə prioritet olaraq türk dünyası ilə əlaqələri müəyyən edir.

Ötən 21 ildə xarici siyasət kursumuzun digər vacib konseptual elementi isə Azərbaycanın daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətində ehtiva olunur. Əvvəllər regional problemlər ucbatından daha çox lokal reallıqlara köklənməli olsaq da, məhz mövcud siyasi iradənin qətiyyəti ilə Azərbaycan artıq həmin dövrləri geridə qoyaraq özünü qlobal oyunçu kimi təsdiq edə bilib. Biz Ermənistanın timsalında hansısa üçüncü dünya dövləti ilə münasibətlərə vaxt ayırmaq yox, lider qlobal subyektlərdən biri kimi iqlim dəyişiklikləri, islamofobiyaya və neokolonializmə qarşı mübarizədə dünyanı narahat edən problemlərin həllində daha fəal olmağı planlaşdırırıq.

Eyni zamanda cənab İlham Əliyevin Ermənistanla münasibətlərə dair yol xəritəsi kifayət qədər aydındır. "Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək".

Nəticədə Azərbaycan qeyd edilən dövr ərzində sülh prosesində özünün direktivlərini oturda bildi və bu gün Bakı və İrəvan arasında məhz cənab İlham Əliyevin tezislərinə müvafiq olaraq sülh danışıqları delimitasiya və demarkasiya prosesindən ayrıldı. Nəticədə prosesin hər iki qolu istiqamətində ümidverici məqam yarandı. O cümlədən Azərbaycan Qazaxın 4 kəndini bir güllə atmadan geri aldı. Bundan başqa, cənab İlham Əliyev separatizmlə bağlı məsələdə də son nöqtəni qoydu. Novruz tonqalını Xankəndidə qalamaqla Prezident İlham Əliyev separatizmin son izini də təmizləmiş olduğunu bəyan etdi.

Yeni dövr üzrə müəyyənləşən hədəfləri və görülən işləri təhlil etdikdə isə əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev cəmi 21 il ərzində bu periodu yeni dövrə keçidi təmin edəcək mükəmməl siyasi mərhələyə çevirə bildi. Üstəlik, cənab İlham Əliyev elə konfiqurasiyaya nail ola bildi ki, hər bir Azərbaycan vətəndaşı özünü bu transformasiyanın bir hissəsi və hərəkətverici qüvvəsi hesab edə biləcək. Bu mənada dönüb ötən 21 ilə baxanda bir şeyə əmin oluruq, cənab İlham Əliyev bu dövlət və bu xalq üçün, sözün əsl mənasında, tarixi şansdır.

**Bəhruz MƏHƏRRƏMOV,**
***Milli Məclisin deputatı***



# MÖHTƏŞƏM 21 İL 2003 2024

# Özəl sektorun hamisi, sahibkarların güvənci



**Müstəqil Azərbaycanın tarixinə əlamətdar hadisə kimi daxil olan ictimai həyatın bütün sahələrində inkişafa yeni təkan verən 2003-cü ilin 15 oktyabr seçkiləri nəticə etibarilə cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən Heydər Əliyev siyasi kursunun davamlılığını şərtləndirən əsas amildir. 2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkilərində həlledici seçimə imza ataraq Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən çağırışına səs verməklə cənab İlham Əliyevə etimad göstərən Azərbaycan xalqı dövlətimizin bütün sahələrdə sonrakı inkişafına etibarlı zəmin yaratdı.**

Ulu Öndərin milli inkişafa zəmin yaradan ideyalarını rəhbər tutan və yeni dövrə uyğun zənginləşdirən Prezident İlham Əliyevin çoxşaxəli islahatlar strategiyası ölkəmizin möhtəşəm iqtisadi nailiyyətlərini təmin etməklə yanaşı, xalqımızın son iki əsrdə itirdiyi torpaqlarını ilk dəfə olaraq geri qaytarmasına, zəfərə qovuşmasına imkan yaratdı. 30 ildən çox bir müddətdə dünyanın ikili standartları, haqsızlıqları qarşısında müdafiə mövqeyi seçmək məcburiyyətində qalan Azərbaycan bu gün milli maraqlarını qətiyyətlə qoruyan, Cənubi Qafqaz regionunda sülh gündəliyini müəyyənləşdirən, səmərəli əməkdaşlıq təşəbbüsləri irəli sürən, ən əsası, qlobal güclərin təzyiq cəhdlərini qətiyyətlə dəf edən qüdrətli dövlət kimi tanınır.

Ötən illər ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafelərini özündə əks etdirməsi dövlət başçısı İlham Əliyevin yüksək bilik və intellektə, təcrübə və istedada, geniş dünyagörüşə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha nümayiş etdirdi. Ümumilikdə geridə qalan 21 il Azərbaycan dövlətinin yüksəlişi və öz hədəflərinə yetişməsi üçün formalaşdırdığı böyük potensialın bütün əzəməti ilə reallığa çevirdiyi əlamətdar mərhələdir. Müdrik xalqımızın 21 il öncə inanıb taleyini etibar etdiyi cənab İlham Əliyev həyata keçirdiyi qlobal layihələrlə Ümummilli Liderin zəngin dövlətçilik işində müəyyən olunmuş böyük amalları gerçəkləşdirən qüdrətli siyasi xadim olduğunu təsdiqlədi. Dövlət başçısının yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə əsaslanması bir sira strateji sahələrdə əldə olunmuş uğurlar fonunda aydın görünür.

Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müasir dövrdə hüquqi dövlətin inkişafının konstitusion islahat modeli uğurla həyata keçirilərək səmərəli islahatların nəticəsi kimi müasir hüquqi dövlətin hərtərəfli inkişafının və dövlət hakimiyyətinin xalqa mənsubluğunun Azərbaycan modeli formalaşmışdır. Hazırda Azərbaycan dövləti çoxəsrlik şanlı tarixinin ən parlaq inkişaf dövrünü yaşadığını qürurla söyləyə bilərik. Bu gün dünya dövlətləri arasında ləyaqətlə ucalaraq sahibləndiyimiz mövqe hər bir azərbaycanlının qürur mənbəyidir.

Qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin uğurla gerçəkləşdirilməsi, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artırılması, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin yüksəldilməsi, regionların tarazlı və davamlı inkişafı, yeni istehsalat müəssisələrinin açılması, işsizlik probleminin, yoxsulluğun tədricən aradan qaldırılması, əhalinin sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi məsələləri son 21 ildə dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərini təşkil etmişdir. Bu müddətdə ölkə iqtisadiyyatı 3, dövlət büdcəsinin həcmi 20, strateji valyuta ehtiyatlarının həcmi 30 dəfədən çox artmışdır. Ötən 21 ildə həmçinin sahibkarlıq subyektlərinin sayı 3 dəfədən çox artmış, özəl bölmənin ümumi daxili məhsulda payı 83, məşğulluqda payı isə 78 faizdən artıq olmuşdur. Təkcə cari ilin 8 ayında ölkədə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal edilmiş, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər 7,0 faiz artmış, əhalinin hər nəfərinə düşən ÜDM təxminən 8 min manata bərabər olmuşdur. Bu dövrdə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən ölkədə 42,4 milyard manatlıq sənaye məhsulları istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə məhsul istehsalı qeyri-neft-qaz sektorunda 7,8 faiz artmışdır.

Bu gün yaşadığımız və qürur duyduğumuz Azərbaycanın inkişaf strategiyasının təkmilləşdirilməsinin 2003-cü ildən başladığını desək, heç də yanılmarıq. Hələ 2003-cü ildə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev artıq həllini tapmış Qarabağ problemi ilə bağlı demişdi: "Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir".

Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevin söylədiyi həmin sözlərin öz təsdiqini tapmasının tarixi təntənəsini yaşayır. Cənab İlham Əliyev ilk gündən necə demişdisə, elə də etdi, nə demişdisə o da oldu. Prezident ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesində Azərbaycanın milli maraqlarının əleyhinə olan kiçicik bir təşəbbüsü və ya təklifi belə yaxına buraxmadı. Eyni zamanda Prezident bütün görüşlərdə, bütün tədbirlərdə qətiyyətlə bəyan etdi ki, Azərbaycan dövləti öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək və nəyin bahasına olursa-olsun öz torpaqlarını işğaldan azad edəcəkdir. Bunun üçün Prezident İlham Əliyev mütərəqqi hərbi islahatlar həyata keçirdi, ordumuzun döyüş imkanlarını modern səviyyəyə yüksəltdi. Və nəhayət, işğalçı Ermənistanın 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribata cavab olaraq Azərbaycan Ordusu Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə özünün tarixi və şərəfli missiyasının icrasına başladı. Bu müharibə dövlətimizin gücünün, xalqımızın milli iradəsinin və həmrəyliyinin təntəsinə çevrilərək torpaqlarımızın işğaldan azad olunması, pozulmuş ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. 44 günlük savaşda Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu yalnız 30 illik müasir müstəqillik tariximizin deyil, son bir neçə əsrlik tariximizin ən şərəfli səhifəsini yazdı. Azərbaycan tarixinin ən böyük sərkərdəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin eyni zamanda bir neçə müstəvidə fədakarcasına apardığı mübarizə, xalqımızın Ali Baş Komandanın ətrafında "dəmir yumruq" kimi birləşməsi, Silahlı Qüvvələrimizin hərbi taktiki və strateji üstünlüyü, hərbçilərimizin yenilməz döyüş ruhu bu müharibədə Ermənistan üzərində parlaq Qələbəni təmin etdi. Bu Böyük Zəfər bütün dünyaya nümayiş etdirdi ki, xalqının dəstəyinə arxalanan, xalqın sonsuz inamından ilhamlanan sərkərdənin rəhbərlik etdiyi dövlət böyük güclərin müqavimətinə baxmayaraq, öz suverenliyini bərpa etməyə qadirdir.

Azərbaycan əsgərinin yenilməzliyi qarşısında döyüş meydanından qaçmaqdan başqa çarəsi qalmayan erməni separatizminin aldığı zərbə Azərbaycan dövlətinin, şəxsən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq nüfuzunun növbəti göstəricisi oldu. Həm hərb meydanında, həm diplomatiya müstəvisində qazanılan bu möhtəşəm və əzəmətli Qələbənin bir adı vardır - İlham Əliyev! Çünki gələcəyə hesablanmış və zərgər dəqiqliyi ilə ölçülmüş strateji qərarları ilə bu qələbəni mümkün edən, ardıcıl, məqsədyönlü və fədakar fəaliyyəti ilə onun gerçəkləşməsini günbəgün yaxınlaşdıran, bu qələbənin altından imzasını atmaqla hər bir azərbaycanlının qəlbində özünə əbədi sevgi və ehtiram məşəlini alovlandıran məhz Prezidentimizdir!

Son illər Azərbaycanda bütün addımlar postmüharibə dövrünün yeni reallıqlarına uyğun atılır. Vətən müharibəsindəki böyük Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi, yenidənqurma, tikinti-quruculuq işlərinin başlanması qarşıda duran ən prioritet məsələlərdir. Odur ki, hazırda Azərbaycan dövləti tərəfindən işğaldan azad olunmuş torpaqların sürətli bərpası istiqamətində böyük işlər görülür. İnsanların tezliklə öz yurd-yuvalarına qayıtması, bu torpaqlarda sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanması üçün mühüm tədbirlər həyata keçirilir. Prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfər edir, həyata keçirilən layihələrlə şəxsən tanış olur, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışına qatılır.

İstisnasız olaraq bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı məhz sağlam əqidəli, xalqa, dövlətə təmənnasız xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlıdır. Belə insanlar qısa zamanda cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilir, üzərlərinə düşən sosial məsuliyyəti düzgün dəyərləndirir, xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar. Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sıralarda dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır. Hərbi qulluqçuların təminatı, sağlamlıqlarının mühafizəsi, yaralıların müalicəsi, Şuşada və digər bölgələrimizdə qədim mədəniyyətimizə və tarixi irsimizə aid abidələrin bərpa olunması, mülki vətəndaşların düşmən zərbələrindən qorunması və bu kimi onlarca digər məsələni xüsusi diqqət mərkəzində saxlayan Birinci vitse-prezidentin verdiyi tapşırıqlar və bu istiqamətdə gördüyü işlər böyük Zəfərin əldə olunması üçün son dərəcə əhəmiyyətlidir.

Cari ilin sentyabr ayında Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş iqtisadi məsələlərə həsr olunan müşavirədə dövlətimizin başçısı demişdir: "İlk növbədə ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası, həm sosial infrastrukturla bağlı olan layihələr, həm də ümumi infrastrukturla bağlı olan layihələr - bütün bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapacaqdır".

Dövlət başçısı həmçinin işğaldan azad olunmuş ərazilərə səfəri zamanı öz çıxışlarında iş adamlarına müraciət edərək onları bu ərazilərə sərmayə qoymağa çağırır. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Prezidentin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə böyük töhfə verəcəkdir.

İkinci Qarabağ müharibəsindən sonra ölkə rəhbərliyi tərəfindən beynəlxalq təşkilatların və dövlət rəsmilərinin iştirakı ilə Ermənistanın baş naziri ilə görüşlərdə dəfələrlə Azərbaycanın mövqeyinin sülh sazişinin imzalanması olduğu qeyd edilmiş, əli azərbaycanlıların qanına batmamış erməni-əsilli vətəndaşların Azərbaycan cəmiyyətinə reinteqrasiya olunmasının vacibliyi, onların hüquq və azadlıqlarının Azərbaycanda yaşayan digər milli azlıqlar kimi Azərbaycan Konstitusiyasına uyğun qorunacağı, ölkədə yaşayan bütün insanlar kimi onların da sosial vəziyyətinin yaxşılaşdırılması, infrastrukturun yenilənməsi, yeni iş yerlərinin yaradılması kimi sosial tədbirlərin həyata keçiriləcəyi vurğulanmışdır. Lakin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmadı. Nəticədə silahlı qüvvələrimiz ermənilərin təxribatçı və təhrikçi əməllərinin qarşısının alınması üçün keçən il sentyabrın 19-da lokal xarakterli antiterror tədbirlərinə başlamalı oldu. Çox təəssüf ki, bu hadisənin birilliyi ərəfəsində ölkəmizə qarşı qərəzli mövqedə olan ABŞ-nin ermənipərəst konqresmeni Adam Şiff Ermənistandakı revanşistlərə maliyyə yardımının ayrılması ilə bağlı təşəbbüslərlə çıxış edib. Bu fakt Azərbaycan hökuməti və ölkəmizin vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən hiddətlə qarşılanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl şəhərində sakinlərlə görüşü zamanı bu barədə demişdir: "Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır".

ABŞ Konqresində Ermənistandakı revanşistlərə maliyyə yardımı ayrılması barədə təşəbbüsləri Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və üzvləri tərəfindən də hiddətlə qarşılanıb. Azərbaycan Sahibkarlar Konfederasiyasının üzvləri "2024-cü il Artsax gəlirlərinin bərpası haqqında Akt" adlı bədnam qanun layihəsinin müəllifi olan ABŞ konqresmeni Adam Şiffin ölkəmizə qarşı qərəzli mövqedə olduğunu bildiriblər. ASK üzvləri bəyan ediblər ki, tələsik hazırlanmış bu qanun layihəsi ayrıseçkilik xarakteri daşıyır, birtərəfli və konteksdən çıxarılmış məlumatlara söykənir ki, bu da bir qrup insanların acı taleyinə və iztirablarına tamamilə məhəl qoyulmaması və digər qrupa üstünlük verilməsi deməkdir. Əgər bu təşəbbüs dəstəklənərsə, belə bir sənəd insan hüquqlarının və beynəlxalq hüququn pozulmasına səbəb olacaq ki, bu da qeyri-sabitliyə, insanların iztirab çəkməsinə, habelə ABŞ-nin regional roluna xələl gətirəcəkdir.

Bütün bunun fonunda Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycan öz milli maraqlarını qətiyyətlə təmin edib. Yerində sayan və geri gedən isə Ermənistandır. Bu baxımdan sülhə daha çox ehtiyacı olan da Ermənistandır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin irəli sürdüyü təkliflər isə sülhün yeganə təminatıdır.

İyirmi ildən bir az artıq müddətində görülən işlər və nəticələr bu gün deməyə əsas verir ki, Azərbaycan dünyaya özünün uğurlu inkişaf modelini təqdim edə bilmiş və qısa zaman kəsiyində ölkəmizdə, sözün əsl mənasında, inqilabi yeniləşmə və tərəqqiyə nail olunmuşdur. Azərbaycan Respublikasının vətəndaşları olaraq sahibkarlar da dövlətimizin, xalqımızın təəssübünü çəkir, onun hər uğuruna, nailiyyətinə ürəkdən sevinirlər.

Müasir dünyamızın ən parlaq siyasi liderlərindən olan cənab İlham Əliyev xalqımızın mütləq səsi ilə növbəti dəfə 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu ilin fevral ayında keçirilmiş növbədənkənar prezident seçkilərində Azərbaycan sahibkarları öz seçimini etmiş və seçkilərdə birmənalı olaraq cənab İlham Əliyevə səs vermişlər. Çünki keçən 20 il sübut etdi ki, İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqla, Azərbaycan sahibkarlarının sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lideri kimi tanıdığı, etimad və etibar ünvanı saydığı rəhbərdir.

Prezident seçkiləri başa çatdıqdan sonra cənab İlham Əliyev andiçmə mərasimindəki çıxışında ölkəmizdəki biznes mühiti barədə demişdir: "Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün, əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir". Bütün bunlar ölkəmizdə sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin bariz nümunəsidir.

Sahibkarlar aydın dərk edirlər ki, İlham Əliyevə səs verməklə onlar özlərinin sabahına, sahibkarlığın inkişafına səs verirlər. Ona görə də onlar prezident seçkilərinə böyük həvəslə gəlmiş, fəallıq və mütəşəkkillik nümayiş etdirmişlər. Ölkənin siyasi həyatında fəal iştirak etmək, taleyüklü məsələlərin həll olunduğu məqamlarda ayıqlıq və çeviklik göstərmək Azərbaycan sahibkarlarına xas olan xüsusiyyətlərdir.

Ölkədə həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətlənməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun güclənməsinə, bu istiqamətdə dövlət gayğısının artırılmasına və ən əsası, mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər mühüm əhəmiyyətli addımlar atılmışdır. Paralel olaraq elmin son nailiyyətlərinə, texnika və texnologiyanın fasiləsiz yeniləşməsinə, innovasiya menecmentinin və marketinqinin tətbiqinə, sahibkarların innovasiya və risk qabiliyyətlərinin tam reallaşdırılmasına, mülkiyyətin dövlətsizləşdirilməsinə, əsl iqtisadi yarış imkanlarını verən mühitin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Son illər ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış fərman və sərəncamlar sahibkarlara dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini bir daha sübut edir. 2024-cü ildə də sahibkarlığın maliyyə təminatı yaxşılaşmış, güzəştli kreditlərin həcmi artmış, sahibkarlara maliyyə dəstəyi çərçivəsində bu ilin 7 ayı ərzində 3252 layihənin maliyyələşməsinə 119 milyon manatdan çox güzəştli kredit verilmiş, bununla da 1764 yeni iş yerinin yaradılmasına zəmin yaranmışdır.

Artıq Azərbaycan Respublikası ikitərəfli və çoxtərəfli münasibətlərdə etibarlı tərəfdaş, beynəlxalq təhlükəsizlik və enerji sektorunda mühüm söz sahibi, dünyada etnik-dini tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınır və qəbul edilir. Dövlət başçısı İlham Əliyevin uğurla reallaşdırdığı inkişaf strategiyası nəticəsində Azərbaycanın inkişaf etmiş ölkələr sırasına çıxarılması və əhalimizin yüksəkgəlirli topluma çevrilməsi, qeyri-neft sektorunun, özəl bölmənin, sahibkarlığın hərtərəfli inkişafı sayəsində ümumi daxili məhsulun artırılması, dövlət və özəl qurumların birgə fəaliyyəti üzrə yeni strategiyanın hazırlanması, ən müasir texnologiyaları tətbiq etməklə iqtisadiyyatın modernləşdirilməsi, elm və innovasiyalara əsaslanan cəmiyyət quruculuğu, hüquqi dövlətçilik prinsiplərinin, insan hüquq və azadlıqlarının tam bərqərar edilməsi - Prezident İlham Əliyevin qarşıya qoyduğu başlıca hədəflərdir.

Azərbaycanda ardıcıl və dinamik inkişafı, rəqabətədavamlı iqtisadiyyatı təmin edən islahatlar nüfuzlu iqtisadi qurumlar və reytinq agentlikləri, o cümlədən beynəlxalq birlik tərəfindən ciddi təhlil edilir və yüksək qiymətləndirilir. Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2024-cü ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə, yuxarı sıralarda yer almışdır. Belə ki, "Fitch Ratings" beynəlxalq kredit reytinqi agentliyi Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqini stabil proqnozla "BB+"dan "BBB-"yə yüksəldib ki, bu göstərici Azərbaycanın iqtisadi dayanıqlığını və güclü xarici iqtisadi tarazlığını vurğulayır, investisiya və iqtisadi artım üçün perspektivli gələcəyə işarə edir.

Başa vurmaqda olduğumuz il də sosialyönümlü büdcə siyasəti, əhalinin maddi rifah halının yaxşılaşması, neft gəlirlərini qeyri-neft sektoruna yönəltməklə və modern texnologiyalara əsaslanmaqla yeni və qabaqcıl sənaye sahələrinin yaradılması, iqtisadi və sosial infrastrukturun, yol-nəqliyyat sektorunun davamlı inkişafı, eyni zamanda dövlətimizin hərbi qüdrətinin yüksəldilməsi ilə əlamətdardır. Ölkə rəhbərliyi səviyyəsində qəbul olunan və ictimai-siyasi, sosial-iqtisadi, humanitar-mədəni həyatın çoxşaxəli spektrini əhatə edən çoxsaylı konseptual-strateji mahiyyətli sənəd və dövlət proqramları hazırda icra edilməkdədir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası bu işdə fəallıq göstərərək, sahibkarlara kömək etmək məqsədilə ayrıca tədbirlər planı işlənib hazırlanmış və hazırda onun həyata keçirilməsi sahəsində mühüm işlər həyata keçirilir. Konfederasiya sosial tərəfdaşlığın subyekti kimi Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə ölkənin sosial-iqtisadi siyasəti və sosial-əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş bağlayır. Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir. Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Sahibkarlığın inkişafının ən vacib komponentlərindən biri də sahibkarların maarifləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, konsaltinq xidmətlərinin göstərilməsidir. Bu məqsədlə cari ildə İqtisadiyyat Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun dəstəyi ilə çoxsaylı tədbir - forum, sərgi, seminar və s. keçirilmişdir. Məsələn, bu günlər Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı və Azərbaycan Sahibkarlar Konfederasiyasının dəstəyi ilə ilk dəfə olaraq Azərbaycan Halal Biznes və Turizm Forumu baş tutmuşdur. Dünyanın müxtəlif regionlarından olmaqla, 20-yə yaxın ölkədən rəsmi şəxslərin, mütəxəssislərin, akademik dairələrin, beynəlxalq təşkilatların nümayəndələri və iş adamlarının iştirak edəcəkləri forumun məqsədi Azərbaycan məhsullarının ixrac imkanları üçün halal bazarların cəlbediciliyinə, investisiya və ticarət sahəsində yeni əməkdaşlıqların qurulmasına, müvafiq sahədə fikir və təcrübə mübadiləsinə töhfə vermək, Azərbaycana xarici sərmayələrin cəlb edilməsini təşviq etməkdən ibarət idi. İki gün davam edən forumda halal sənayenin inkişaf perspektivləri, bu sahədə standartlar, sektora investisiya qoyuluşu və əməkdaşlıq imkanları müzakirə edildi.

Hazırda Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması və ixrac potensialının artırılması məsələlərinə daha çox diqqət yetirilir. Bu məqsədlə xaricdəki səfirliklərimiz, xarici dövlətlərin və beynəlxalq təşkilatların ölkəmizdə fəaliyyət göstərən diplomatik nümayəndəlikləri ilə geniş iş aparılır.

*2003-cü ildə Azərbaycan xalqı cənab İlham Əliyevi birmənalı şəkildə dəstəkləməklə öz gələcəyinə səs verdi. Həmin seçkilərdə xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq Azərbaycan Prezidenti seçilən cənab İlham Əliyev oktyabrın 31-də vətənə və xalqa sədaqət andı içdi. Bununla da müstəqil Azərbaycan dövlətçiliyinin tarixində qətiyyətli bir Prezidentlə yeni dövr başladı. Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir.*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***



# MÖHTƏŞƏM 21 İL 2003 2024

# Sözün, andın reallığa çevrildiyi gün



**15 oktyabr 2003-cü il Azərbaycan xalqının tarixində və taleyində mühüm yer tutur. 15 oktyabr 2023-cü il tarixinə - Xankəndidə Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasının və suverenliyinin təmin olunmasının rəmzi olan üçrəngli Azərbaycan bayrağının ucaldılmasına qədər uzanan 20 illik bir mərhələ tariximizə İlham Əliyev erası kimi daxil olmuşdur.  Prezident İlham Əliyevin siyasi portretinin, onun fərdi obrazının əlamətdar ştrixlərinin əks olunduğu bu mərhələdə müstəqillik dövrünün taleyüklü məsələlərinin həllinə doğru qətiyyətli addımlar atıldı, gələcəyə strateji baxış formalaşdırıldı.**

15 oktyabr 2003-cü ildə Ulu Öndərin siyasi kursunun davamçısı kimi dövlət rəhbəri seçilən İlham Əliyev estafeti iki əsrin və minilliyin qovşağında qəbul etdi. Onun üçün ənənə və siyasi varislik möhkəm təməl, çoxvektorlu inkişaf, müasirləşdirmə və modernləşdirmə isə ali məqsəd idi. İlham Əliyev ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq yeni tipli siyasi lider olaraq siyasi arenaya atıldı. Onun qarşısında yüksək fəaliyyət perspektivləri, yeni siyasi-iqtisadi, mənəvi-ideoloji üfüqlər açılmışdı. Prezident İlham Əliyevin siyasi düşüncəsinin, təfəkkürünün mənbəyində millilik, vətən və xalq təəssübkeşliyi, Şərqin müsbət ənənələri, türk mənəvi-əxlaqi dəyərləri dayansa da, həm də Qərb və Avropa modellərinə münasib intellekt möhkəm yer tuturdu. Məhz buna görədir ki, bu gün dünya siyasi arenasında baş verən hadisələri düzgün təhlil edərək müasir dövrün Lideri kimi çevik reaksiya verə, bütün kənar təsir və təzyiqləri soyuq məntiqlə neytrallaşdıra bilir.

Prezident İlham Əliyevin 31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimindəki çıxışına nəzər salanda 20 il sonra onun verdiyi bütün vədləri yerinə yetirdiyinin şahidi oluruq.  Ona görə də 15 oktyabr tarixi sözün, andın reallığa çevrildiyi gündür.

Qətiyyətli siyasi iradə, dünyanın ictimai-siyasi gedişatını dərindən təhlil edərək vaxtında ölkə üçün taleyüklü qərarları qəbul etmək, müəyyənləşdirilən strategiyanı  dönmədən həyata keçirmək istedadı, cəsarət və ədalətlilik - bütün bu xüsusiyyətlər bu vəzifələri yerinə yetirməkdə ona kömək etmişdir. **"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm"** deyən dövlət başçısının 20 ildə etdikləri sadəcə bir "Azərbaycan möcüzəsidir".

Xalqın milli lideri kimi o, ilk növbədə tariximizdən bizə miras qalan qanlı günləri, matəmləri, illərdir həllini tapmayan problemləri həll edib yeni dövlət, yeni milli kimlik və yeni təqvimin əsasını qoydu. Azərbaycanı sürətlə inkişaf etdirərək, onu bölgənin lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevirdi. Ölkəmizin adını XXI əsrdə ərazi bütövlüyünü bərpa etmiş yeganə dövlət olaraq tarixə yazdırdı. Təkcə torpaqlarımızı, suverenliyimizi deyil, itirilmiş nüfuzumuzu, etibarımızı, ləyaqətimizi və birliyimizi də özümüzə qaytardı.

Andiçmə mərasimində strateji hədəflərini bəyan edən dövlət başçısının 21 il ərzində yürütdüyü uğurlu xarici siyasət nəticəsində Azərbaycan bu gün dünyanın aparıcı, sözünü diktə edən ölkələrindən birinə çevrilib. Ümumilikdə indiyə kimi ölkəmiz 19 ölkə ilə strateji tərəfdaşlıq və 3 ölkə ilə müttəfiqlik sazişlərinə imza atıb. Dövlət başçısının uzaqgörən xarici siyasət kursu nəticəsində Azərbaycan Respublikasının xaricdə diplomatik missiyalarının ümumi sayı 89-a, xarici diplomatik missiyalarının ölkəmizdəki ümumi sayı 65-ə çatıb.

Azərbaycan 2003-2023-cü illərdə bir sıra mötəbər beynəlxalq təşkilatların üzvü olub və ya onlara sədrlik edib. Xüsusilə Vətən müharibəsindən sonra Türkiyə və türk dövlətləri ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində siyasi-iqtisadi və mədəni münasibətlər daha da intensivləşib. Ölkəmiz müstəqil siyasət həyata keçirərək heç bir hərbi bloka qoşulmayıb. Hətta 2011-ci ildə bloklara Qoşulmama Hərəkatına üzv olaraq hərbi bloklara qoşulmaqla bağlı aparılan müzakirələrə son qoyub. Göstərilən etimad əsasında Azərbaycan iki dövr üzrə Qoşulmama Hərəkatına uğurla sədrlik edib. Proaktiv xarici siyasətin digər bir nəticəsi Azərbaycanın BMT Təhlükəsizlik Şurasının (TŞ) qeyri-daimi üzvü seçilməsi olub.

"İqtisadi olaraq müstəqil olmayan dövlət siyasi olaraq müstəqil ola bilməz" prinsipini əsas götürən dövlət başçısı enerji layihələrindən əldə olunan gəlirləri Azərbaycanın müstəqil siyasət həyata keçirməsinə yönəldib.

Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın ümumi daxili məhsulu real ifadədə 3,6 dəfə artıb. Ölkəmiz məhz İlham Əliyev dövründə beynəlxalq valyuta təşkilatlarına olan borclarını azaldaraq borc alan dövlətdən borc verən dövlətə çevrilib. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçib. Bu dövr ərzində sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılıb.

Ölkəmiz regional layihələri heç bir beynəlxalq təşkilatın dəstəyi olmadan, hətta bəzi xarici qüvvələrin mane olmasına baxmayaraq həyata keçirib. Enerji və nəqliyyat sahələrində həyata keçirilən xarici siyasət Azərbaycanın strateji dəyərini artırıb.

Dənizlərə çıxışı olmayan 37 dövlətdən biri olan Azərbaycan şərq-qərb və şimal-cənub arasında körpü rolu oynama imkanına sahib bir ölkəyə çevrilib. Belə ki, məhz İlham Əliyev dövründə həyata keçirilən nəqliyyat siyasəti bu mənada Azərbaycanı dənizlərə çıxışı olmayan dövlətdən tranzit ölkəyə çevirib.

Prezident seçildiyi gündən etibarən İlham Əliyev iqtisadiyyatın şaxələndirilməsini milli iqtisadiyyat qarşısında əsas çağırış olaraq qoyub və bu istiqamətdə görülən işlər nəticəsində ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə artıb.

Ölkəmiz bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri uğurla fəaliyyət göstərir.

2026-cı və 2028-ci illərdə daha iki peyk orbitə buraxılacaq. Bu yaxınlarda Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi kosmik sənaye, müasir texnologiya və innovasiya sahələrində böyük uğurları olan ölkəmizin dünya miqyasında artan nüfuzunun göstəricisidir.

Prezidentin 20 illik fəaliyyəti dövründə Azərbaycan vətəndaşının problemləri, qayğıları həmişə diqqət mərkəzində olub. Xüsusilə vətənpərvər gənclərin yetişdirilməsi, rəqabətqabiliyyətli insan kapitalının formalaşması və yüksəkixtisaslı kadrların hazırlanması diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə son 20 ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclər 19 dəfə artıb. Səhiyyə sahəsinin inkişafı istiqamətində bir sıra islahatlar həyata keçirilib. 2003-2023-cü illərdə dövlət büdcəsindən səhiyyəyə ayrılan xərclər 33 dəfə artıb. 2019-cu ildən ölkədə geniş tətbiqinə başlanılan icbari tibbi sığorta bu gün xidmətlər zərfinə daxil olan 3300-dən artıq tibbi xidmət sayı ilə bütün ölkə əhalisini əhatə edir.

Hazırda Prezident İlham Əliyev Azərbaycanın "yaşıl enerji" ölkəsi statusunun dünya miqyasında möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparır. Artıq bu sahədə potensialın miqyası müəyyənləşib, böyük investisiyalar cəlb olunur, ixracat bazarı olaraq Avropa İttifaqı ilə anlaşma imzalanıb. Bütün bu layihələrin həyata keçirilməsinin, investisiyaların yatırılmasının, ən əsası noyabr ayında COP29 tədbirinin keçirilməsinin ən əsas özəlliyi Azərbaycanın hadisələri qabaqcadan görməsi və çağırışlara çevik reaksiya verməsidir.

Bu qeyd olunanlar 20 illik dövrdə əldə edilmiş uğurların kiçik bir hissəsidir. Bu gün Azərbaycan xalqı öz tarixinin ən şərəfli və qürurverici dövrünü yaşayır.

Dövlət başçısının dövlət və xalq qarşısında ən böyük xidməti qələbə və qalib dövlət anlayışını dəyişməz bir reallıq olaraq xalqımızın şüuruna, kimliyinə və tarixinə həkk etdirməsidir. Bu gün fəxr hissi ilə deyə bilirik ki, biz qalib xalqın nümayəndələri, qalib dövlətin vətəndaşlarıyıq. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər və birgünlük lokal xarakterli antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük qayıdışa açmışdır. Bu tarixi hadisələrin əhəmiyyəti milli inkişafımızın yeni bir mərhələsinin başlanması ilə əlamətdardır. Bu qələbə sayəsində regionda yeni reallıqlar yaranıb.

İlham Əliyev həm də qurucu liderdir. Qələbədən sonrakı dörd il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə şəxsən özü nəzarət edir. Həmin əraziləri qarış-qarış gəzir, bərpa-quruculuq prosesinin gedişatı ilə maraqlanır, açılışlar edir, tapşırıqlar verir.

Beləliklə, 2003-cü ilin oktyabrında Prezident İlham Əliyev ali kürsüyə çıxdığı ilk gündən bəyan etmişdi ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün var gücü ilə çalışacaq. O, dediyi sözə, verdiyi vədə sadiq qalaraq ölkəmizi dünyanın ən güclü dövlətlərindən birinə çevirdi. Tarix sübut etdi ki, İlham Əliyev XXI əsrdə zamanın məzmunu, sürəti, enerjisi və miqyası səviyyəsində siyasi liderdir. O, heç vaxt real olmayanı demir. Güclü, cəsarətli, ədalətli və müdrikdir.

Güclüdür, ona görə ki, Xalq-Ordu-Lider tandemi ilə 30 ilə yaxın davam edən bir münaqişəni bütün təzyiqlərə rəğmən həll etdi. Tarixi ədaləti bərpa etdi. BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini xalqımız və ordumuz məhz İlham Əliyevin rəhbərliyi ilə özü icra etdi.

Cəsarətlidir, ona görə ki, erməni lobbisinin maliyyə dəstəyi ilə "bəslənən" ABŞ konqresmenlərinin,  avroparlamentarilərin COP29 qabağı hər cür təzyiq və təsirlərinə qalib xalqın qalib Lideri kimi mərdliklə sinə gərir, "Heç kim bizim iradəmizə təsir edə bilməz! Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz! Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik" deyir. Bunun davamı olaraq Prezident İlham Əliyev "Rossiya-1" telekanalına müsahibəsində ABŞ-nin Azərbaycana qarşı sanksiyalar siyasətini tənqid edib. Dövlət başçısı 1992-ci ildə Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu bir vaxtda ölkəmizin Ermənistanı blokadada saxlaması barədə qondarma ittihamla Azərbaycana qarşı sanksiyaların tətbiq edildiyini diqqətə çatdırıb. Ölkə rəhbəri vurğulayıb ki, bu sanksiyalar 2001-ci ildə ABŞ-nin öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit yolla daşımalı olduğu vaxt aradan qaldırılıb: "Partiya mənsubiyyətindən asılı olmayaraq, Birləşmiş Ştatların Prezidenti ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyaları öz qərarı ilə ləğv edirdi. Bundan sonra bizə qarşı həmin sanksiyalar tətbiq olundu. Mən onları nankorluqda ittiham edəndə hesab edirəm ki, bu, həmin kontekstdə istifadə olunacaq ən sərt söz deyil".

Ədalət tərəfdarıdır, ona görə ki, siyasi, iqtisadi, mədəni hüquqları tapdanan, XXI əsrdə hələ də müstəmləkə şəraitində yaşayan ölkələrin, xalqların yanındadır. Azərbaycan bu gün Fransa müstəmləkəçiliyindən əziyyət çəkənlərə dostluq əlini uzadır, onlara kömək edir. Bunun üçün Bakı Təşəbbüs Qrupu yaradılıb. Onların birinci qurultayı keçirilib, Bakıda keçiriləcək COP29 sammitinə  dəvət edilib. Azərbaycan onların dünyada haqq səsinə çevrilib.

Nəhayət, müdrikdir, ona görə ki, zamanı qabaqlamağı bacarır, gələcək hədəfləri Lider uzaqgörənliyi ilə müəyyənləşdirir. Prezident bu il fevralın 7-də qədirbilən xalqımızın böyük dəstəyi ilə yenidən ölkə rəhbəri seçilməsindən sonra etdiyi çıxışında artıq 20 illik bir mərhələnin sona çatdığını, yeni mərhələyə qədəm qoyduğumuzu, dövlətimizin, xalqımızın qarşısında  yeni çağırışlar və hədəflər dayandığını qeyd edib. Əslində, bu yeni mərhələnin əsasını Vətən müharibəsində və sonrakı dövrdə  qazandığımız qələbələr qoymuşdur.

Yeni dövrün yeni hədəflərindən biri də Qərbi Azərbaycana qayıdışdır. Yəni necə ki vaxtilə bütün Azərbaycan və dünya azərbaycanlıları qarabağlı olub Qarabağ uğrunda mübarizə aparırdılarsa, indi də hər birimiz qərbi azərbaycanlı olub bu tarixi missiyanın gerçəkləşməsində iştirak etməliyik. Prezident İlham Əliyev Aşıq Ələsgərin abidəsinin açılışında xalqımızı bu amal ətrafında birləşməyə çağırıb: "Bu gün qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq eyni zamanda bu abidə bütün qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək, biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik".

Heç şübhəsiz, Xalq-Lider tandemi, iradəsi və əyilməz ruhu buna qadirdir. Bu ali məqsədə çatmaq üçün daha neçə il mübarizə aparmağa və gözləməyə dəyər!

*Araz XUDADANOV,*
*Yeni Azərbaycan Partiyası*
*Sabunçu rayon təşkilatının sədri*



# MÖHTƏŞƏM 21 İL 2003 2024

# Tarixin ən qüdrətli Azərbaycanının müəllifi



**15 oktyabr milli dövlətçilik tariximizdə xüsusi əlamətdarlığa malik günlərdəndir. Bu tarix cənab İlham Əliyevin vətəndaşlarımızın mütləq etimadı ilə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildiyi gündür. 2003-cü ilin 15 oktyabrından ötən müddət ərzində dövlətimizin başçısının rəhbərliyi ilə müstəqil respublikamız möhtəşəm uğurlara nail oldu, Azərbaycan tarixinin ən qüdrətli mərhələsinə gəlib çatdı. Bu uğurların miqyası o qədər geniş və çoxşaxəlidir ki, dünyanın əksər dövlətlərinin təcrübəsinə nəzər saldıqda cəmi 21 il ərzində bu qədər böyük nailiyyətlər qazanmış başqa bir ölkə təsəvvür etmək mümkün deyildir.**

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü, dövlət suverenliyi tam təmin olundu, torpaqlarımız təxminən 30 illik işğaldan azad edildi. 2020-ci ilin 44 günlük Vətən müharibəsində, ardınca 2023-cü ildə həyata keçirilən qısamüddətli lokal xarakterli antiterror tədbirləri ilə əsrlərin problemi yoluna qoyuldu. Böyük güclərin bölgəmizdə müxtəlif təxribatlar törətmək üçün istifadə etdikləri "erməni projesi" dəftəri birdəfəlik qapandı. Əsrlərlə Qarabağda yuva qurub Azərbaycanın bağrında sağalmaz yaraya çevrilən, saysız-hesabsız faciələrimizə səbəb olan erməni separatizmi məhv edildi. Bununla Cənubi Qafqazda əbədi sülh, təhlükəsizlik, dayanıqlı inkişaf üçün indiyə qədər heç zaman olmamış yeni tarixi reallıqlar yarandı. Son 5 əsrdə dövlətçilik tariximizdə bundan böyük zəfərə imza atılmamışdır.

Müasir dünyamızın ən parlaq dövlət adamlarından olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi bu məqsədyönlü siyasətin, verdiyi qərarların məzmununu təhlil etdikdə dövlət rəhbərimizin bütün qüdrətli liderlərə xas cəhətləri necə uğurla öz şəxsiyyətində birləşdiyini görə bilərik. Bu ilin fevralında xalqımızın yekdil dəstəyi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyevin Milli Məclisdəki andçmə mərasimi isə milli dövlətçilik ənənələrimizin yaddaqalan anlarından biri kimi tarixə yazıldı. Cənab İlham Əliyev mərasimdəki çıxışında da qeyd etdiyi kimi, Azərbaycan bununla yeni bir dövrə daxil oldu.

Bu çıxış həm Prezident İlham Əliyevin 2003-cü ildən bəri ölkəmizə rəhbərlik etdiyi tarixi dövrə ümumi baxış, həm mövcud reallıqların dəyərləndirilməsi, həm də gələcəyin proqnozlaşdırılması etibarilə böyük maraq kəsb etdi. Bu, əslində 21 illik yüksəliş və inkişaf mərhələsinin əsl mahiyyətini, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın şərəf salnaməsini gözlərimiz önündə bir daha canlandırdı. Dövlət başçısı dedi: "İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi".

Əgər Azərbaycan Prezidentinin 2003-cü ilin oktyabrında keçirilmiş inaqurasiya mərasimindəki çıxışına nəzər yetirib sonrakı iki onillik ərzində yaradılmış tarixi reallıqlar arasında müqayisələr aparsaq, görərik ki, cənab İlham Əliyevin artıq 21 il əvvəl xalqımız qarşısında verdiyi bütün vədlər yerinə yetirilib. Azərbaycan vətəndaşlarının istəyinə uyğun olaraq Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin davam etdirilməsi, o cümlədən bu siyasətin əsas prioriteti olan ölkəmizin ərazi bütövlüyü, suverenliyi məsələsinin təmin olunması - Ata vəsiyyətinin yerinə yetirilməsi həmin vədlər sırasında birinci gəlir. Azərbaycan Prezidenti 2003-cü ildə də, ondan sonrakı andiçmə mərasimlərində də bəyan etmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Xalqımız heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Nəyin bahasına olursa-olsun, doğma torpaqlarımız azad ediləcək. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə xalqımız yumruq kimi birləşərək torpaqlarımızın azadlığına, ərazi bütövlüyümüzə, dövlət suverenliyimizə nail oldu.

"Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik" - cənab İlham Əliyev andiçmə mərasimindəki çıxışında dedi.

## Böyük yolun davamçısı

Dövlət başçısı və onun şəxsində ümumilikdə ölkəmizi, vətəndaşlarımızı bu möhtəşəm uğura yetirən ən mühüm amil Prezident İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf xəttinin ardıcıllığını ilk günlərdən təmin etməsi, hansısa kənar müdaxilələrin Azərbaycanı öz dayanıqlı inkişaf yolundan sapındırmasına imkan verməməsi oldu.

Ölkəmiz indi dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasındadır. Bu inkişafın əsasında reallaşdırılan müstəqil daxili və xarici siyasət kursu dayanır. Belə bir müstəqil strateji kursun Prezident İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına müvafiq surətdə qətiyyətlə davam etdirilməsi hazırkı milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi, sosial-siyasi, iqtisadi, humanitaryönümlü islahatların həyata keçirilməsi, sabitliyin qorunması, beynəlxalq münasibətlər sistemində artan nüfuzumuz qlobal məsələlərdə ölkəmizin ciddi təsir gücünə malik olduğunu göstərir. Əlbəttə ki, bütün bu nailiyyətlərin əsasında güclü lider fenomeni dayanır.

Özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri mövqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət bəsləyir, irəli sürdüyü rəylərlə hesablaşır, təşəbbüslərini dəstəkləyirlər. Çünki ölkəmizin rəhbəri hər zaman doğrunun yanındadır. Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərin nə qədər yerində, məqsədyönlü olduğunu, real nəticələrə hesablandığını tarix dəfələrlə sübuta yetirib. Ona görə dünya liderləri dövlət başçımızın baxışlarına böyük önəm verirlər.

Hakimiyyətə gələndən böyük Zəfər Gününə kimi Qarabağ məsələsində düşmən tərəfə, onun havadarlarına qarşı qətiyyətli mübarizəsi sonda onu hədəfinə çatdırdı, ölkəmiz üçün yeni bir gələcək formalaşdırmağa başladı.

## Qlobal proseslərə təsir imkanlarına malik dövlət

Azərbaycan Prezidenti çox böyük çətinliklər hesabına başa gəlmiş ictimai-siyasi sabitliyi qoruyaraq daha da möhkəmləndirdi. Cəmiyyətdə inkişaf mühitini təmin etdi. Dövlətimizin başçısı Ümummilli Liderin strateji inkişaf xəttini sadəcə davam etdirmədi, bu xətt üzrə daha böyük hədəflər müəyyənləşdirib, ölkəmizi, cəmiyyətimizi addım-addım onlara yetirdi. Bu dövrdə respublikada islahatlar davamlı xarakter aldı, ölkə və cəmiyyət həyatının ən müxtəlif sferalarında dəyişiklik və inkişaf meylləri baş verdi.

Azərbaycan sosial-iqtisadi inkişaf göstəricilərinə görə dünyanın ən öndə irəliləyən ölkələrindən birinə çevrildi. Ümummilli Lider Heydər Əliyevin ideya müəllifi olduğu Bakı-Tbilisi-Ceyhan əsas-ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri uğurla reallaşdı. Bu uğurun davamı kimi sonrakı illərdə "Cənub qaz dəhlizi" kimi qlobal bir layihə həyata keçirildi, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin əsas təminatçısı statusunu qazandı.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanda infrastrukturun inkişafı sahəsində bir sıra mühüm layihələr həyata keçirildi. Bakı-Tbilisi-Qars dəmir yolu xətti işə salındı. Bu beynəlxalq nəqliyyat layihəsi Azərbaycanı Qafqaz, Türkiyə və Avropa ilə birləşdirən strateji marşruta çevirdi. Azərbaycan, Gürcüstan və Türkiyə arasında tranzit və ticarət əlaqələrini gücləndirərək ölkənin beynəlxalq yük daşımalarında əhəmiyyətli rol oynamasına imkan yaratdı.

Azərbaycan Prezidentinin rəhbərliyi altında ölkədə müasir yol infrastrukturu quruldu. Qlobal əhəmiyyətli magistral yollar yeniləndi, bu da daxili nəqliyyatın və yük daşımalarının effektivliyini artırdı. Bütün bunlara paralel olaraq Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verildi. Xəzər dənizinin ən böyük limanı beynəlxalq yüklərin daşınmasında mühüm rol oynamaqla Azərbaycanın tranzit imkanlarını genişləndirdi.

Son onilliklərdə Azərbaycanda yeni beynəlxalq hava limanları da tikilərək istifadəyə verildi, mövcud hava limanları yeniləndi. Bu da turizm və ticarətin inkişafına böyük təkan oldu. Bu layihələr iqtisadiyyatın davamlı inkişafını təmin etməklə yanaşı, ölkəmizin beynəlxalq əlaqələrinin genişləndirilməsinə və insanlarımızın həyat səviyyəsinin yüksəlməsinə əhəmiyyətli töhfələrdir. Azərbaycan bu layihələrin uğurları sayəsində son onilliklərdə qlobal enerji-logistika mərkəzinə çevrildi. Ölkəmizin beynəlxalq əhəmiyyəti daha da gücləndi, Azərbaycan geostrateji mövqelərini möhkəmləndirərək illər əvvəl müstəqillik yollarında ilk kövrək addımlarını atan ölkədən qlobal proseslərə təsir imkanlarına malik həlledici dövlət mövqeyində qərarlaşdı. Enerji resurslarının ixracından əldə edilən gəlirlər sayəsində dövlət büdcəsi əhəmiyyətli dərəcədə artdı və bu, ölkə həyatının ən müxtəlif sahələrində sürətli inkişafa mühüm təsir göstərdi.

## Milli ideologiyamızın mühüm prioriteti

Bu gün müstəqil siyasət Azərbaycan üçün sadəcə inkişaf yolu deyil, eyni zamanda milli ideologiyamızın mühüm prioritetidir. Son illərdə ölkəmizdə cəmiyyət həyatının bütün önəmli sahələri üzrə aparılan dinamik islahatlar da bunun təzahürüdür. Xalqın böyük dəstəyi ilə müşayiət olunan bu islahatlar ölkəmizin daxili siyasi uğurlarına yol açır, cəmiyyətimizi daha da səfərbər edir, vətəndaş həmrəyliyini, xalq-hakimiyyət birliyini möhkəmləndirir, siyasi sabitlik və təhlükəsizlik mühitini möhkəmləndirir. Nəticədə daxili siyasətin davamı kimi xarici siyasət istiqamətində də Azərbaycanın addımları daha dayanıqlı və ardıcıl xarakter daşıyır.

Azərbaycan Prezidentinin "Bizim sözümüz də imzamız qədər dəyərlidir" fikri sadəcə söz deyil, ölkəmizlə hansısa məqamlarda tərəfdaşlıq etmiş hər kəsin əmin olduğu həqiqətdir. Ölkələrə də, dünya liderlərinə də, beynəlxalq təşkilatlara da bəllidir ki, Azərbaycan öz milli maraqlarını nəzərə almaqla verdiyi istənilən sözü tutacaq, bütün vədlərə, üzərinə götürdüyü bütün öhdəliklərə sadiq qalacaq. Xalqımızın maraqlarına zidd olan hər hansı anlaşmalara isə Azərbaycanı razı salmaq qətiyyən mümkün deyil. Bu iradə xalqın öz Liderinə olan dəstəyindən irəli gəlir.

Prezident İlham Əliyev bütün çıxışlarında ideoloji təhlükəsizliyin qorunmasını ön plana çəkir. İdeoloji təhlükəsizlik dövlət və cəmiyyətin əsas dəyərlərinə qarşı yönəlmiş təhdidlərin qarşısının alınması, mənəvi dəyərlərin, aparıcı amillərin qorunması və gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər sistemidir.

Dövlət başçısı VII çağırış Milli Məclisin ilk iclasındakı proqram xarakterli nitqində yeni tarixi reallıqlar dövrü ilə bağlı bir sıra aktual məsələlərlə yanaşı, ideoloji təhlükəsizlik mövzusuna da xüsusi yer ayırmışdı. Bununla bağlı müasir çağırışları, qarşıda duran vəzifələri diqqətə çatdırmışdır. İdeoloji işğal cəhdlərinin qarşısını ala biləcək ən güclü vasitənin xalqın öz milli ideologiyasına malik olmasını söyləmişdir.

Bu baxımdan azərbaycançılıq ideologiyası xalqımızın milli kimliyini və dəyərlərini əks etdirən, ölkəmizin suverenliyini, ərazi bütövlüyünü və milli maraqlarını önə çəkən düşüncə sistemidir. Bu ideologiya tariximiz, mədəniyyətimiz, dilimiz və siyasi maraqlarımız ətrafında formalaşmış bir dünyagörüşünü əks etdirir və həmrəyliyi, vətənpərvərliyi, tarixi Vətənə sevgini gücləndirir. Prezident İlham Əliyev Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışındakı çıxışında bu məsələyə daha geniş yer verərək bildirmişdi: "Mən Azərbaycan xalqına həmişə həqiqətləri demişəm, bütün dövrlərdə və bu gün də həqiqət bundan ibarətdir. Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz dırnaqarası qeyri-hökumət təşkilatlarında. Anti-Azərbaycan mövqeyində olan müxtəlif ünsürləri bu günə qədər də maliyyələşdirirlər Azərbaycanda, müxtəlif QHT-lər adı altında, hansısa ictimai qurumlar adı altında. Yəni gənc nəslin şüuruna təsir etsələr, demək olar ki, Azərbaycanın gələcəyinə təsir edəcəklər, heç vaxt gənclər unutmasınlar".

Prezident İlham Əliyevin rəhbərliyi dövründə ölkəmizdə yüzlərlə yeni məktəb, universitet binaları tikilib. Minlərlə istedadlı gəncimizə dünyanın ən nüfuzlu təhsil ocaqlarında Azərbaycan üçün xüsusilə gərəkli ixtisaslar üzrə dövlət hesabına oxumaq imkanı yaradılıb. Ölkəmizdə yaradıcı fəaliyyətin dəstəklənməsinə genişmiqyaslı layihələr reallaşdırılıb. Modernləşdirmə konsepsiyasının təşəbbüskarı olan Prezident İlham Əliyev innovasion, idarəçilik səviyyəsi yüksək olan kadr potensialı yaradılması üçün xüsusi proqramların, layihələrin həyata keçirilməsi məqsədilə dövlət əhəmiyyətli sənədlər imzalayıb. Bunlar ölkəni modernləşdirməyə, insan kapitalını inkişaf etdirməyə, istedadlılara qayğı göstərməyə və onları himayə etməyə, potensialının üzə çıxarılmasına yönəlmiş rəhbər sənədlərdir.

## Milli ruhun verdiyi güc: mədəniyyət

Mədəniyyət diplomatiyası da Azərbaycanın xarici siyasət kursunun mühüm istiqamətlərindəndir. Bu, dövlətlər və xalqlar arasında müxtəlif mədəniyyətlərin mübadiləsini təmin edir, qarşılıqlı dözümlülük üzərindən dostluq körpüləri salır, mehriban qonşuluq əlaqələrinin qurulmasına geniş imkanlar yaradır. Müasir beynəlxalq münasibətlərdə mədəniyyət diplomatiyası hər bir dövlət üçün çox səmərəli siyasi strategiya alətidir. Müasir dövrdə heç bir dövlət bu gücdən faydalanmadan beynəlxalq aləmdə inkişaf və inteqrasiya edə bilməz.

Dövlət rəhbərimizin həyata keçirdiyi müstəqil siyasətin nailiyyətləri sayəsində bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dövləti mədəniyyət sahəsində həyata keçirdiyi düşünülmüş siyasətlə də beynəlxalq aləmdə zəngin potensiala və yüksək mədəniyyətə malik ölkə kimi nüfuz qazanıb. Respublikamız qısa müddətdə ümumdünya mədəniyyət diplomatiyası cərəyanına fəal şəkildə qoşularaq, özünü mədəni mübadiləyə, xalqların mənəvi yaxınlığına açıq, ümumbəşəri irsin zənginləşdirilməsinə və qorunmasına qadir dövlət kimi tanıtmağı bacarıb, bu istiqamətdə ciddi nəticələr qazanıb.

Xalqımızın milli-mədəni dəyərlərinin dünyada təbliği, mədəni və humanitar əlaqələrimizin genişlənməsi, əsrlər boyu bəşər mədəniyyətinə nadir töhfələr vermiş şəxsiyyətlərimizin müasir dünyaya təqdimatı Azərbaycanın xarici siyasət kursunun mühüm istiqamətidir.

Vətən müharibəsindəki tarixi qələbəmiz mədəniyyət sahəsində də böyük dəyişikliklərin əsasını qoydu. İşğaldan azad edilmiş Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olundu. Sonra türk dünyasının, bu il isə islam dünyasının mədəniyyət paytaxtıdır. Bülbülün, Natəvanın, Üzeyir bəy Hacıbəylinin büstləri yenidən Şuşaya qovuşdu. Bülbülün Şuşadakı ev-muzeyi bərpa edildi. 30 illik fasilədən sonra "Xarıbülbül" festivalı yenidən Vətənində keçirildi. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Vaqif Poeziya Günləri yüksək səviyyədə təşkil olundu. Şuşada aparılan quruculuq işlərinə paralel həyata keçirilən bütün layihələr şəhərin mədəni həyatını da canlandırır, vandalların vurduqları yaraları sağaldır. Bütün bunlar 30 illik işğal dövründə Qarabağda, Şərqi Zəngəzurda dəhşətli vandalizm əməlləri törətmiş, dağıntılarla, qarətçiliklə öz miskin, saxtakar mahiyyətlərini ortaya qoymuş işğalçı tərəfdən fərqli olaraq Azərbaycan xalqının nə qədər mədəni, sivil, inkişafa, quruculuğa, tarixi-mənəvi dəyərlərə önəm verən xalq olduğunu bütün dünyaya göstərir. Bu günlərdə Laçın şəhəri MDB-nin paytaxt şəhəri elan edildi. Belə bir tarixi qərar Azərbaycanın regiondakı mədəni əhəmiyyətini artırmaqla yanaşı, beynəlxalq nüfuzunu da möhkəmləndirir.

Bütün dünya üçün bu nailiyyətləri yaradan faktlardan biri də ölkəmizdə keçirilən silsilə beynəlxalq tədbirlər - festivallar, mahnı müsabiqələri, qlobal mədəniyyətlərarası dialoq forumlarıdır. Mədəniyyət xadimləri ilə aparılan müzakirələrdir, dünyanın nüfuzlu söz sahibləri arasında gedən fikir və ideya mübadilələridir. Paytaxt Bakıdan bütün bəşəriyyətə ünvanlanan çağırışlardır. Bu gün həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt məhz milli irsin təbliği, mədəniyyət abidələrinin, genofondun qorunmasıdır.

Mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biri də Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinə dövlət qayğısının həyata keçirilməsidir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır - alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır: "Azərbaycanı bu insanlar tanıdırlar. Bu insanlar cəmiyyətin aparıcı təbəqələridir, cəmiyyətin elitasıdır". Ona görə dövlətimiz hər zaman öz yaradıcı insanlarına böyük dəyər verir, onları dəstəkləyir, sənəti ilə bəşər mədəniyyətinin inkişafına zəngin töhfələr bəxş etmiş sənətkarlarımızın xatirəsini uca tutur.

Dünyaşöhrətli Azərbaycan müğənnisi Müslüm Maqomayevin Bakıda abidəsinin açılışı və 80 illik yubiley tədbirinin keçirilməsi buna bir nümunə oldu. Dövlət başçısının müvafiq sərəncamı ilə Bakının ən görkəmli yerlərindən birində adı hər zaman xeyirli əməlləri ilə xatırlanan Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması bir daha göstərir ki, onun vaxtilə etdiyi yaxşılıqlar heç zaman unudulmur. El sənətkarı məşhur Aşıq Ələsgərin abidəsinin açılışı dövlətimizin böyük şəxsiyyətlərimizə yüksək sevgi və ehtiramının ifadəsidir.

Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkar M.Füzulinin 530 illik yubileyinin qeyd olunması haqqında sərəncam, XIX əsrdə yaşayıb-yaratmış Azərbaycan şairləri arasında çox yüksək məqam sahibi olan Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyinin keçirilməsi ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmışdır.

Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirovun, görkəmli bəstəkar Süleyman Ələsgərovun 100 illik yubileyləri dövlət səviyyəsində qeyd olunmuşdur.

Ədəbi-ictimai fikir tariximizin parlaq dühalarından olan, mütəfəkkir şair və dramaturq "Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında" Prezident sərəncamında şairin irsinə yüksək qiymət verilir və xüsusi vurğulanır ki, Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmışdır.

Bundan başqa, Məhəmməd Əmin Rəsulzadənin 140, Nəbi Xəzrinin 100, Əhməd Cavadın 130, Ömər Faiq Nemanzadənin 150, Əhməd Bakıxanovun 130, Rauf Hacıyevin 100 illiyinin, Azərbaycanın görkəmli memarları Mikayıl Hüseynovun və Sadıq Dadaşovun birgə abidəsinin ucaldılması, Xalq şairi Rəsul Rzanın ev-muzeyinin yaradılması və digər böyük şəxsiyyətlərimizin yubileylərinin qeyd edilməsi, xatirələrinin əbədiləşdirilməsi haqqında sərəncamlar və bunların icrası istiqamətində görülmüş işlər, abidələrin açılışında dövlət başçısının özünün şəxsən iştirakı mədəniyyətimizə olan böyük ehtiramın təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev bu mənada milli mədəniyyətimizin ən böyük hamisi, onun inkişafının təminatçısıdır.

Ölkəmiz bu gün milli ruhun verdiyi güclə, xalqımızı tarixinin ən böyük nailiyyətlərinə yetirən qüdrətli Liderə əminliklə gələcəyə doğru inamla irəliləyir, ulularımızdan gələn tarixin yeni şanlı səhifələrini yaradır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



# MÖHTƏŞƏM 21 İL 2003 2024



## 15 oktyabr - Azərbaycanın ərazi bütövlüyünün bərpasına gedən yolun başlanğıcı

# Elə bir güclü Azərbaycan qurdu ki!..

**"Bir amalım var idi - güclü Azərbaycan qurmaq!" - deyir Prezidentimiz. Sözünün imzası qədər kəsərli, keçərli və dəyərli olduğunu bu yüksək amala, bu böyük hədəfə çatmaqla da sübut etdi. Doğrudan da, elə bir güclü Azərbaycan qurdu ki…**

Elə bir Azərbaycan ki dinamik sosial-iqtisadi inkişafı ilə ən nüfuzlu beynəlxalq reytinq təşkilatlarını heyrətləndirdi, kosmosa yüksəldi, nəhəng neft, qaz və ixrac layihələri ilə Avropanın enerji xəritəsini yenidən çəkdi. Şərqdən qərbə, şimaldan cənuba uzanan nəqliyyat dəhlizləri buradan keçdi və bundan az qala bütün dünya bəhrələndi. Dövlət başçısının imzaladığı möhtəşəm regional inkişaf proqramları ilə bölgələrin hamısı tarazlı şəkildə irəlilədi, şüurlardan "ucqar kənd", "ucqar rayon" anlayışları silindi.

Elə bir Azərbaycan ki başdan-başa nura qərq oldu. Əvvəllər təkcə kəndləri deyil, şəhərləri də işığı saatla alan ölkə elektrik enerjisi idxalçısından onun ixracatçısına çevrildi. Qaz xətləri ən uzaq dağ kəndlərinədək, hətta sovet dönəmində mavi yanacaq görməyən yerlərədək uzandı. Hər il ən azı min kilometr yeni yol çəkildi, yaxud köhnələri əsaslı təmir olundu. Yeni magistrallar açıldı, körpülər salındı.

Prezident İlham Əliyev Azərbaycanın gücünü günbəgün, aybaay, ilbəil daha da artırdı. Elə yenilməz ordu formalaşdırdı ki, arxasında böyük "dayaq"ları olan düşməni cəmi 44 günə diz çökdürdü. 30 il ərzində erməni faşizminin xarabalığa çevirdiyi böyük bir ərazidə genişmiqyaslı quruculuq işlərinə başladı və bunun sayəsində indi bütün Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilməkdədir.

Dövlət başçısı deyir ki, bu gün artıq dəyişən dünyada güc amili rəsmi qaydada ön plana çıxıb və güc elə iqtisadiyyatdır: "İqtisadiyyat güclü olmasa, hərbi gücdən, siyasi gücdən söhbət gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir, heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil... Güc toplamaq üçün, əlbəttə ki, düzgün siyasət aparılmalıdır... Mənim fəaliyyətimdə ölkəmizin gücləndirilməsi, beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilindəki proseslərin müsbət məcrada getməsi əsas vəzifə idi. Heç bir təzyiq, heç bir təhdid məni bu yoldan döndərə bilmədi. Çünki bir amalım var idi - güclü Azərbaycan qurmaq, torpaqlarımızı işğaldan azad etmək! Biz bu illər ərzində böyük, nəhəng layihələri icra etdik. Bu layihələr bizə imkan verdi ki, biz iqtisadi inkişaf baxımından dünyada qabaqcıl yerlərdəyik".

Məlumdur ki, heç də hər ölkə sərbəst yaşamaq imkanına malik olmur. Xüsusilə ərzaq, enerji və nəqliyyat təhlükəsizliyini təmin edə bilməyən ölkələrdə ciddi problemlər yaranır. Azərbaycan dövləti düzgün və məqsədyönlü siyasət yürüdərək bu istiqamətdə önəmli layihələr həyata keçirdi. Məsələn, 2006-cı ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri, 2007-ci ildə "Şahdəniz" qazını daşıyan Bakı-Tbilisi-Ərzurum xətti istifadəyə verildi. Daha sonra Bakı-Tbilisi-Qars dəmir yolu çəkildi. Bunların ardınca nəqliyyat-logistika və digər sahələrdə də önəmli layihələr icra olundu. Bir sözlə, Azərbaycan qısa müddətdə regionun güc mərkəzinə çevrildi. BTC Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələr verdi. Bu, ümumiyyətlə, bütün regiona xeyir-bərəkət gətirən kəmərdir. Yeri gəlmişkən, qeyd edək ki, belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbə oldu.

İndi kəmərlərimizin yolu daha uzaq ünvanlaradır. Belə ki, genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan (Trans-Adriatik Qaz Boru Kəməri) ibarət 3500 kilometrlik "Cənub qaz dəhlizi" çəkildi. TANAP artıq yeddinci ildir Azərbaycan qazını uğurla Türkiyəyə nəql edir. TAP kəməri TANAP-dan qəbul etdiyi mavi yanacağı dörd ilə yaxındır Avropaya çatdırır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Cənub qaz dəhlizi" Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir. Dövlət başçısı bununla yanaşı, "Cənub qaz dəhlizi"nin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını da dəfələrlə vurğulayıb. Yeri gəlmişkən, İlham Əliyev möhkəm bir beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması da yaradıb.

Avropanın Azərbaycan qazına ehtiyacı olduğu hamıya yaxşı məlumdur. Eyni zamanda biz öz ixrac imkanlarımızı genişləndirmək istəyirik və bu baxımdan Avropa bazarı çox əlverişlidir. İndi Azərbaycan qazı 10-a qədər ölkəyə ixrac olunur və bu, son hədd deyil. Artıq "Cənub qaz dəhlizi"nə yeni "qol"lar qovuşur. 2022-ci il oktyabrın 1-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı oldu. Keçən il dekabrın 10-da isə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru istifadəyə verildi. Hər iki xəttin Azərbaycan Prezidentinin iştirakı ilə açılması dövlətimizin, eləcə də onun başçısının bu layihələrdəki rolunun, ümumiyyətlə, qazandığı hörmət və nüfuzunun göstəricisidir.

Görkəmli siyasətçilər və mütəxəssislər tərəfindən müəllifinin İlham Əliyev olduğu etiraf edilən "Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində ilk növbədə Azərbaycan xalqına xeyir gətirəcək və milli iqtisadiyyatımızın inkişafında mühüm amil kimi çıxış edəcək. Ölkəmizin dünyada nüfuzunun artmasını şərtləndirəcək. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyəti daha da artacaq. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət götürəcəklər. Bu layihə Azərbaycana böyük gəlirlər gətirərək insanların rifahının yüksəlməsinə təsir göstərəcək, xalqımızın firavan gələcəyini təmin edəcək.

Prezident İlham Əliyev Azərbaycanın sosial-iqtisadi və hərbi qüdrətinin artmasında həyata keçirilən bu nəhəng layihələrin əhəmiyyətini dəfələrlə qeyd edib: "Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi".

Zaman Prezidentimiz tərəfindən qarşıya qoyulmuş vəzifələrin məqsədyönlü olduğunu, müəyyənləşdirilmiş strategiyanın düzgün seçildiyini təsdiqlədi. Həyata keçirilən çoxşaxəli proqramlar, dərin islahatlar ölkəmizi böyük inkişaf yoluna çıxardı.

Başqa sözlə, Prezident İlham Əliyev güclü Azərbaycan qurdu. Dövlət başçısını bu yoldan heç bir qüvvə, heç bir təzyiq döndərə bilmədi. Odur ki, bu gün müstəqil Azərbaycan özünün ən şanlı dövrünü yaşayır, dünyanın sayılıb-seçilən ölkələrindəndir. Ən mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilərək də etibar və inam qazanıb. Yaxın vaxtlarda COP29 kimi möhtəşəm bir tədbirə evsahibliyi edəcəyi də bunu göstərir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

**Zaman o zaman idi ki, "SSRİ-nin şineli"ndən döyüşərək çıxan Azərbaycana 10 illik bir zaman kəsiyində rəhbərlik etmiş Ümummilli Lider Heydər Əliyevin səhhətində problem yaranmışdı. Ulu Öndər mənən usanmasa da, fiziki baxımdan yorulmuşdu, amansız xəstəliklə mübarizə aparırdı. Amma Azərbaycanın gələcək taleyini də düşünmədən keçmirdi. Onda 2003-cü il idi.**

İllərlə yetişdirdiyi siyasi varisi İlham Əliyevin bu dövlətə, xalqa layiqli rəhbər olacağını, idarəçilikdə yarımçıq qalmış işləri sona çatdıracağını yaxşı bilirdi. İki həftə sonra prezident seçkisi olacaqdı. Siyasi varisi namizədliyini vermişdi. Onun seçkidə səs çoxluğunu qazanacağına əmin olsa da, oktyabrın 1-də xalqa müraciət etdi: "...Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu müraciət Ulu Öndərin deyil, bütövlükdə Azərbaycan xalqının İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü idi. Heydər Əliyev tarixi müraciəti ilə xalqa əsasını qoyduğu siyasəti davam etdirə biləcək ünvan göstərmişdi. Zaman göstərdi ki, Ulu Öndərin nişan verdiyi ünvan çox dəqiq idi. İki həftə sonra oktyabrın 15-də Heydər Əliyev siyasi kursuna sadiqliyini nümayiş etdirən xalq Ulu Öndərə olan sevgisini və inamını sübut edərək 76 faiz səs çoxluğu ilə öz seçimini etdi.

Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də İlham Əliyevi Prezident seçməklə, həm də Heydər Əliyevin siyasi kursuna səs verdi. Ulu Öndərin kursuna sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha təsdiqlədi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Müdrik Azərbaycan xalqı taleyüklü anlarda hər zaman doğrunu yanlışdan ayıra bilib, düzgün seçimə üstünlük verib. Bu mənada həmin gün keçirilən prezident seçkisində xalq gələcəyin azad, müstəqil və suveren Azərbaycanına səs vermiş oldu. Məhz həmin o səs Prezident seçilmiş İlham Əliyevin 21 illik uğurlarının başlanğıc nöqtəsi kimi tarixə yazıldı. Azərbaycan dövlətinin inkişafı yolunda addımlayarkən əlindən tutdu, onu qətiyyətli və cəsarətli olmağa, siyasi iradə nümayiş etdirməyə sövq etdi.

Bu uğurun kökündə çıxdığı yolda Ulu Öndərin siyasətinə sonsuz sədaqəti, Heydər Əliyev ideyalarını yeni dövrün çağırışlarına uyğun zənginləşdirməsi dururdu. O, Ulu Öndərin siyasətini davam etdirməyin ən doğru yol olduğunu 2018-ci il aprelin 11-də keçirilən seçkidən sonra andiçmə mərasimindəki nitqində bir daha qətiyyətlə vurğuladı: "Mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

Düz 21 il əvvəl "zəngin və qüdrətli Azərbaycan uğrunda" çağırışı ilə milyonları öz ətrafında toplayan İlham Əliyevin yürütdüyü siyasət nəticəsində tezliklə Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesi uğurla həyata keçirilməyə başladı. Bu o zaman idi ki, qloballaşmağa istiqamət götürmüş bir dünya siyasətinin üstünə yavaş-yavaş kölgə düşürdü. Dünyanı idarə edən "baş hakimlər"in hikkələrinin və cəhdlərinin nəticəsində daha çox qanlı qarşıdurmalar, müharibələr, iqtisadi, siyasi, humanitar böhranlar günümüzün reallığına çevrilmişdi. Bütün bunları görən Prezident İlham Əliyev sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanan daxili və xarici siyasət yürütməyə başladı.

O gün-bu gün Prezident hər iki siyasətin həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Bunlar hər dövlət başçısına nəsib olmayan şəxsi keyfiyyətlərdir. Prezident İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, şahmat dili ilə desək, həmişə ağ fiqurlarla oynayır və start vəziyyətində olduğu üçün qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin etmiş olur. Ona görə də həmin "şahmat taxtası"nda əvvəlcədən bir neçə gediş edən siyasət qrossmeysteri olan İlham Əliyevin rəqibinə "mat" elan etməsi labüddür. Bu zaman problemə sistemli və ardıcıl yanaşma tərzi, səlis və məntiqli ifadə üslubu, auditoriya ilə işləmək və onu ələ almaq qabiliyyəti, səs diapazonundan düzgün istifadə məharəti, bədən dili, nəhayət, ecazkar cəzbetmə potensialı və bənzərsiz xarizması ilə dövlət başçısı ən qatı siyasi opponentini də "tərk-silah" etməyə və onları "siyasi hipnoz" vəziyyətinə salmağa müyəssər ola bilir.

Ötən iki onillikdə dünyanı idarə edənlərin "mənəm-mənəm"liyinin nəticəsində çoxlu sayda qanlı qarşıdurmaların, müharibələrin, iqtisadi, siyasi, humanitar böhranların baş verdiyi situasiyalarda Azərbaycanı qoruyub saxlamaq, onun real müstəqilliyini daha da möhkəmlətmək, ölkəmizə qarşı törədilən təxribatların qarşısını almaq İlham Əliyev kimi bir liderin adı ilə qoşa çəkildi. Dönüb arxaya baxanda bir fakt açıq-aydın görünür: bütün sahələrdə inkişaf tempinə sürət vermək yalnız və yalnız sayılıb-seçilən, kamil şəxsiyyət və idarəetmə qabiliyyəti ilə fərqlənən liderin boyuna biçilib. O, 21 ildir Azərbaycan xalqına verdiyi "hər bir azərbaycanlının Prezidenti olacağam" vədini bir an olsun belə unutmur. Millət, xalq yolunda, vətən, torpaq uğrunda dövlətin və dövlətçiliyin nüfuzunu günbəgün artırır. İki onillik ərzində İlham Əliyevin xalqına və dövlətinə müstəsna tarixi xidmətləri sayəsində həm beynəlxalq, həm regional səviyyədə, həm də ölkə daxilində o qədər parlaq uğurlara imza atıldı ki, onun qatı opponentləri belə Azərbaycan liderinin qələbəsini qəbul etməyə məcbur oldular.

Dövlət quruculuğunda və iqtisadi dirçəlişdə, ictimai-siyasi və sosial həyatda tərəqqiyə nail olunan, işğaldan azad olunmuş torpaqlara Böyük qayıdışı həyata keçirən 21 illik bir epoxanın müəllifidir İlham Əliyev. Prezident özü 2020-ci il noyabrın 6-da "BBC News"un müxbirinə verdiyi müsahibədə 21 ilin xronikasını belə verir: "...Mən hesab edirəm ki, ölkəmizin gələcəyi çox parlaq olacaq. Biz son illər ərzində çox böyük uğurlara imza atmışıq. Ölkəmizin həm siyasi, həm iqtisadi sahələrdə uğurları bu gün beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilir. Beynəlxalq arenada böyük uğurlar əldə edilib. Azərbaycan bu gün çox güclü bir ölkəyə çevrilib. Ölkə daxilindəki bütün məsələlər öz həllini tapır. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək. İnsanlar ilk növbədə dədə-baba torpaqlarına qayıdacaq, yaxınlarının qəbirlərini ziyarət edə biləcəklər. Azərbaycan dövləti bu işlərdə onlara maksimum kömək göstərəcək. Biz işğaldan azad edilmiş torpaqları yenidən quracağıq, evlər, inzibati binalar, məktəblər tikəcəyik. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində hesab edirəm ki, müsbət meyillər daha da güclənəcək. Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Bəyan etdiyim bütün hədəflərə çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha qüdrətli ölkəyə çevirəcəkdir".

Möhtərəm Prezident İlham Əliyev eyni zamanda 30 illik işğalı Zəfərlə sonlandıraraq Qələbə dastanı yazan Müzəffər Ali Baş Komandandır. Dövlət başçısının qələmə aldığı bu dastan tarixdə əbədi qalacaq və həmişə Azərbaycan xalqının qürur mənbəyi olacaq. Prezidentin həmin qələbənin əbədiləşdirilməsi yönündə verdiyi qərarlarla "Zəfər" və "Qələbə" ordenləri, həmçinin 15 yeni medal təsis edildi. Bu orden və medalların təsis olunması təkcə qələbənin əbədiləşdirilməsinə deyil, həm də müharibə iştirakçılarına göstərilən ali diqqətin təzahürüdür. Həmçinin xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində "Vətən müharibəsi memorial kompleksi"nin və "Zəfər muzeyi"nin yaradılması haqqında sərəncam imzaladı. Dövlət başçısının təşəbbüsü ilə paytaxtımızda Hərbi Qənimətlər Parkının yaradılması isə ona dəlalət edir ki, İlham Əliyev 30 illik işğalın Zəfər salnaməsini yazan lider müəllifdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# MÖHTƏŞƏM 21 İL 2003 2024

# 21 il, 44 gün, 23 saat...

**2003-cü il oktyabrın 15-dən, yəni Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi İlham Əliyevin xalqın yekdil qərarı ilə Prezident seçilməsindən ötən 21 illik tarixi izləyəndə Azərbaycan adına qazanılan böyük uğurların, qələbələrin, zəfərlərin sıralandığı möhtəşəm xronologiyaya şahidlik edirik. Zaman üçün çox qısa bir vaxtda tarixi ədalətin, haqqın, milli maraqlarımızın beynəlxalq hüququn prinsip və normaları çərçivəsində qətiyyətlə təmin edildiyini görürük.**

Nəyi necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən Prezident İlham Əliyevin özünün də dünyaya bəyan etdiyi kimi: "Əgər bizim bütün fəaliyyətimizin xronologiyasını izləsəniz, hətta İkinci Qarabağ müharibəsinin başlanmasına qədər getsəniz, siz bizim haqlı olduğumuzun məntiqini və güclü arqumentini görəcəksiniz... Biz hər şeyi düzgün etmişik".

Bu gün Qalib Lider İlham Əliyevin Zəfər salnaməsinin şifrə rəqəmlərini 21 il, 44 gün, 23 saat kimi xarakterizə etsək, heç də yanılmarıq...



# Və Qalibin Zəfər salnaməsi













## Milli maraqlarımızı müdafiə edəcəyinə and içmişdi

Cəmi 21 il ərzində Azərbaycan Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında Cənubi Qafqazın lider ölkəsinə çevrilib, dünyada söz sahibi olub. Ölkəmiz ictimai-siyasi, sosial-iqtisadi, hərbi, mədəni, ümumiyyətlə, bütün sahələr üzrə böyük inkişaf yolu qət edib. Ölkəmiz dünyanın enerji, nəqliyyat qovşağına çevrilib və əbəs yerə deyil ki, bölgə ilə bağlı reallaşdırılan bütün layihələr Azərbaycanla razılaşdırılır. Beynəlxalq miqyaslı məsələlərin həlli ilə əlaqədar müzakirələrin, dialoqların aparıldığı unikal ünvan statusu daşıyan Azərbaycan qlobal problemlərin həllində aktiv iştirak edir, planetimizin xilası naminə mühüm işlər gerçəkləşdirir. Bu baxımdan COP29 kimi beynəlxalq əhəmiyyətli tədbirə evsahibliyi etməsi üçün dünyanın əksər ölkələrinin yekdilliklə Azərbaycan lehinə səs vermələri də təsadüfi xarakter daşımırdı.

Ölkəmizin həyatında son iki onillikdə baş verən hərtərəfli inkişafa, tərəqqiyə, iqtisadi, hərbi gücümüzün günbəgün artmasına, əldə etdiyimiz nailiyyətlərə, uğurlara nəzərən əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev düz 21 il əvvəl xalqına verdiyi vədləri layiqincə yerinə yetirərək Azərbaycanın inkişafı üçün əlindən gələn hər şeyi edib və onu qüdrətli ölkəyə çevirib.

2003-cü il oktyabrın 15-də İlham Əliyev xalqdan mandat almış, oktyabrın 31-də isə "Qurani-Kərim"ə əl basaraq Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edəcəyinə and içmişdi.

Buna görə də prezidentlik fəaliyyəti dövründə, heç şübhəsiz, İlham Əliyevin qarşısına qoyduğu birnömrəli vəzifə Azərbaycanın ərazi və suverenliyinin təmini idi: istər sülh, istərsə də müharibə yolu ilə olsun...

## Milli missiya

Cəmi 44 gün ərzində Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin mükəmməl siyasi gedişləri, diplomatik bacarığı, hərbi taktikası sayəsində ərazisi işğal altında olan ölkədən zəfər ölkəsinə, xalqımız məğlub xalqdan qalib xalqa çevrildi.

Vətən müharibəsinə qədərki prezidentlik fəaliyyəti dövründə münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün diplomatik siyasət həyata keçirən İlham Əliyev bütün beynəlxalq tribunalardan Azərbaycanın haqq səsini çatdırır, Ermənistanın işğalını əbədiləşdirmək istəyən qərəzli xarici ölkə və qurumlara qarşı mübarizə aparırdı.

Ancaq həmin məkrli qüvvələr, Qarabağ münaqişəsinin danışıqlar yolu ilə tənzimlənməsi üçün missiyalandırılan ATƏT-in keçmiş Minsk qrupu məsələnin işğalçının xeyrinə olaraq sonsuzadək dondurulmasına çalışırdılar.

Bütün bunlara görə 2019-cu ildə Valdayda "Qarabağ Azərbaycandır!" haqq nidasını səsləndirən Prezident İlham Əliyev artıq Bakının səbir kasasının daşdığını dünyaya çatdırdı. Qətiyyətlə bildirdi ki, Azərbaycan öz ərazilərinin işğalı ilə barışmaq fikrində deyil.

Və 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatlarına qarşı Vətən uğrunda "İrəli" əmri verən Müzəffər Ali Baş Komandan İlham Əliyev ərazilərimizin 30 illik işğalına son qoymağın zamanının yetişdiyinin ismarışını verdi. Savaşın ilk günündən qəhrəman döyüşçülərimiz addım-addım torpaqlarımızı işğaldan qurtarmağa başladılar. Müharibənin 44 günü ərzində kəndlərimizin, qəsəbələrimizin, şəhərlərimizin bir-bir azadlığına qovuşdurulmasının müjdəsinin Prezident İlham





Əliyev tərəfindən xalqımıza yetirilməsi xoş ənənəyə çevrildi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük Şuşa zəfərini məhz Şəhidlər xiyabanından xalqımıza çatdırması isə xüsusi rəmzi məna daşıyırdı və bu, torpaqlarımız uğrunda canlarını qurban verən oğul və qızlarımızın qisasının alındığına işarə idi.

II Qarabağ savaşının 44 günü ərzində rəşadətli Azərbaycan Ordusunun düşmənin başına endirdiyi sarsıdıcı "dəmir yumruq" zərbəsinin təsiri idi ki, Ağdam, Kəlbəcər, Laçın bir güllə atılmadan, bir itki verilmədən azad edildi.

Vətən müharibəsindəki möhtəşəm zəfər onilliklər boyu talanan, daşı daş üstə qalmayan, viranəyə çevrilən ərazilərimizi düşmən tapdağından qurtardı. Yüz minlərlə keçmiş məcburi köçkünümüzün yurd həsrətini bitirdi.

Azadlıqlarının üzərindən dərhal sonra həmin şəhər, qəsəbə və kəndlərimizdə genişmiqyaslı quruculuq və bərpa işlərinə start verildi, çox keçmədən Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış həyata keçirildi. Bir zamanlar yurdlarından didərgin düşərək ölkəmizin dörd tərəfinə səpələnmiş keçmiş məcburi köçkünlərimiz mərhələli şəkildə öz isti od-ocaqlarına qovuşdurulmağa başlandılar.

## Əbədi qələbə

Cəmi 23 saat ərzində Qalib Lider İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi təmin olundu, üçrəngli, ay-ulduzlu bayrağımız bütün ərazilərimizdə dalğalandırıldı.

"...Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan gerbi, Azərbaycan bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir.

...Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Ötən il oktyabrın 15-də Xankəndidən xalqımıza müraciət edən Prezident İlham Əliyevin qürurla vurğuladığı kimi, bu, İlahi ədalət, haqqın öz yerini tapması demək idi.

2023-cü il sentyabrın 19-da başlayıb 20-də ildırım sürəti ilə bitən və dünya erməniliyinə, onlara havadarlıq edən xarici qüvvələrə dünyanı dar edən antiterror tədbirləri Qarabağda separatizmin kökünü birdəfəlik kəsdi, tarixi torpaqlarımızdakı quldur yuvasını darmadağın etdi. Status cəhənnəmə getdi, sərsəm "böyük Ermənistan" planları məhv edildi.

Milli kimliyimizə düşmən kəsilərək xalqımıza qarşı qətliamlar, soyqırımları həyata keçirən, qanlı əməlləri ilə öyünən, Qarabağda at oynatmaq istəyən qatil ermənilər - Arayik Harutyunyan, Ruben Vardanyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan... kimi ünsürlər qandallanaraq başıaşağı vəziyyətdə Bakıya gətirildilər. Özlərini qondarma qurumun "prezident"ləri, "nazir"ləri, "parlament sədrləri"... adlandıran bu təlxəklər toplusu indi Azərbaycan qanunları qarşısında cavab verirlər.

Qalib Lider İlham Əliyevin yürütdüyü məharətli diplomatik siyasətin növbəti qələbəsi isə bu ilin may ayında Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin Azərbaycana qaytarılması oldu. 4 qeyri-anklav kənd Qalib Lider İlham Əliyevin tələbi ilə bir güllə atılmadan, qan tökülmədən azad edildi.

## Böyük inam

Gətirdiyimiz nümunələrdən də göründüyü kimi, Azərbaycan son 21 il ərzində vətənpərvər şəxsiyyət İlham Əliyevin əzmi, qətiyyəti, uzaqgörən siyasəti sayəsində tarixindəki ən böyük zəfərlərə imza atıb. Məğlub ölkədən qalib ölkə zirvəsinə yüksəlib, ərazi bütövlüyünü, suverenliyini tam təmin edib.

Ölkəmizin qazandığı bu qələbələr isə, heç şübhəsiz, bölgə ilə bağlı məkrli planları olan qərəzli Qərb siyasi mərkəzlərini və təsisatlarını qane etmir. Buna görədir ki, Vətən müharibəsindən, xüsusilə də antiterror tədbirlərindən sonra müstəmləkəçi Fransanın başçılığı altında Azərbaycana qarşı qərəzli kampaniyaya başlayıblar. Onlar Ermənistana siyasi, hərbi dəstək verərək onu revanşa qızışdırırlar. Lakin sülhdən yayınması elə İrəvanın özünə zərərdir.

Bu il oktyabrın 4-də Cəbrayıl şəhərində sakinlərlə görüşən Prezident İlham Əliyev bəyan etdi ki, Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın. Onların yadından çıxmasın ki, necə diz üstə bizdən imdad diləyirdilər, necə Rusiyaya gündə bəlkə 10 dəfə ən yüksək səviyyədə müraciət edirdilər ki, müharibə dayandırılsın: "O, onların yadından çıxıb. İndi yeni sahiblər tapıblar. O sahiblər qabağında diz üstə yürüyürlər. Antiterror əməliyyatı onların yadından çıxmasın. Yadından çıxmasın ki, hətta o coğrafiyada biz istədiyimizə nail ola bilmişik. Heç kimə baxmadan, heç nəyə baxmadan cəmi bir neçə saat ərzində separatçılığın kökünü kəsmişik".

Bütün bunlara görədir ki, elə bu ilin 7 fevralında da Azərbaycan xalqı bir daha yekdilliklə Ulu Öndər siyasi məktəbinin layiqli varisi, sözü imzası qədər kəsərli olan İlham Əliyevə səs verərək onu özünün Prezidenti seçdi. Qalib Lider İlham Əliyevin qarşıda da xalqımıza neçə-neçə qürurlu, şanlı günlər yaşadacağının tam əminliyi ilə...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# MÖHTƏŞƏM 21 İL 2003 2024



# İdmanda İLHAM ƏLİYEV nümunəsi

**21 il öncə, 2003-ci il oktyabrın 15-də cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq Azərbaycan Prezidenti seçilməsi və bu günədək baş verən proseslər seçimin nə dərəcədə doğru olduğunu isbatladı. Prezident İlham Əliyev eyni zamanda Azərbaycanda Olimpiya Hərəkatının banisidir. Ölkəyə rəhbər seçilməmişdən öncə, 1997-ci ildə Milli Olimpiya Komitəsinin (MOK) prezidenti olduqdan sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə işlər görüldü.**

## Olimpiya hərəkatında yüksəliş mərhələsi

İdman paytaxtına çevrilən Bakıda ən nüfuzlu beynəlxalq yarışların təşkili Azərbaycana böyük imic qazandırıb. "Bakı-2015" ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, "Formula-1" Qran-prilərinin futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 qarşılaşmasının və müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həvalə edilməsi son illər bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

Tarixə nəzər yetirsək görərik ki, bu uğurlara elə də asan nail olunmayıb. Müstəqilliyinin bərpasından sonra, ötən əsrin 90-cı illərində Azərbaycanda mövcud olan böhran bir çox sahələrin, o cümlədən idmanın inkişafına da mənfi təsir etmiş, idman dövlət qayğısından kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi ilə idman sahəsi də ölkənin inkişaf istiqamətlərindən birinə çevrildi. Ümummilli Lider yaxşı bilirdi ki, ölkənin parlaq gələcəyi gənclər və idman siyasətinin düzgün yeridilməsi ilə bağlıdır. Odur ki, onun təməli vaxtında qoyulmalıdır. Buna görə də dahi liderin fərmanına əsasən, 1994-cü ildə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Bu, Azərbaycanın müasir idman tarixinin başlanğıcı oldu. Ardınca isə 1995-ci ildə Prezident yanında İdman Fondu yaradıldı.

İlham Əliyevin MOK-a Prezident seçilməsindən sonra isə Azərbaycanda idman sahəsi özünün intibah dövrünə qədəm qoydu. Bu gün dünyanın mötəbər idman yarışlarında, Olimpiya Oyunlarında Azərbaycan bayrağı yüksək zirvələrdə dalğalanır. Həmçinin paytaxt Bakının ən nüfuzlu beynəlxalq yarışların təşkilinə, yüksəksəviyyəli evsahibliyinə görə Azərbaycan böyük nüfuz qazanıb.

İlham Əliyevin rəhbərliyi altında Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq çox idi. Bunların sırasında beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olduqca böyük əhəmiyyət kəsb edirdi. Qarşıya çıxan bütün problemləri bacarıqla həll edən İlham Əliyev Olimpiya hərəkatının məqsəd və vəzifələrini, fəaliyyət sisteminin ardıcıl istiqamətlərini də müəyyənləşdirdi.

## Maddi-texniki bazanın yaxşılaşdırılmasının əsası

Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 50-yə yaxın Olimpiya İdman Kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub. Paytaxtımızda ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilən komplekslər əsaslı təmir olunub, eyni zamanda son illərdə bir neçə böyük stadion, idman qurğusu inşa edilib. Bu sırada təxminən 70 min tamaşaçı tutumuna malik olan Olimpiya stadionunu xüsusi qeyd etmək lazımdır. Bundan əlavə, Milli Gimnastika Arenası, Su İdman Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi üçün dövlət büdcəsindən böyük vəsait ayrılıb. Bunlarla yanaşı, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. İndi, demək olar ki, respublikamızın bütün bölgələrində Olimpiya kompleksləri fəaliyyət göstərir. Azərbaycanın ucqar rayonlarında müxtəlif idman növləri ilə məşğul olmaq üçün mövcud şərait var. Ümumilikdə son illər ərzində həm bölgələrdə, həm də Bakıda idmanın inkişafına xüsusi diqqət yetirilməsi öz bəhrəsini verməkdədir.

## Olimpiadalarda medal yağışı

İdmana və gənclərə göstərilən qayğı çox keçmədi ki, öz bəhrəsini verdi. Atletlərimiz çıxış etdikləri son 8 olimpiadada möhtəşəm tarixi zəfərlərə imza atdılar. Onları bir daha xatırladırıq. 1996-cı ildə ABŞ-də keçirilən Atlanta Olimpiadasında 23 idmançı ilə təmsil olunan Azərbaycan 1 gümüş medalla 61-ci yeri tutmuşdu. İdmançılarımız arasında yeganə olaraq gümüş medalı 52 kq çəki dərəcəsində yarışan sərbəst güləşçimiz Namiq Abdullayev qazanmışdı.

2000-ci ildə Sidneydə 31 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl və 1 bürünc medalla dünyada 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Komandamıza ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında Zemfira Meftahəddinova qazandırdı. Ölkəmizə ikinci qızıl medalı Atlanta oyunlarının gümüş mükafatçısı, güləşçi Namiq Abdullayev gətirdi. Boksçu Vüqar Ələkbərov bürünc medala sahib oldu.

21-ci minilliyin ilk Olimpiya Oyunlarında - "Afina-2004"də 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində 22 yaşlı Fərid Mansurov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl, atıcılıq üzrə yarışlarda kiçikçaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, "Sidney-2000" Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftahəddinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar. Afinada yarımfinala yüksələn ilk Azərbaycan boksçusu Ağası Məmmədovun çəki problemi onu bürünc medalla kifayətlənməyə məcbur etdi. Ölkəmizin aktivinə yazılan 4 bürünc medaldan biri isə digər boksçumuz Fuad Aslanovun payına düşdü.

2008-ci ildə Pekində təşkil edilən Olimpiadada Azərbaycan 12 idman növündə 44 atletlə təmsil olundu. Komandamız Olimpiya Oyunlarında ilk dəfə olaraq hər üç əyarda medallar qazandı. Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) gətirdi. Gümüş medalı yunan-Roma güləşində Rövşən Bayramov (55 kq) qazandı. Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq), qadın güləşində Mariya Stadnik (48 kq), boksda Şahin İmranov (57 kq) və cüdoda Mövlud Mirəliyev (100 kq) bürünc medala layiq görüldülər. Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 6 medalla (1 qızıl, 1 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

2012-ci ildə London Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 9 medal (2 qızıl, 2 gümüş, 5 bürünc) qazandılar. Bununla da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci oldu. İki qızıl, iki gümüş və beş bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MDB-də isə 5-ci yeri tutdular. Londonda Toğrul Əsgərov və Şərif Şərifov qızıl, Rövşən Bayramov və Mariya Stadnik gümüş medalların sahibi oldular. Digər üç güləşçimiz Emin Əhmədov, Yuliya Ratkeviç və Xetaq Qazyumov isə mübarizələrini bürünc medalla başa vurdular. Digər iki bürünc medalları isə boksçularımız Teymur Məmmədovla Məhəmmədrəsul Məcidov qazandılar.

2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirdə Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq islam, türk və Qafqaz ölkələri arasında lider oldu. Pəhləvanlarımız bu dəfə də 9 medal qazandılar. Güləş yığmamızın aktivinə 3 gümüş medalı pəhləvanlar (Mariya Stadnik, Toğrul Əsgərov və Xetaq Qazyumov) əlavə etdilər. Digər 6 güləşçimiz - Cəbrayıl Həsənov, Rəsul Çunayev, Nataliya Sinişin, Sabah Şəriəti, Şərif Şərifov və Hacı Əliyev çıxışlarını bürünc medalla başa vurdular. Cüdoçulardan Rüstəm Orucov və Elmar Qasımov 4 illiyin zirvə yarışını gümüş medalla başa vurdular.

Tarixində ilk dəfə Olimpiya Oyunlarında mükafat qazanan taekvondo üzrə Azərbaycan millisi "Rio-2016"da ən yaxşılardan olub. Braziliyaya 4 idmançı ilə yollanan yığmamız okeanın o tayında 3 medal əldə edib. Radik İsayev Azərbaycanın yeganə qızıl medalının sahibi olub. Milad Beiqi Harçeqani və Patimat Abakarova bürünc medal qazandıqlarına sevindilər. Boksçulardan Sotomayor Lorenzo gümüş, Kamran Şahsuvarlı bürünc medala sahib oldular. Ölkəmizin hesabına daha bir gümüş medalı avarçəkmə yarışlarında Valentin Demyanenko, bürüncü isə İnna Osipenko-Rodomskaya əlavə etdilər.

Pandemiya səbəbindən bir il təxirə salınan "Tokio-2020" Olimpiadasına 44 idmançı ilə qatılan Azərbaycan komandası turniri 3 gümüş və 4 bürünc medalla başa vurub. Gümüş medalların 2-si karate, 1-i güləş, bürünc mükafatlardan isə 2-si güləş, 1-i cüdo, 1-i boks yarışlarında qazanılıb. Karateçilərimizdən Rafael Ağayev (kumite, 75 kq) və İrina Zaretska (kumite, +61 kq) təkcə finalda uduzaraq gümüş medallara sahib olublar. Digər gümüş medalın sahibi sərbəst güləşçi Hacı Əliyevdir. Yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (77 kq) və qadın güləşçimiz Mariya Stadnik (50 kq) Olimpiadanı bürünc medallarla başa vurdular. Ölkəmizin aktivinə digər bürünc medalları cüdoçu İrina Kindzerska (+78 kq) və boksçu Alfonso Dominqes (81 kq) yazdırdılar.

Bu il Fransanın paytaxtı Parisdə təşkil edilən XXXIII Yay Olimpiya Oyunlarına 48 idmançı ilə qatılan Azərbaycan komandası turniri 2 qızıl, 2 gümüş və 3 bürünc medalla başa vurub. Qızıl medallar cüdo, gümüş medalların 1-i boks, 1-i taekvondo, bürünc mükafatlar isə güləş yarışında qazanılıb. Cüdoçularımız Hidayət Heydərov və Zelim Kotsoyev qızıl medallar qazanaraq ölkəmizin idman tarixinə yüksək töhfə verdilər. Boksçumuz Loren Alfonso Dominqes (92 kq) və taekvondoçumuz Qaşım Maqomedov (58 kq) "Paris-2024"ü gümüş medalla başa vurdular. Yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kq), sərbəst güləşçilər Giorgi Meşvildişvili (125 kq) və Maqomedxan Maqomedov (97 kq) ölkəmizin aktivinə bürünc medalları yazdırdılar.









## Avropanın ən böyük idman hadisəsi

2015-ci ilə nəzər yetirdikdə isə, diqqətçəkən ən böyük idman hadisəsi, sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının Bakıda keçirilməsi idi. Ölkəmiz 2 ildən çox davam etdirilən yüksəksəviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu yarışı layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi.

İlk Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar 2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin (AOK) 41-ci Baş Assambleyasında qəbul edilib. AOK Baş Assambleyasının qərarı səsvermədə iştirak edən 48 nəfərdən 38-nin səs çoxluğu ilə qəbul edilib.

Prezident İlham Əliyev 2013-cü il 17 yanvarda "I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın sədrliyi ilə Bakı şəhərində I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb.

Bu tipli oyunlar üçün 7-8 il zaman verilsə də, Azərbaycanın Avropa Oyunlarına hazırlıq üçün cəmi iki il yarım vaxtı vardı. Olimpiadanın keçirilməsində böyük təcrübə mövcuddur və Beynəlxalq Olimpiya Komitəsi, demək olar ki, hər bir sahə üzrə öz göstərişlərini verir. Mövcud təlimatlarda hər bir istiqamət üzrə müəyyən edilmiş metodiki qaydalar var. I Avropa Oyunları üçün isə heç bir təlimat və təcrübə yox idi. Belə olan halda bütün məsuliyyət, təşkilati məsələlərin yoluna qoyulması Azərbaycanın öz üzərinə düşürdü.

AOK-un qəbul etdiyi qərardan keçən müddətdə oyunlara hazırlıq işlərinin sürəti və miqyası gözlənilməz səviyyədə artmışdı. Mehriban xanım Əliyevanın başçılıq etdiyi Təşkilat Komitəsinin apardığı gərgin və məqsədyönlü işin səmərəsi göz önündə idi. Avropa Oyunlarının keçiriləcəyi idman qurğularının tikintisi və təkmilləşdirilməsi işi dünya standartlarına uyğun və yüksək keyfiyyətlə aparıldı. Cəmi iki il yarımdan da az vaxtda 5 yeni idman kompleksi tikilərək istifadəyə verildi. Bunlar Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Bakı Su İdmanı Sarayı və Veloparkdır.

Yarışların keçirildiyi digər idman qurğuları isə tamamilə yenidən quruldu, ən müasir standartlara uyğunlaşdırıldı. Qısa müddətdə bu qədər işin görülməsi, həqiqətən, gərgin və fədakar zəhmət tələb edirdi. Lakin ölkəmiz ən yüksək formada bunun öhdəsindən gəlməyi bacardı. Bakıda yeni infrastrukturun yaradılması və Oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi təsdiqlədi ki, Təşkilat Komitəsi hazırlıq işlərini göstərilən vaxtdan da əvvəl yüksək səviyyədə başa çatdırmaqla misli görünməmiş bir uğura imza atdı.

Bu uğurların qazanılmasında, sözsüz ki, Avropa Oyunları Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyevanın xüsusi rolu vardı. Prezident İlham Əliyevin dediyi kimi, Təşkilat Komitəsi tərəfindən hər bir xırda məsələ ilə bağlı işlər yüksək səviyyədə görüldü. Mehriban Əliyeva bu oyunların keçirilməsinə çox böyük töhfə verdi. Dövlət başçısı Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban xanım Əliyevanı "Heydər Əliyev" ordeni ilə təltif etdi.

## Uğur estafeti IV İslam Həmrəyliyi Oyunlarında davam etdirildi

Uğur estafeti "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında da davam etdi. 2017-ci ilin mayında paytaxtımız müsəlman aləminin idman mərkəzinə çevrildi. İslam dünyasının idman həyatı üçün əlamətdar olan "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları çox böyük uğurla yekunlaşdı.

2015-ci il sentyabrın 18-də Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qarşıya qoyulan vəzifələri uğurla həyata keçirdi. Ölkə rəhbərliyinin diqqət və qayğısı, Təşkilat Komitəsinin yüksək təşkilatçılığı sayəsində IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə baş tutmasına lazımi şərait yaradıldı.

Təşkilat Komitəsinin 2 il ərzində məqsədyönlü fəaliyyəti digər təşkilatlara örnək oldu. Bakının 16 idman arenasının hər biri yarışlara yüksək səviyyədə hazırlandı və digər zəruri təşkilati tədbirlər həyata keçirildi. Müsəlman ölkələrinin federasiya nümayəndələri, ən yaxşı idmançıları, şəhərimizin qonaqları Bakıda aparılan hazırlıq işlərindən, onlar üçün yaradılan ideal şəraitdən, xalqımızın qonaqpərvərliyindən, bir-birindən modern idman arenalarından, xüsusən də təntənəli açılış və bağlanış mərasimlərindən heyrətə gəlmişdilər.

Beləliklə, Azərbaycan idmançıları qazandıqları nəticələri təkrar etmək, tutduqları mövqeyi qoruyub saxlamaq və yaxşılaşdırmaq uğrunda gərgin mübarizə aparırlar. Müxtəlif irimiqyaslı yarışlarda idmançılarımızın qələbələri və yeni gənc idmançılar nəslinin aşkar olunan potensial imkanları ölkəmizin qarşıdakı nüfuzlu yarışlarda da yüksək nəticələr göstərərək, əvvəlki mövqelərini daha da yaxşılaşdıracağına inam yaradır.

Bu gün Azərbaycan idmanı tarixinin çox şərəfli və tərəqqi dövrünü yaşamaqdadır. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevin bu sahəyə göstərilən xüsusi diqqət və qayğısının bəhrəsidir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "ADA Universitetinin yeni Şəki kampusunun dizaynı" üzrə sertifikatlaşdırılmış təlim proqramına yekun vurulub

**Oktyabrın 14-də ADA Universitetində Milan Politexnik Universitetinin nümayəndə heyətinin səfəri çərçivəsində "ADA Universiteti Dizayn və memarlıq fakültəsinin ilk ilinin nəticələri" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfrans eyni zamanda Milan Politexnik Universitetinin dəstəyi ilə təşkil olunmuş "ADA Universitetinin yeni Şəki kampusunun dizaynı" üzrə sertifikatlaşdırılmış praktiki təlim proqramının yekun mərasiminə təsadüf edib.

















Tədbirdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev bildirib ki, İtaliya-Azərbaycan Universiteti iki ölkə arasında genişlənən əlaqələrə təhsil vasitəsilə verilən töhfədir. İtaliya universitetləri ilə yanaşı, yerli özəl qurumların da bu layihəyə göstərdiyi dəstək özlüyündə təhsil layihələri üzrə əməkdaşlığa nümunədir və ölkəmizin yerli kadr hazırlığı işinə müsbət mənada təsir göstərir.

İtaliya-Azərbaycan Universiteti üzrə işçi qrupun rəhbəri Qalib Məmməd çıxışında qeyd edib ki, ADA Universiteti tərəfindən həyata keçirilən layihələrin, təqdim edilən proqramların və ixtisasların hər biri milli quruculuğa töhfədir; fikri, əməli, düşüncə tərzi ilə ölkəmizi gələcəyə aparacaq nəslin yetişdirilməsinə dəstəkdir.

Milan Politexnik Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru İlaria Valenten İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində davam edən əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, təqdim edilən proqramlar vasitəsilə müasir düşüncəyə, praktiki bacarığa malik azərbaycanlı memarların yetişdirildiyini vurğulayıb. Tədbir sözügedən universitetin memarlıq, dizayn və şəhərsalma departamentlərinin direktorlarının çıxışı ilə davam edib. Çıxışçılar yeni nəsil memarların, dizaynerlərin və şəhərsalma mütəxəssislərinin yetişdirilməsinin vacibliyinə toxunublar.

Qeyd edilib ki, İtaliya-Azərbaycan Universiteti çərçivəsində irəli sürülən təşəbbüslər dövlət-özəl-universitet arasındakı əməkdaşlığın uğurlu nümunəsidir.

Konfransda həmçinin ADA Universitetinin Dizayn və memarlıq fakültəsinin dekanı Silvia Deborah Ferraris çıxış edib. O, fakültənin fəaliyyət göstərdiyi bir il ərzində əldə etdiyi nəticələrdən danışıb.

Sonra Şəki qoruğunun baş memarı Seyran Məmmədov Şəkinin memarlıq irsi barədə danışıb, bu qədim şəhərdə dövlət tərəfindən mühafizə olunan tarixi yaşayış evlərinin üstünlük təşkil etdiyini vurğulayıb, ADA Universitetinin bu yaşayış abidələrinin bərpasına akademik dəstəyini müsbət qiymətləndirib.

Tədbirin sonunda tarixi və memarlıq binalarının yeni təyinat üzrə bərpası və urbanistik kontekstdə canlandırılması ilə bağlı nümunələr əsasında hazırlanmış dörd layihənin təqdimatı keçirilib. Layihələri qiymətləndirən münsiflər heyəti qalib komandanı elan edib, onlara sertifikat və mükafatlarını təqdim edib.

Qeyd edək ki, özəl və dövlət sektorlarından 14 gənc memarın cəlb olunduğu layihə Şəki, Milan və Bakıda olmaqla 3 mərhələli modullar formatında təşkil edilib.

Layihədə komandalar tərəfindən 6 ay boyunca müxtəlif təhlil və sorğular aparılıb, rəsmlər, eskizlər, 3D vizuallar vasitəsilə ilkin modellər hazırlanıb.

Dizayn və memarlıq fakültəsinə bu il 80 tələbə qəbul olub. Onlar arxitektura və interyer dizayn üzrə təhsil alırlar.

Yaxın gələcəkdə isə iki yeni ixtisas təqdim ediləcək.

# AZƏRTAC-ın İdarə Heyətinin sədri: "Kəmər və yol" ölkələrinin media qurumlarının COP29-u işıqlandırmaq üçün sıx əməkdaşlığı vacibdir

**Çinin Sincan Uyğur Muxtar Rayonunun paytaxtı Urumçi şəhərində 6-cı Dünya Media Sammiti keçirilir.**




AZƏRTAC xəbər verir ki, "Sinxua" agentliyinin evsahibliyi ilə keçirilən tədbirə təxminən 100 ölkənin 208 media qurumundan, müvafiq dövlət orqanlarından 500-dən çox nümayəndə, o cümlədən beyin mərkəzlərinin rəhbərləri, tanınmış ekspertlər, BMT də daxil olmaqla beynəlxalq təşkilatların nümayəndələri qatılıb. Azərbaycanı tədbirdə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev təmsil edir.

"Süni intellekt və medianın transformasiyası" devizi altında keçirilən sammitin açılış mərasimində çıxış edən Sincan Uyğur Muxtar Rayonu partiya komitəsinin sədri Ma Sinruy, "Sinxua" agentliyinin prezidenti Fu Hua, Sincan Uyğur Muxtar Rayonu hökumətinin rəhbəri Erkin Tuniyaz, xarici media qurumlarının rəhbərləri hazırda süni intellekt də daxil olmaqla qabaqcıl texnologiyaların xəbərlərin toplanması, istehsalı və yayılmasını əhatə edən media sənayesinin müxtəlif sahələrinə təsir etdiyini bildiriblər, süni intellekt texnologiyasının yaratdığı problemlərin həlli və media sənayesini gücləndirmək üçün qabaqcıl innovasiyalardan istifadənin qlobal media qurumları üçün əsas problemə çevrildiyini vurğulayıblar.

Qeyd olunub ki, dünya siyasi, iqtisadi, sosial, texnoloji, ekoloji sahələrdə həm müsbət, həm də mənfi istiqamətdə əhəmiyyətli dəyişikliklərlə üzləşir. Bu dəyişikliklər mediaya təsirsiz ötüşmür. Ona görə də media qurumları, jurnalistlər çağırışlara cavab vermək, yeniliklərə uyğunlaşmaq üçün yeni yollar axtarmalı, yeni yanaşmalar, üsullar tətbiq etməlidirlər.

Sammitin plenar iclasında çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev dünyada baş verən dəyişikliklər fonunda medianın qarşılaşdığı çətinliklərin, çağırışların müxtəlif ölkələrdən olan ekspertlərin, səlahiyyətli şəxslərin birgə müzakirə aparması üçün Dünya Media Sammitinin əlverişli platforma olduğunu bildirib. V.Əliyev iqlim dəyişmələri və onunla mübarizədən, ictimaiyyətin bu sahədə məlumatlandırılmasında medianın oynadığı roldan söz açıb.

Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə məlumat verən AZƏRTAC-ın İdarə Heyətinin sədri bildirib ki, ətraf mühitin mühafizəsi sahəsində dünyada ən böyük tədbiri işıqlandırmaq üçün 1000-dən çox jurnalist qeydiyyatdan keçib. V.Əliyev qədim tarixin, ortaq mədəni dəyərlərin, iqtisadi əməkdaşlığın birləşdirdiyi "Kəmər və yol" ölkələrinin media qurumlarının iqlim dəyişmələri ilə mübarizə məsələlərinin müzakirə edildiyi və qərarların qəbul olunduğu COP29 kimi qlobal əhəmiyyətli tədbiri işıqlandırmaq üçün sıx əməkdaşlığının vacibliyini vurğulayıb. O, dezinformasiyaların qarşısını almaq üçün jurnalistlərin iqlim prosesləri barədə məlumatlılığının artırılmasının əhəmiyyətindən söz açıb.

Qeyd edək ki, Dünya Media Sammiti 2009-cu ildə "Sinxua", "Associated Press", "Reuters", "Kyoda" və TASS İnformasiya Agentliyi daxil olmaqla aparıcı media qurumlarının birgə təşkilatçılığı ilə təsis edilib və elə ilk sammit də Çində, Pekində keçirilib. Ardınca Moskva və Dohada sammitlər təşkil olunub. Pandemiyanın səngiməsindən sonra digər beynəlxalq tədbirlər kimi Dünya Media Sammitinin işi də bərpa olunub. Ötən il Çinin Quancou şəhərində 5-ci Sammit keçirilib.

## ZƏFƏR gündəliyi
## 15 oktyabr 2020-ci il

# İlham ƏLİYEV: "Biz Zəfər marşındayıq"

**Oktyabrın 14-dən 15-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi vəziyyət gərgin olaraq qalıb.**

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.

## Düşmənin canlı qüvvəsi, döyüş texnikası, silah-sursatı, yanacağı tükənib



Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Düşmənin canlı qüvvəsi, döyüş texnikası, silah-sursatı, yanacağı tükənib.

## Tərtərdə dəfn mərasimi zamanı əraziyə ağır artilleriyadan atəş açılıb



Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutublar. Tərtər rayonunda dəfn mərasimi zamanı əraziyə ağır artilleriyadan atəş açılıb. Ölən və yaralananlar olub.

## "Düşmənin 1 milyard dollardan çox dəyərində hərbi texnikası məhv edilib"

Prezident İlham Əliyev Rusiyanın "Ria Novosti" Agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib.

Ali Baş Komandan döyüş əməliyyatlarının nəticələri ilə bağlı verilən suala cavabında deyib ki, Azərbaycan Ordusu düşmənin dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmağa nail olub: "Bəzi sahələrdə hətta 4 müdafiə xətti vardı. Lakin ərazinin relyefi, dağ relyefi, əlbəttə, müdafiə olunmaq üçün əks-hücumla müqayisədə daha münasibdir. Bu günə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk".

Prezident deyib ki, təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan çox dəyərində hərbi texnikası məhv edilib.

## Mehriban ƏLİYEVA: "Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində paylaşım edib:

"Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

## İlham ƏLİYEV: "Bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq"

Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verərək bir daha Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışıb. Prezident qeyd edib ki, döyüş meydanında əsas hədəf strateji yüksəklikləri işğalçılardan azad etmək və böyük əraziləri nəzarət altına almaqdır:

"Bizim uğurlu əməliyyatımız davam edir. Bu günə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir".

Ali Baş Komandan əməliyyatların tədricən, vahid bir planlama əsasında aparıldığını və bütün hədəflərin seçildiyini söyləyib.

Prezident bir daha Ermənistana mesaj ünvanlayıb: "Ermənistan tərəfi, sadəcə olaraq, bu reallıqla hesablaşmalı və təcavüzünü dayandırmalıdır, atəşkəsə əməl etməlidir və qalan torpaqlardan da öz xoşu ilə çıxmalıdır ki, qan tökülməsin və bundan sonra bu məsələ sülh yolu ilə həll edilsin. Biz indi torpaqlarımızı azad edirik. Biz bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq, şəhərlərimizdə mövcud olan binalara sancırıq, biz zəfər marşındayıq".

## Ali Baş Komandandan növbəti müjdəli xəbər


İlham Əliyev
@azpresident
Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Prezident xalqa növbəti xoş xəbəri çatdırıb. İlham Əliyev özünün rəsmi "X" səhifəsində yazıb: "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

## İlham Əliyevdən fransız jurnalistin təxribatçı sualına diplomatik cavab

"France 24" televiziya kanalına müsahibə verən Prezident İlham Əliyev bir daha həqiqətləri söyləyib. Ermənistanın humanitar atəşkəsə əməl etmədiyini vurğulayan İlham Əliyev bəzi təxribatçı suallara da diplomat və Ali Baş Komandan kimi cavab verib.

Jurnalistin "Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?" sualını Prezident belə cavablandırıb: "Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır".

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Tədrisin keyfiyyəti artırılmalı, qabaqcıl beynəlxalq standartlar əsasında müasirləşməlidir

## AHİK sədri qurumun Əmək və Sosial Münasibətlər Akademiyasında tədrisin vəziyyəti ilə maraqlanıb

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) rəhbərliyi AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasında olub.**

Bildirilib ki, ali təhsil ocağında Maliyyə-iqtisad və Sosial iş fakültələri fəaliyyət göstərir. Maliyyə-iqtisad fakültəsinin nəzdində 3 kafedra, 2 araşdırma mərkəzi və 2 tədris laboratoriyası, Sosial iş fakültəsində isə 2 kafedra var. Hazırda bir tədris laboratoriyası və araşdırma mərkəzi qurulma mərhələsindədir. Bakalavr səviyyəsində 1026, magistratura səviyyəsində 48 tələbə təhsil alır.

AHİK sədri Sahib Məmmədov akademiyanın binasında professor-müəllim heyəti üçün nəzərdə tutulmuş otaqlara, tələbələr üçün tədris zallarına, müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və akt zallarına, kitabxanaya baxıb, burada mövcud şəraitlə maraqlanıb.

Sonra akademiyanın professor-müəllim heyəti ilə keçirilən görüşdə rəhbərlik və müəllimlərlə söhbət aparılıb, tədrisin vəziyyəti barədə danışılıb. AHİK sədri bildirib ki, ölkəmizdə digər sahələr kimi, təhsil sahəsi də cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə davamlı olaraq inkişaf etdirilir və bu istiqamətdə aparılan islahatlarla beynəlxalq standartlara uyğunlaşdırılıb. O həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Azərbaycanda təhsilin inkişafı naminə uğurla reallaşdırdığı layihələrdən bəhs edib.

Akademiyada səmərəli idarəetmə mexanizminin formalaşdırılması, tədrisin keyfiyyətinin artırılması, qabaqcıl beynəlxalq standartlar əsasında müasirləşdirilməsi, eləcə də dünyanın nüfuzlu universitetləri ilə münasibətlərin qurulması və təcrübə mübadilələrinin aparılmasının zəruriliyini diqqətə çatdıran konfederasiya sədri akademiyanın abituriyentlər üçün cəlbedici olması, məzunlarına əmək bazarında tələbatın yüksəldilməsi üçün tədbirlər görülməsi barədə tapşırıqlar verib.








Həmçinin əmək bazarının tələbləri və dünya təcrübəsi nəzərə alınmaqla akademiyada yeni ixtisasların yaradılması və "AHİK könüllüləri" proqramı iştirakçılarına təlimlərin keçirilməsi qərara alınıb.

AHİK-in qarşıdakı startap layihələri barədə danışan konfederasiya sədri bunun həmkarlar ittifaqlarının səmərəli fəaliyyətində önəmini qeyd edib. Sonra həmin binada yerləşən AHİK-in üzv təşkilatlarının iş şəraiti ilə tanışlıq olub.

# İstanbulda miqrant uşaqların müdafiəsi məsələsi müzakirə olunub






**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti beynəlxalq konfransda iştirak etmək üçün İstanbul şəhərində səfərdə olub.**

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən məlumat verilib.

Beynəlxalq konfrans "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin və Türkiyə Konstitusiya Məhkəməsinin qərarları işığında miqrasiya və insan hüquqları" mövzusunda keçirilib. Konfransda Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədr və hakimləri, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimləri, bir sıra Avropa dövlətlərinin Konstitusiya məhkəmələrinin, Türkiyənin dövlət orqanlarının rəhbərləri və nümayəndələri iştirak ediblər.

Konfransın praktiki hissəsində Miqrasiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası, Konstitusiya Məhkəməsinin deportasiya məsələləri üzrə məhkəmə təcrübəsi, Avropa Konvensiyası çərçivəsində miqrant uşaqların müdafiəsi, eləcə də digər mövzulara dair məruzələr dinlənilib, müzakirələr aparılıb.

Tədbirdə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev məruzə ilə çıxış edib, respublikamızın 30 ildən artıq üzləşdiyi qaçqın və məcburi köçkün problemini iştirakçıların diqqətinə çatdırıb, 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər nəticəsində Azərbaycan Respublikasının dövlət suverenliyinin və ərazi bütövlüyünün tam bərpa edildiyini, bununla da həmin şəxslərin pozulmuş bir sıra konstitusion hüquqlarının bərpa edildiyini vurğulayıb.

F.Abdullayev planetimizin üzləşdiyi ən böyük problemlərdən birinin qlobal iqlim dəyişmələri olduğunu bildirib, cari ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın evsahibliyi edəcəyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Səfər çərçivəsində Türkiyənin Konstitusiya Məhkəməsinin sədr və hakimləri ilə məhkəmə hüquq sahəsində fikir mübadiləsi aparılıb.

# "Dünyaya səslənirik, itkin düşən doğmalarımızın taleyinə aydınlıq gətirməsi üçün Ermənistana təzyiq göstərilsin"

**İtkin düşənlərin ailə üzvlərinin harayına qoşularaq, onların doğmalarının tapılması üçün dünya ictimaiyyətinə, beynəlxalq qurumlara üz tutur, bu işdə yardım göstərməyə çağırırıq. İtkin düşən şəxslər haqqında məlumatların təqdim edilməsi üçün Ermənistana təzyiq göstərilməsi vacibdir.**




AZƏRTAC-ın işğaldan azad edilmiş ərazilərə ezam olunmuş əməkdaşının məlumatına görə, bu barədə "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri Könül Behbudova jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, Azərbaycanda müharibə qurbanı olan 4 minə yaxın şəxsin taleyindən hələ də xəbər yoxdur: "Ağır və çətin olsa da, biz itkin ailələri məzarsız şəhidlərimizin döyüşdüyü torpaqları qürurla ziyarət edirik. Çünki biz artıq 30 ildən sonra azad, müstəqil Azərbaycanın bütövləşən torpaqlarındayıq. Bu torpaqlara bizim itkin düşən şəhidlərimizin qanı tökülüb. Bu torpaqlarda itkinlərimiz, şəhidlərimiz öz qanları ilə tarix yazıblar. İndi burada olan itkin düşmüş şəxslərin ailələri 33 ildə inanılmaz əzab və iztirab çəkiblər".

"Biz 33 ildir ki, gözü yolda qalan itkin ailələriyik. İndiyədək qeyri-müəyyənlik içərisində yaşamışıq. Çünki itkin düşənlərimizin başına nələr gəldiyindən xəbərimiz yoxdur. Onların necə və hansı şəraitdə öldürüldüyünü, əzab və əziyyətlə qətlə yetirildiyini bilmirik. Ancaq bu gün BMT də daxil olmaqla, dünya birliyi bütün bunlara göz yumur. Bu azmış kimi, saysız müharibə cinayətləri törədən, əli günahsız insanların qanına batan Ermənistana yardım edir. Bu gün hamımız itkin ailələrinin səsi olaraq dünyaya müraciət edirik. Biz 33 ildir Ermənistanın qəbuledilməz mövqeyinə görə doğmalarımızdan xəbər ala bilmirik, 4 minə yaxın soydaşımızın taleyindən xəbərsizik", - deyə İctimai Birliyin sədri bildirib.

K.Behbudova ermənilərin törətdiyi bəşəri cinayətlər arasında olan ərazilərin minalarla çirkləndirilməsinin hazırda da dinc əhali üçün böyük təhlükə yaratdığını, dünyanın bu əməllərə göz yumduğunu vurğulayıb: "Biz işğaldan azad olunan ərazilərimizə sərbəst gedə bilmirik. Çünki torpaqlarımız mina və partlamamış hərbi sursatlarla çirkləndirilib. Biz itkin ailələri olaraq, dünyaya səslənirik. İtkinlərimizin qalıqlarının yerini bizə desinlər, tapdalanan hüquqlarımızın müdafiəsinə qalxsınlar. İtkin düşən doğmalarımızın taleyinə aydınlıq gətirməsi üçün Ermənistana təzyiq göstərsinlər. Bu cinayəti törədənlərin haqq-ədalət qarşısında cavab vermələri təmin olunsun. Biz bunu bütün dünyadan tələb edirik. Səsimizin beynəlxalq təşkilatlara çatmasını istəyirik".

# *Ombudsman:* "Beynəlxalq ictimaiyyət Ermənistanın mina terroruna səssiz qalmamalıdır"

**"Ermənistan tərəfindən torpaqlarımızda basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçuların həyat və sağlamlığına ciddi təhlükə yaratmaqda davam edir. Belə ki, oktyabrın 14-də Qazax rayonunun Quşçu Ayrım kəndi ərazisində bir nəfər mülki şəxs piyada əleyhinə minaya düşərək yaralanıb. Qeyd etmək istərdik ki, İkinci Qarabağ müharibəsindən bu günədək 380-dən çox şəxs mina qurbanı olub və bu acı statistika davam etməkdədir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Qazaxın Quşçu Ayrım kəndi ərazisində baş vermiş mina partlayışı ilə bağlı açıqlamasında söyləyib.

O deyib: "Ermənistan tərəfindən ərazilərimizdə basdırılmış minaların dəqiq xəritələrinin ölkəmizə təqdim edilməməsi insanların yaşamaq və sağlamlıq hüququnu kobud şəkildə pozmaqla yanaşı, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıdışına, sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına, eləcə də bölgədə həyata keçirilən bərpa-quruculuq işlərinə ciddi maneə yaradır. Bununla yanaşı, həmin minaların partlaması suyun və havanın çirklənməsi, torpaqların strukturunun pozulması, ümumilikdə ekoloji böhranın yaranması ilə də nəticələnir.



Beynəlxalq ictimaiyyət dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi istiqamətində Ermənistana ciddi təsir göstərməli, bu ölkənin mina terroruna səssiz qalmamalı, törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməlidir".




# COP29 bəşəriyyətin xilası üçün həlledici fürsətdir

**Azərbaycan daha bir qlobal tədbir ərəfəsindədir. Ölkəmizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a hazırlıqlar yüksək səviyyədə davam edir. Prosesin mühüm tərkib hissəsi kimi bu günlər Pre-COP29 konfransı da uğurla keçirildi. Bu, əsas tədbirin hazırlıq mərhələsi olub, ölkələr və maraqlı tərəflər arasında COP sammitində müzakirə ediləcək mövzuları, hədəfləri formalaşdırmaqdan ötrü təşkil olunur.**




Pre-COP tədbiri iştirakçıların rəsmi sammitdən əvvəl mövqelərini bir daha nəzərdən keçirmələri, müzakirə olunacaq məsələləri təhlil etmələri və ortaq razılıqlara gəlmələri üçün platforma yaradır. Pre-COP mərhələsində ölkələr arasında danışıqlar aparılır, əsas müzakirə mövzuları üzərində razılaşmalar əldə olunur. Beynəlxalq tərəflər iqlim dəyişikliyi ilə bağlı öhdəliklər, maliyyə dəstəyi, emissiyaların azaldılması kimi məsələlər üzrə ortaq mövqeyə gəlməyə çalışırlar.

Bu baxımdan bir neçə gün əvvəl keçirilən Pre-COP, Azərbaycanın bu ilin noyabrında evsahibliyi edəcəyi COP29 ərəfəsində müxtəlif ölkələrin və beynəlxalq təşkilatların iqlim dəyişikliklərinə qarşı mübarizədə hansı addımlar atacağını müzakirə etdikləri mühüm bir hazırlıq platforması kimi öz missiyasını uğurla yerinə yetirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pre-COP29 tədbiri iştirakçılarına müraciəti isə bu tarixi tədbirin ən mühüm sənədlərindən biri kimi daim xatırlanacaq, müraciətdə öz əksini tapmış fikirlər gələcəyə doğru istiqamət verəcək.

## Azərbaycan da iqlim dəyişikliyindən zərərçəkən ölkədir

Azərbaycan Prezidentinin Pre-COP29 tədbirinə müraciəti geniş və çoxşaxəlidir. Burada iqlim dəyişikliklərinin yaratdığı qlobal problemlərdən bəhs edilir və Azərbaycanın bu sahədəki fəaliyyətləri vurğulanır. Cənab İlham Əliyevin müraciətində bu gün bütün dünyanı təhdid edən iqlim dəyişikliyi probleminin dəqiq təsviri verilir, qlobal perspektivləri aydın göstərilir. Məlum olduğu kimi, müasir dünyamızda iqlim dəyişikliyi problemi bütün qitələrdəki ölkələrə müəyyən səviyyədə təsir göstərsə də, bu problemin xüsusilə inkişaf etməkdə olan kiçik ada dövlətlərinə təsirləri daha böyükdür. Azərbaycan Prezidentinin müraciətində bu məqam xüsusi vurğulandı: "Biz inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin səbəb olduğu çağırışların həllini prioritet olaraq müəyyənləşdirmişik. Azərbaycan bu dövlətlərə kömək etməyi özünə mənəvi borc hesab edir və onlara həm maddi, həm də siyasi, o cümlədən Millətlər Birliyi təşkilatı çərçivəsində dəstək göstərir".

Qeyd edək ki, göstərilən səylərin davamlılığını təmin etmək məqsədilə müvafiq olaraq COP28, COP29 və COP30-un sədrləri qismində BƏƏ, Azərbaycan və Braziliya tərəfindən "İqlim Üçlüyü" də təsis olunub. Belə bir yanaşma müvafiq məsələlərin qlobal çərçivədə kompleks şəkildə müzakirəyə çıxarılaraq gündəmdə saxlanmasına, bu istiqamətdə beynəlxalq səylərin birləşdirilməsinə, problemlərin həllinə şərait yaradır.

Müraciətdə həmçinin iqlim dəyişikliklərinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqda ciddi maneələr yaranması qeyd edilir ki, bu da ölkələrin sosial-iqtisadi dayanıqlılığını zəiflədən əsas amillərdəndir.

Azərbaycan da iqlim dəyişikliklərinin ciddi təsirlərinə məruz qalan ölkələrdəndir. Müraciətdə də qeyd edildiyi kimi, ölkəmiz su qıtlığından doğan ciddi ekoloji problemlərlə üzləşib. Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi və çayların suyunun azalması buna bariz nümunədir. Azərbaycan Prezidentinin müraciətində bununla bağlı məqamlara yer verilməsi, ölkənin daxili vəziyyətini qlobal problemlərlə əlaqələndirərək müraciətin məzmununun lokal kontekstini də formalaşdırır.

## Azərbaycanın qlobal iqlim fəaliyyətinə dəstək əzmi

Prezident İlham Əliyevin müraciətində Azərbaycanın bu problemlərə qarşı cavab tədbirləri, iqlim dəyişikliyinə qarşı mübarizədə aktiv addımları barədə də ətraflı yer verilir. Məlum olduğu kimi, məsələnin aktuallığından irəli gələrək 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu il çərçivəsində bütün ölkə boyu bir sıra ekoloji xarakterli tədbirlər həyata keçirilir. Azərbaycan külək və günəş enerjisindən istifadə üzrə ardıcıl layihələrlə bərpaolunan enerji sahəsindəki potensialını da genişləndirməkdədir. Vətən müharibəsindəki tarixi zəfərimizdən sonra Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonaları elan olunması, həyata keçirilən "ağıllı şəhər", "ağıllı kənd" kimi layihələr postkonflikt dövründə azad yurdlarımızda aparılan bərpa və quruculuq işlərinin məhz ekoloji prinsiplərə əsaslandığını göstərir. Bu məqam həm də Azərbaycanın neft və qaz gəlirlərini "yaşıl enerji"yə yönəltməsi ilə əlaqədar balanslaşdırılmış inkişaf yolunu seçdiyini göstərir.

Prezident İlham Əliyevin müraciətində ölkəmizin qlobal iqlim fəaliyyətinə dəstək əzmi də öz ifadəsini tapır. Azərbaycanın COP29-a evsahibliyi etmək üçün namizədliyini irəli sürməsi və bu namizədliyin qlobal səviyyədə yekdilliklə dəstək qazanması da bunun təsdiqidir. Bu, Azərbaycanın beynəlxalq səviyyədə iqlim dəyişikliklərinə qarşı mübarizədə fəal rol oynadığını, etibarlı tərəfdaş kimi çıxış etdiyini nümayiş etdirir.

"Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək. İxtiyarımızda bir ildən az vaxtın olmasına baxmayaraq, biz tam məsuliyyəti öz üzərimizə götürərək nəzərəçarpan nailiyyətlər əldə etdik. Qadınların, parlament üzvlərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb olunduğu inklüziv COP29 Təşkilat Komitəsi Bakı COP-una hərtərəfli hazırlıq işlərinin görülməsini təmin edir.

COP29 sədrliyi "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutaraq bütün maraqlı tərəflərlə konstruktiv ruhda və şəffaf şəkildə əməkdaşlıq edir, çoxsaylı səfərlər həyata keçirir və narahatlıqlarını nəzərə almaq üçün hamını dinləyir" - Azərbaycan Prezidenti müraciətində bildirir.

## "Rolumuzu qərəzsiz şəkildə yerinə yetirməkdəyik"

Dövlətimizin başçısının müraciətində də öz əksini tapmış mühüm bir məqamı xatırladaq ki, bu gün Azərbaycanın qlobal istixana qazı emissiyalarında payı cəmi 0,1 faizdir. Bununla belə, ölkəmiz qlobal səylərə önəm verir. İqlim dəyişikliyinə əhəmiyyətli təsir göstərmədiyi halda bəşəriyyətin gələcəyini təhdid edən problemlərin vaxtında aradan qaldırılması üçün qlobal səylərin birləşdirilməsinə çalışır. Bütün bunlar ölkəmizin, dövlət başçımızın gələcəyə strateji baxışından, gələcək qarşısındakı məsuliyyətdən irəli gəlir.

Azərbaycan sülh, maliyyə, insan kapitalı, su və bir sıra digər məsələləri ehtiva edən 14 təşəbbüsdən ibarət iddialı Fəaliyyət Gündəliyi də hazırlayıb. Dövlət başçımızın müraciətində də qeyd edildiyi kimi, mövcud geosiyasi gərginlik fonunda "COP atəşkəsi çağırışı"nın aktuallığı daha da artır. Bu ilin sentyabrında Bakıda həmçinin İtki və Zərərə Cavab Fondunun əməli fəaliyyətə başlaması istiqamətində mühüm irəliləyiş əldə olunub.

Hazırda qarşıda duran əsas vəzifə isə inkişaf etməkdə olan, ən az inkişaf etmiş və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına cavab verən ədalətli və iddialı Yeni Kollektiv Kəmiyyət Hədəfinin razılaşdırılmasından ibarətdir. Yeni maliyyə məqsədi əhəmiyyətli artım tələb edir. Azərbaycan Prezidentinin çıxışında ölkələrin qərarlara təsir mexanizmi də aydın təsvir edilir və bildirilir ki, COP29-un sədri qismində nə Azərbaycan, nə də digər dövlət başqalarının adından qərar qəbul edə bilməz: "Bizim rolumuz danışıqlara dəstək vermək üçün platforma təmin etməkdən ibarətdir və inanırıq ki, bu rolumuzu qərəzsiz şəkildə yerinə yetirməkdəyik. Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş innovativ "Şamaxı məsləhətləşmələri" iqlim üzrə danışıqların gələcək inkişafı üçün səmərəli qeyri-rəsmi format rolunu oynaya bilər".

Azərbaycan Prezidentinin müraciətində bəyan edilir ki, Bakı COP-u multilateralizm üçün həlledici sınaq olacaq. Beynəlxalq ictimaiyyətin uğursuzluğa düçar olmağa ixtiyarı yoxdur və Yeni Kollektiv Kəmiyyət Hədəfi ilə bağlı razılaşma əldə olunmalıdır. "Mən COP29-da bizim ümumi uğurumuz kimi tarixə düşəcək tarixi razılaşmanın - "Bakı Sazişi"nin əldə olunmasını gözləyirəm" - cənab İlham Əliyev bildirir.

Prezidentin çıxışında irəli sürülən təşəbbüslər, o cümlədən Yeni Kollektiv Kəmiyyət Hədəfinə nailolma hədəfi, "COP atəşkəsi çağırışı", "Bakı Sazişi" platformaları Azərbaycanın beynəlxalq əməkdaşlığa hazır həllərlə açıq olduğunu və qlobal istiləşməyə qarşı qlobal səylərə dəstək verməkdə qətiyyətliliyini göstərir.

## "Vaxt itirməyə haqqımız yoxdur"

Prezident İlham Əliyevin müraciətində bəzi media qurumlarının Azərbaycanın imicini ləkələmək üçün apardığı qarayaxma kampaniyalarına da münasibət bildirilir, bütün bunların ölkənin iqlim dəyişikliklərinə qarşı mübarizəsinə mane ola bilməyəcəyi vurğulanır. Bu məqam Azərbaycanın beynəlxalq arenada özünü müdafiə etmək əzmini, iqlim dəyişikliklərinə qarşı davamlı mübarizəyə sadiqliyini göstərir.

"COP29-a hazırlığın son mərhələsinə qədəm qoyduğumuz bir vaxtda, mən sizi bəşəriyyət naminə konstruktiv şəkildə və xoş məramla əməkdaşlıq etməyə çağırıram. Dövlətlərin ümumi, lakin fərqli öhdəlikləri olsa da, onlar fikir ayrılıqlarını bir kənara qoymalı, birbirini günahlandırmağı dayandırmalı və ortaq məxrəcə gəlməlidirlər. Qlobal istiləşmədə kimin günahkar olduğunu və ya kimin ətraf mühitə daha çox zərər vurduğunu müəyyənləşdirmək üçün vaxt itirməyə haqqımız yoxdur".

Azərbaycan Prezidentinin Pre-COP29-a müraciəti qlobal səviyyədə iqlim dəyişikliyinə qarşı mübarizədə Azərbaycanın aktiv mövqeyini və bu istiqamətdəki təşəbbüslərini vurğulayır. Ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, daxili ekoloji siyasətini də möhkəmləndirmək məqsədi güdür. Müraciətin əsas çağırışı qlobal həmrəylik və əməkdaşlıq ruhunda bəşəriyyət naminə iqlim dəyişikliklərinə qarşı birlikdə mübarizə aparmaqdır. Ümid edirik ki, dünya ictimaiyyəti gələcək qarşısındakı mühüm məsuliyyətini anlayacaq və COP29-la bütün dünyada iqlim dəyişikliklərinə qarşı mübarizədə yeni bir dövr başlanacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Meksikada tələbələrə Azərbaycan və COP29 haqqında mühazirə oxunub

**Meksikanın tanınmış Milli Politexnik İnstitutunun tələbələrinə Azərbaycan və COP29 haqqında mühazirə oxunub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Meksikadakı səfirliyi məlumat yayıb. Səfirlikdə keçirilən görüşdə bu ölkədəki səfirimiz Məmməd Talıbov müasir Azərbaycanın keçdiyi tarixi inkişaf yolu, dövlət müstəqilliyinin bərpa edilməsindən bəhs edib. Diplomat həmçinin müstəqilliyimizin ilk illərində qarşıya çıxan çətinliklər, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, onun Azərbaycan dövlətinin quruculuğu istiqamətində müstəsna rolu, eləcə də Ulu Öndərin uzaqgörənliyi və ideyaları əsasında regionda həyata keçirilmiş dünyamiqyaslı enerji və nəqliyyat layihələri nəticəsində həm region, həm də bütün Avrasiya miqyasında geosiyasi proseslərdə baş verən müsbət dəyişikliklər barədə tələbələrə məlumat verib.

Səfir həmçinin çıxışında erməni təcavüzünün tarixi, 44 günlük müharibə və nəticələri, regiondakı yeni reallıqlar, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, davam edən sülh prosesi, ölkəmizin neft-qaz strategiyası, iqtisadi inkişaf göstəriciləri, mövcud mina təhlükəsi, məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdışının həyata keçirilməsi istiqamətində atılan addımlar haqda məlumat verib.

Ölkəmizin evsahibliyi etdiyi mötəbər tədbirlər, BMT-dən sonra ən iri təşkilat olan Qoşulmama Hərəkatına, BMT Təhlükəsizlik Şurası və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlarda uğurlu sədrlik təcrübəsi barədə tələbələri məlumatlandıran diplomat bu gün "yaşıl enerji"yə keçidi prioritet olaraq müəyyən edən Azərbaycanın COP29-a evsahibliyi və görülən fəal hazırlıq işlərindən söz açıb.

Bundan əlavə Meksika ilə Azərbaycan arasındakı ikitərəfli əlaqələr, son dövrlərdə həyata keçirilən qarşılıqlı səfərlər, ölkələrimiz arasında mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlıq imkanlarının genişləndirilməsi, eləcə də xarici tələbələr üçün ölkəmizdə mövcud olan təhsil imkanları, təcrübə və təqaüd proqramları barədə məlumat verilib, həmçinin tələbələr tərəfindən ünvanlanan çoxsaylı suallar cavablandırılıb.

# "CNNTürk": COP29 qlobal ekoloji gündəliyin formalaşdırılması kontekstində diqqətəlayiqdir

**Türkiyənin "CNNTürk" telekanalı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əhəmiyyəti ilə bağlı reportaj hazırlayıb.**




AZƏRTAC xəbər verir ki, "COP29-a 29 gün qalmış" adlı reportajda qeyd olunur ki, COP29 iqlim konfransı qlobal istiləşmənin qarşısının alınması və istixana qazları emissiyalarının azaldılması üçün qlobal yolların tapılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Reportajın müəllifi, professor Murat Ferman əvvəlki konfransın - BƏƏ-də keçirilən COP28-in nəticələrini xatırladaraq, dünyanın 118 ölkəsinin 2030-cu ilədək atom elektrik stansiyalarından və bərpaolunan enerji mənbələrindən istifadənin üç dəfə artırılması ideyasını artıq dəstəklədiyini xatırladıb.

Reportajda orta illik temperatur səviyyələri ilə sübut olunduğu kimi, qlobal istiləşmənin artması istiqamətində davam edən tendensiyaya diqqət yetirilir. "Alimlərin fikrincə, planetdə havanın orta temperaturu sənayedən əvvəlki dövrü rekord həddə - 1,5 dərəcə Selsi ötüb. Bütün bunlar insan fəaliyyətinin, əsasən qazıntı yanacaqlarından istifadənin, meşələrin qırılmasının və kənd təsərrüfatı sektorunun inkişafının nəticəsidir", - deyə materialda daha sonra qeyd edilir.

Telekanalın reportajında həmçinin hökumətlər tərəfindən ekoloji problemlərin həlli yollarının axtarışından, o cümlədən vergilərin tənzimlənməsi və "yaşıl texnologiya"ların stimullaşdırılmasından bəhs olunur.

Professor Ferman vurğulayır: "Kənd təsərrüfatı fəaliyyəti istixana qazlarının üçdəbirinə qədər emissiyasına cavabdehdir. Ətraf mühitin çirklənməsinin miqyası artır. Kimyəvi gübrələr suyun saflığı və qida təhlükəsizliyi üçün böyük problem yaradır. BMT-nin məlumatına görə, dünyanın münbit torpaqlarının 40 faizə qədəri çirklənib və ya deqradasiyaya uğrayıb".

Reportajın müəllifi həmçinin ətraf mühitə atılan ərzaq məhsullarının həcminə də diqqət yetirir. Onun sözlərinə görə, bu tullantıların həcmi ildə 1,5 milyard tona çatıb ki, bu da bütün dünya istehsalının üçdəbirinə bərabərdir və 3 milyard insanın ehtiyaclarını ödəyə bilər.

"CNNTürk"ün reportajında diqqətə çatdırılır: "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının əvvəlki sessiyalarının nailiyyətlərini və nöqsanlarını nəzərə alaraq, Bakıda keçirilən COP29 kollektiv səylərin müzakirəsi və qlobal ekoloji gündəliyin formalaşdırılması kontekstində diqqətəlayiqdir".

# Naxçıvanda "Yaşıl enerji" Könüllüləri yaradılıb

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti bölgədə alternativ və bərpaolunan enerji mənbələrinin təşviqi məqsədilə yeni bir təşəbbüsə imza atıb. Xidmət tərəfindən həyata keçirilən bu layihə çərçivəsində "Yaşıl enerji" Könüllüləri yaradılıb.**



Dövlət Energetika Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, "Yaşıl enerji" Könüllüləri COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayevin Naxçıvana səfəri zamanı verilən tövsiyə əsasında formalaşdırılıb.

Layihənin əsas məqsədi Naxçıvanda "yaşıl enerji"nin imkanlarını və faydalarını geniş kütləyə çatdırmaq, xüsusilə də gənclər arasında ətraf mühitin qorunması ilə bağlı maarifləndirmə işlərini gücləndirməkdir. Könüllülər qrupu bərpaolunan enerji texnologiyalarının tətbiqində, "yaşıl enerji" sahəsində təlim və infosessiyalar keçirməkdə aktiv rol oynayacaq. Həmçinin könüllülər tərəfindən startup layihələr də təqdim olunacaq. Layihənin tərkib hissəsi olaraq, könüllülər seminarlar, təlimlər və ictimai tədbirlər təşkil edəcəklər. Könüllülər həm də əhalini enerjiyə qənaətə və bərpaolunan enerji mənbələrindən istifadəyə təşviq edəcəklər. Layihənin ilk mərhələsində könüllü qrupu formalaşdırılaraq təlimə cəlb olunacaq.

Könüllülər üçün ingilis dilində kurslar da təşkil ediləcək. Gələcəkdə könüllülərin sayının artırılması planlaşdırılır.

# Küveyt mediası Azərbaycanla diplomatik münasibətlərin 30 illiyinə həsr olunmuş məqalələr dərc edib

**Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar bu ölkənin ərəbdilli mediasında - "əl-Nahar", "əl-Qabas", "əl-Sabah", "əl-Ray", "əl-Ənba", "əl-Cəridə" qəzetlərində, "q8-press", "dasman-news.com" elektron xəbər portallarında və ingilisdilli "Kuwaittimes", "Arabtimes" və "Ttimeskuwait" nəşrlərində geniş məqalələr dərc edilib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin Küveytdəki səfirliyinin təşəbbüsü ilə dərc olunan məqalələrdə dövlətlərarası əlaqələrin əsasının Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ilə Küveyt Əmiri Cabir Əl-Əhməd Əl-Sabah arasında 1994-cü ilin dekabrında Kasablankada (İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü), 1995-ci ilin martında Kopenhagendə (BMT-nin Sammiti) və 1995-ci ilin oktyabrında Nyu Yorkda (BMT-nin yubiley tədbiri) keçirilmiş görüşlərdə qoyulduğu bildirilir.

Qeyd olunur ki, Küveyt 1995-ci ildə Bakı şəhərində Beynəlxalq İslam Xeyriyyə Təşkilatının nəzdində fəaliyyət göstərən Asiya Müsəlmanları Komitəsinin ofisini açıb. Asiya Müsəlmanları Komitəsi 1996-cı ildə Küveyt Əmirinin tapşırığı və Ümummilli Lider Heydər Əliyevin xüsusi qayğısı ilə Azərbaycan paytaxtında qaçqın və məcburi köçkünlərə yardım məqsədilə ilk beynəlxalq konfrans təşkil edib. Əmir Şeyx Cabir Əl-Əhməd Əl-Sabahın müvafiq göstərişinə əsasən, 1995-ci ildə 200 ton ərzaq və tibbi yardımla dolu olan 5 təyyarə Azərbaycana göndərilib.

Məqalədə diqqətə çatdırılır ki, Azərbaycanla Küveyt arasında diplomatik münasibətlər 1994-cü il oktyabr ayının 7-də qurulub. 2004-cü ildə Azərbaycanın Küveytdə səfirliyi, 2006-cı ildə isə Küveytin ölkəmizdə diplomatik nümayəndəliyi fəaliyyətə başlayıb.

Küveyt mediası vurğulayıb ki, 2009-cu il fevralın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin Küveytə rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında və siyasi əlaqələrin daha yüksək səviyyəyə qalxmasında mühüm əlamətdar hadisə olmuşdur. Səfər çərçivəsində dövlət başçılarının iştirakı ilə Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlığa dair Birgə Komissiyanın yaradılması, sərmayələrin təşviqi və qarşılıqlı qorunması, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması, ticarət, turizm sahələrində əməkdaşlıq haqqında mühüm sazişlər imzalanıb. Həmçinin səfər zamanı Küveyt Əmiri Prezident İlham Əliyevə ölkəsinin ən ali mükafatı olan "Mübarək əl-Kəbir" ordenini, Azərbaycan Prezidenti isə Əmirə Azərbaycanın ən ali mükafatı olan "Heydər Əliyev" ordenini təqdim edib.




Daha sonra qeyd olunub ki, Küveyt Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib, 14 mart 2008-ci ildə BMT-də "İşğal olunmuş Azərbaycan ərazilərindəki vəziyyət" adlı qətnamənin lehinə səs verib.

Məqalələrdə Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üzrə Birgə Komissiyanın hər iki dövlətin paytaxtında keçirilmiş iclasları haqqında geniş məlumat verilir. Qeyd edilir ki, Birgə İqtisadi Komissiyanın növbəti iclasının Küveytdə keçirilməsi planlaşdırılır və həmin tədbir çərçivəsində təhsil, ədliyyə, kənd təsərrüfatı, mədəniyyət, idman sahələrində əməkdaşlıq haqqında yeni sazişlərin imzalanması gözlənilir.

Yazılarda iki ölkə arasında intensiv xarakter daşıyan və müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlər haqqında da ətraflı məlumat verilir. Vurğulanır ki, hazırda Azərbaycan ilə Küveyt arasında ticarət dövriyyəsinin artırılması məqsədilə qarşılıqlı səfərlərin təşkili və biznes dairələri arasında münasibətlərin yaradılması istiqamətində, habelə işğaldan azad olunan ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində Küveyt şirkətlərinin də iştirakının təmin edilməsi üzrə fəaliyyət davam etdirilir. Bu kontekstdə təhsil, mədəniyyət və turizm sektorunda əməkdaşlığın genişləndirilməsi xüsusi vurğulanır.

Məqalələrdə bildirilir: "Azərbaycan Küveytdə əla tanınır və azərbaycanlılara qarşı münasibət çox yaxşıdır. Fəxrlə deyə bilərik ki, Küveytdə Azərbaycan neft və qaz ixrac edən, əsrarəngiz təbiəti olan, möhtəşəm beynəlxalq idman yarışlarına, konfranslara və digər tədbirlərə evsahibliyi edən, Cənubi Qafqazın inkişaf etmiş, Qarabağ torpaqlarını öz gücünə işğaldan azad edən müsəlman ölkəsi kimi tanınır".

Küveyt mediası noyabrda Bakıda keçiriləcək COP29 iqlim konfransının böyük əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırılıb ki, bununla əlaqədar olaraq 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Müəllif Küveyt Dövlətinin bu mötəbər tədbirdə ən yüksək səviyyədə iştirak edəcəyinə əminliyini ifadə edib.

Məqalələrdə qeyd edilib ki, həmçinin bu il Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Qazax sakini minaya düşüb

**Oktyabrın 14-də Qazax rayonunun Quşçu Ayrım kəndi ərazisində mina hadisəsi baş verib.**

Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat xidmətlərindən AZƏRTAC-a bildirilib ki, kənd sakini 2001-ci il təvəllüdlü Sarıyev İlkin Amil oğlu heyvan otararkən minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb.

Hadisə nəticəsində Sarıyev İlkin sağ ayağından xəsarət alıb. Xəsarət alan şəxs rayon xəstəxanasına çatdırılıb. Vəziyyəti stabildir.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yeri müayinə olunur və digər zəruri prosessual hərəkətlər icra edilir.



Faktla bağlı Qazax Rayon Prokurorluğunda araşdırma aparılır.

ANAMA, Daxili İşlər Nazirliyi və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır!

# Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri təlim-məşq uçuşları icra edib

**Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş təyyarələri hazırlıq planına uyğun olaraq, təlim-məşq uçuşları icra edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə yerinə yetirilib. Hərbi pilotlar tərəfindən qalxma və enmə, aşağı, eləcə də orta hündürlükdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra olunub. Hərbi qulluqçuların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlər zamanı hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər.



# Yağış yağacağı ehtimalı var

**Azərbaycanda oktyabrın 15-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin gün ərzində dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Gecə və axşam yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var.

Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 12-16° isti, gündüz 17-20° isti təşkil edəcək.

Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət gecə və gündüz 60-70 faiz olacaq.



Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, əksər rayonlarda fasiləli yağıntı olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-15°, gündüz 16-21°, dağlarda gecə 3-7°, gündüz 10-15° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14° isti, gündüz 20-25° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy və Göygölün bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 12-17° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 12-17° isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 9-14° isti, gündüz 15-20° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz qərb rayonlarında yağıntıda fasilə olacaq. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 11-16° isti, dağlarda gecə 3-8°, gündüz 10-16° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-15° isti, gündüz 16-21° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-15° isti, gündüz 15-20° isti, dağlarda gecə 7-10° isti, gündüz 12-14° isti olacağı proqnozlaşdırılır.

# Çin Tayvan boğazında hərbi təlimlərə başlayıb

**Çin Xalq Azadlıq Ordusu (ÇXAO) Tayvan boğazında "Birgə xəncər 2024B" adlı hərbi təlimlərə başlayıb. Bu barədə məlumat verən ÇXAO-nun Şərq Bölgəsi Döyüş Komandanlığının nümayəndəsi, baş polkovnik Li Si bildirib ki, təlimlər Tayvanın müstəqillik qüvvələrinin separatçı fəaliyyətinə sərt xəbərdarlıq rolunu oynayır. Bu, milli suverenliyi və birliyi qorumaq üçün qanuni və zəruri əməliyyatdır.**



Si həmçinin geyd edib ki, təlimlərdə müxtəlif qüvvələrdən olan əsgərlər Tayvan sahillərində birgə iştirak edəcəklər. Əsas diqqət hava-dəniz döyüşləri və patrul xidməti, həmçinin vacib limanların blokadası, dəniz və yerüstü hədəflərə hücuma yönəldiləcək. Bu yolla, ÇXAO komanda mərkəzi rəhbərlik etdiyi əsgərlərin birlikdə işləməyə hazırlığını yoxlayır.

Tayvan Müdafiə Nazirliyi 17 Çin gəmisinin və 125 təyyarənin adaya yaxınlaşdığını bildirib. Rəhbərlik Çinin keçirdiyi hərbi təlimlər fonunda Pekinlə münaqişələri genişləndirməyi planlaşdırmır. Bu barədə oktyabrın 14-də nazirliyin Mətbuat xidmətindən məlumat verilib. Bildirib ki, bütün zabit və əsgərlərdən daha ayıq-sayıq olmaq, monitorinqi gücləndirmək və fəaliyyətlərini əlaqələndirmək, yumşaqlıq prinsipinə əməl olunması üçün sahil patrul xidməti və digər bölmələrlə sıx əməkdaşlıq etmək və hadisələrə münaqişələri qızışdırmadan və mübahisələrə səbəb olacaq hərəkətlərə yol vermədən reaksiya göstərmək tələb olunur. Həmçinin qeyd olunub ki, mütəxəssislər və hərbçilər Çinin raket qüvvələrinin bölmələrinin hərəkətini izləyəcəklər.

Bundan əvvəl, sentyabrın 26-da Tayvan Çinin 43 təyyarə və 8 gəmisinin adaya yaxınlaşmasını qeydə alıb. Tayvan ordusu hədəfləri izləmək üçün təyyarələrdən, gəmilərdən və yerüstü zenit-raket sistemlərindən istifadə edib.

Çin və Tayvan arasında münaqişə ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin 2022-ci ilin avqustunda adaya səfərindən sonra kəskinləşib. Çin tərəfi Tayvanı öz ərazisi hesab edir və buna görə də başqa ölkələrin rəsmilərinin adaya səfərlərini Tayvanın müstəqilliyinə dəstək kimi qiymətləndirir.

Bu arada Çin Xalq Azadlıq Ordusunun Tayvan yaxınlığında hərbi təlimlər keçirməsi ilə əlaqədar ABŞ hərəkətlərini müttəfiqləri ilə koordinasiya edir. Bunu Dövlət Departamentinin Mətbuat xidmətinin rəhbəri Metyu Miller deyib: "Biz ÇXR-in fəaliyyətini izləməyə və ümumi problemlərimizlə bağlı müttəfiqlər və tərəfdaşlarla hərəkətlərimizi əlaqələndirməyə davam edirik".

Bundan əlavə, Dövlət Departamenti Çini təmkinli olmağa çağırıb və hərbi təlimlərlə bağlı narahatlığını bildirib.

Qeyd edək ki, ABŞ açıq şəkildə Tayvan hakimiyyətini dəstəkləyir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Oruc Zalov istefada olan polis polkovniki Namiq İsmayılova oğlu

**CAVİD İSMAYILZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Nevrologiya kafedrasının professoru

**ZAKİR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4173
Sifariş 2364

Qiyməti 60 qəpik